www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 3 avqust 2016-cı il Çərşənbə № 168 (6489) Qiyməti 60 qəpik

**Xəbər**

## Ölkədə bir gündə 3 nəfəri elektrik vurdu

yazısı səh.14-də

**Gündəm**

### Müharibə variantı yenidən gündəmə qayıdır



Hərbi və siyasi şərhçilər Azərbaycanın işğalçı ölkə qarşısında konkret tələblər qoymağın vaxtı çatdığını deyirlər...

yazısı səh.11-də

### Nigar Yaqublu və Seymur Həzi həbsxanada evləndilər

yazısı səh.3-də

### Söz azadlığı terrorun kölgəsində: dünya ictimaiyyəti medianı niyə müdafiə etmir? - araşdırma

yazısı səh.12-də

### Çörəklə bağlı qiymət müəmması - artıb, yoxsa...

yazısı səh.10-da

### Namus üstündə polisi öldürən şəxs: "Keçmiş arvadımla onun şəklini çəkmişəm"

yazısı səh.13-də

### Əhali kreditlərini qaytara bilmir - bilərəkdən ödəniş etməyənlər də var

yazısı səh.10-da

### Yanan bina ilə bağlı zərərçəkənlər məcburi məhkəməyə çağırıldılar

yazısı səh.12-də

### Vergilər Nazirliyi ilə şou-biznes nümayəndələri arasında qalmaqal səngimir

yazısı səh.14-də

### Hesablama Palatası dövlət qurumlarında yeyinti axtarır

yazısı səh.13-də

### Milyarder Kərimov Telman İsmayılova hücuma keçdi

yazısı səh.10-da

### Uşaqları güldürən, böyükləri "ağladan" əyləncə mərkəzləri - əməkdaşımızın istirahət məkanlarından qeydləri

yazısı səh.15-də

## Düşmən ölkə növbəti çalxalanma ərəfəsində

# SƏRKİSYANA HİDDƏT SƏNGİMİR - YENİ QİYAM YETİŞİR

Ermənistan prezidentinin son açıqlamaları ictimai-siyasi kəsimi sakitləşdirmək əvəzinə, qəzəbi daha da artırıb; yerli media ölkə başçısını riyakarlıqda suçladı; müxalifət isə hakim rejimi növbəti silahlı üsyanla hədələyir...



yazısı səh.9-da

## Şirvandakı partlayışların səbəbi gizli saxlanılır - motiv

Nazir Yavər Camalov hesabat vermək əvəzinə, "Yeni Müsavat"ı məhkəmə ilə hədələdi; nazirliyin mətbuat xidmətini qıcıqlandıran nədir?

yazısı səh.5-də



### Qubad İbadoğlundan Arif Hacılıya sərt sözlər

yazısı səh.6-da



Fətullah Gülən

### Gülən camaatı Azərbaycanda çevriliş edə bilərmi - ekspertlər iddia edir ki...

yazısı səh.5-də



*Pənah Hüseyn:*

### "Hakim komandada referendumla bağlı qeyri-müəyyənlik var"

yazısı səh.4-də



# Partiyalar qarşısında 40 min imza problemi

## Təşviqat qrupu yaratmaq və İTV-də efir hüququ əldə etmək üçün tələblər; YAP-ın təşviqat qrupunun adı bəlli oldu

**Azərbaycanın hakim partiyası YAP və bəzi müxalifət partiyaları 26 sentyabrda keçiriləcək referendumla bağlı təşviqat qrupları yaratmaq istiqamətində fəaliyyətə başlayıb. Azərbaycan Respublikasının Konstitusiyasına əlavə və dəyişikliklərlə bağlı referendumda təşviqat qrupu qismində iştirak etmək üçün Yeni Azərbaycan Partiyası tərəfindən təşəbbüs qrupunun yaradılması məqsədilə avqustun 1-də təşəbbüsçülərin yığıncağı keçirilib. YAP-dan verilən məlumata görə, yığıncaqda 3952 ilkin təşəbbüsçünü təmsil edən 315 nümayəndə iştirak edib.**

Təşəbbüs qrupunun "Yeni Azərbaycan" adlandırılması qərara alınıb. Təşəbbüsçülərin yığıncağında Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq təşəbbüs qrupunun 24 nəfər səlahiyyətli nümayəndəsi və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsi təyin olunub, habelə yaradılan "Yeni Azərbaycan" təşəbbüs qrupunun qeydiyyatdan keçməsi məqsədilə Mərkəzi Seçki Komissiyasına bildiriş təqdim edilməsi haqqında qərar qəbul edilib.

Müxalifət partiyalarından isə hələlik yalnız Müsavat Partiyası "Respublika" təşviqat qrupu elan edib. REAL Vətəndaş Hərəkatı da təşviqat qrupu yaratmaq niyyətini açıqlayıb.

26 sentyabrda keçiriləcək konstitusiyaya edilən əlavə və dəyişikliklərlə bağlı referendum üzrə təşviqat qrupunun yaradılması üçün avqustun 2-də saat 12-də Müsavat Məclisinin referendumla bağlı növbədənkənar sessiyası və təşviqat qrupu yaradılması üçün təşəbbüs qrupu nümayəndələrinin toplantısı keçiriləcək. Müsavat Partiyasından verilən məlumata görə, artıq 50-yə yaxın regionda "Respublika" təşviqat qrupu üzrə ilkin təşəbbüs qrupları yaradılıb.

Hakim partiyanın təşviqat qrupu referendumun lehinə, Müsavatın "Respublika" təşviqat qrupu isə əleyhinə təbliğat aparacaq.

Təbliğatın aparılması üçün isə Seçki Məcəlləsi bir sıra imkanlar verir. Bunlardan ən mühümü İctimai Televiziyada ödənişsiz və ödənişli efir vaxtının verilməsidir. Efir vaxtı əldə etmək və ölkə boyu təbliğat aparmaq üçün təşviqat qrupu yaradılmalıdır. Seçki Məcəlləsinin tələbinə görə, təşviqat qrupunun yaradılması üçün ən azı 2 min imza tələb olunur. 40 min imza toplaya bilən təşviqat qrupu İctimai Televiziyada pulsuz efirlə təmin edilir. Mərkəzi Seçki Komissiyasının kimlərin yaradacağı təşviqat qrupunu qeydə alacağı barədə isə indidən dəqiq fikir bildirmək tezdir.

Referendumla bağlı təbliğat-təşviqat kampaniyasına Seçki Məcəlləsinin tələbinə görə, sentyabrın 3-də start veriləcək.

❑ **Etibar SEYİDAĞA**


**"Qaya Mətbuat Yayımı" MMC!**

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir:**


# İlqar Məmmədovun şikayətinə nə vaxt baxılacağı bilinmir

## Amnistiyaya düşən Fərəc Kərimlinin azadlığa buraxılacağı vaxt da bilinmir



İlqar Məmmədov



Fərəc Kərimli

REAL hərəkatının sədri İlqar Məmmədovun şikayətinə Ali Məhkəmədə nə vaxt baxılacağı barədə hələ də xəbər yoxdur. Vicdan məhbusunun kasasiya şikayətinin üzərindən artıq 1 aydan çox zaman keçib.

İ. Məmmədovun xanımı Vəfa Məmmədova "Yeni Müsavat"a bildirib ki, onunla dünən görüşüb. V. Məmmədovanın sözlərinə görə, REAL sədrinin durumu qaydasındadır: "Onunla görüşdüm. Səhhəti ilə bağlı hər hansı bir problemi yoxdur. Əhvalı da pis deyildi. Yəni ümumilikdə durumu qaydasındadır. Məhkəməsi ilə bağlı soruşdum, o da cavab verdi ki, bu barədə özünün də heç bir fikri yoxdur. Mənə dedi ki, məhkəməni nə zamana qədər uzadacaqları bəlli deyil".

Xatırladaq ki, İlqar Məmmədov 2013-cü il fevralın 4-də İsmayıllı rayonunda kütləvi etiraz aksiyası ilə bağlı hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə, xuliqanlıq ittihamları ilə həbs edilib. O, 2013-cü ilin yanvarında baş verən İsmayıllı hadisələrinə görə təqsirləndirilir. 2014-cü il martın 17-də 7 il müddətinə azadlıqdan məhrum edilib. Avropa İnsan Haqları Məhkəməsinin onun azadlığa buraxılması barədə bir neçə qərarı var.

Amnistiya aktına düşən Müsavat başqanının müavini Fərəc Kərimlinin isə nə zaman azadlığa buraxılacağı sual altındadır. Saxlanıldığı 14 saylı cəzaçəkmə müəssisəsində amnistiyaya düşənlərin çoxu azad edilsə də, hələ bu qərar ona şamil edilməyib.

**F. Kərimlinin atası Raqif Kərimli "Yeni Müsavat"a bildirib ki, oğlu ilə tez-tez telefon əlaqəsi saxlayıb, həftəlik görüşlərdə onunla görüşür:** "Onunla ötən həftə görüşdüm. Səhhətində hər hansı bir problem yoxdur. 14 saylı cəzaçəkmə müəssisəsində vəziyyət bir qədər yaxşı deyil. Əvvəllər su vermirdilər. İndi isə bu problem həll olunub. Artıq su verirlər. Fərəc amnistiyaya düşsə də hələ də azadlığa buraxılmır. Özünə də nə zaman buraxılacağı ilə bağlı heç nə deməyiblər. Biz də, sadəcə olaraq, gözləyirik ki, Fərəci nə zaman azadlığa buraxacaqlar. Hələ ki bu barədə hər hansı bir xəbər yoxdur.

Qeyd edək ki, Fərəc Kərimli 2014-cü il iyulun 23-də həbs edilib. Ona qarşı Cinayət Məcəlləsinin 234.4.3 maddələri ilə (kütləvi şəkildə narkotik maddələr əldə etmə, saxlama və satma) cinayət işi açılıb və məhkəmə qərarı ilə 6 il yarım azadlıqdan məhrum edilib. Bu ilin mayında Ali Məhkəmə onun həbs müddətini 3 ilə qədər endirdiyinə görə, qəbul edilən amnistiya aktı ona da şamil olunub.

❑ **Əli RAİS**

# İlhamə Quliyevanın həbsdəki köməkçisi buraxıla bilər

## Vəkil: "Cinayət işində heç bir sübut yoxdur"; həbsxana həyatı Mehriban Hüseynovada əsəb pozğunluqları yaradıb



**Mərhum İlhamə Quliyevanın həbsdə olan köməkçisi Mehriban Hüseynovanın cinayət işi üzrə materiallar bugünlərdə Bakı Ağır Cinayətlər Məhkəməsinə göndəriləcək. Bu barədə müsavat.com-a açıqlamasında M.Hüseynovanın vəkili Vasif Mirzəyev bildirib.**

Vəkil qeyd edib ki, materialların göndərilməsi ötən həftə nəzərdə tutulsa da müəyyən səbəblərdən proses bugünlərdə həyata keçiriləcək. V. Mirzəyevin sözlərinə görə, məhkəmə işə ədalətli yanaşıb obyektiv qərar qəbul edərsə, müvəkkili tezliklə azadlığa çıxa bilər: "Onun azadlığa buraxılması ilə bağlı vəsatət qaldıracağıq. Bu adamın əməlində cinayət tərkibi iş yoxdur. Bütün sübutlar yalnız kimlərinsə, o cümlədən Orxan Nadirov, Vüqar Bəkirov və Zəminə adlı qadının ifadələrindən ibarətdir. Onlar əvvəldən oyun oynayıblar. Hamısı istəyib ki, İlhamə xanımın var-dövlətini ələ keçirsinlər. Mehriban xanımı da aldadıblar, sonradan görüblər ki, onları İlhamə xanıma sata bilər, planın üstünü açıb İlhaməyə deyiblər və işi bu yerə qədər gətirib çıxarıblar. İlhamə Quliyeva da xəstə adam olub və gedib şikayət edib, cinayət işi başlayıb. Amma cinayət işində Mehriban Hüseynovanın əleyhinə, onun təqsirli olduğuna heç bir sübut yoxdur. Sübutlar yalnız söz yığnağından ibarətdir. Cinayət işi 4 cilddən ibarətdir. Onun da bir cildində yalnız İlhamə xanımın xəstəliyi ilə bağlı olan məsələlər yer alır. Məlumdur ki, o adam xəstə olub və xəstəlik ucbatından dünyasını dəyişib. Yəni ona hər hansı bir dərman içizdirilməsi sübuta yetirilməyib".

**Vəkil həmçinin qeyd edib ki, müvəkkili Mehriban Hüseynovada ciddi əsəb pozğunluqları yaranıb:** "Əsəbləri çox pis, hədsiz dərəcədə pozulub. Ədalətsizlik onu həddindən artıq stressə salıb, mənəvi baxımdan vəziyyəti çox pis haldadır... Əgər məhkəmə obyektiv qərar verməsə, Avropa Məhkəməsinə qədər gedəcəyik".

Qeyd edək ki, M. Hüseynova Cinayət Məcəlləsinin 29.180.3.2-ci (külli miqdarda soyğunçuluq etməyə cəhd) maddəsinə əsasən ittiham olunur. O, İ. Quliyevanın şikayəti əsasında saxlanılıb.

**İ. Quliyeva bu il fevralın 25-də dünyasını dəyişib.**

❑ **Xalidə GƏRAY**

# Naxçıvanın sabiq MTN nazirinin azadlıq istəyinə "yox" deyildi

**Vəzifə səlahiyyətlərindən sui-istifadə və mənimsəməkdə təqsirləndirilərək 14 il azadlıqdan məhrum edilən Naxçıvan Muxtar Respublikasının sabiq milli təhlükəsizlik naziri Vəli Ələsgərovun şikayəti təmin edilməyib. Musavat.com-un məlumatına görə, sabiq nazirin barəsində olan hökmdən apelyasiya şikayətinə Naxçıvan Apelyasiya Məhkəməsində baxılıb.**

Vəli Ələsgərovun vəkili Vüqar Xasayev hüquqlarını müdafiə etdiyi şəxsin barəsində olan hökmün ləğv edilməsini və onun barəsində bəraət hökmünün çıxarılmasını istəmişdi. Müşavirədən qayıdan məhkəmə heyəti apelyasiya şikayətinin təmin olunmadığını açıqlayıb. Vəkil məhkəmənin bu qərarından Ali Məhkəməyə kasasiya şikayəti verəcəklərini deyib.

Xatırladaq ki, V.Ələsgərov Cinayət Məcəlləsinin 179.3.2-ci (mənimsəmə və ya israf etmə, külli miqdarda törədildikdə), 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə, yəni vəzifəli şəxsin xidməti vəzifələrinin icrası ilə əlaqədar özü və ya üçüncü şəxslər üçün qanunsuz üstünlük əldə etmək məqsədi ilə qulluq səlahiyyətlərindən qulluq mənafeyinə qəsdən zidd olaraq istifadə) və 309.1-ci (vəzifə səlahiyyətlərini aşma, vəzifəli şəxs tərəfindən xidməti səlahiyyətlərinin hüdudlarından açıq-aşkar surətdə kənara çıxan hərəkətlər etmək) maddələri ilə ittiham olunub.

❑ **İ.MURADOV**

# Ayağı səhvən kəsilən qadın öldü

**Cərrahiyyə əməliyyatı zamanı sol ayağının əvəzinə sağ ayağı amputasiya olunmuş 87 yaşlı Tərlan Həsən qızı Məmmədova dünyasını dəyişib.**

Xatırladaq ki, iyunun 24-də uzun müddət diabet xəstəliyindən əziyyət çəkən Bakı şəhər sakini, 1929-cu il təvəllüdlü Tərlan Məmmədova Səhiyyə Nazirliyinin Xüsusiləşdirilmiş Angioloji Mərkəzində həkim-cərrah Valeh Ağalələ oğlu Kərimov tərəfindən cərrahiyyə əməliyyatı olunarkən sol ayağı amputasiya edilməli olduğu halda, sağ ayağı amputasiya edilib. Sonradan onun sol ayağı da kəsilib.

Səhiyyə Nazirliyinin kollegiyasının qərarına əsasən, həkim-cərrah Kərimov Valeh Ağalələ oğlu işində yol verdiyi ciddi nöqsana görə vəzifədən azad edilib. Əməliyyatda assistent kimi iştirak edən həkim-cərrah Rzazadə Əfsər Əsgər oğluna sonuncu xəbərdarlıqla şiddətli töhmət verilib. Bundan əlavə, Xüsusiləşdirilmiş Angioloji Mərkəzinin direktoru Şəmsəddinski Azər Əkbər oğlu tutduğu vəzifədən azad olunub.

**Türkiyənin Azərbaycandakı səfiri İsmayıl Alper Coşqun avqustun 2-də Azərbaycanda tirajlanan mətbuat orqanlarının bir qrup köşə yazarı ilə görüşdü. Diplomatik nümayəndəlikdə baş tutan görüşdə səfirliyin mətbuat üzrə müşaviri Hamid Karadeniz də iştirak edirdi.**



# Türkiyə səfiri Azərbaycanın köşə yazarları ilə görüşdə ilginc açıqlamalar verdi

## İsmayıl Alper Coşqun: "Diqqət edək, lütfən, bu, mənim bildiyim din, mənim bildiyim İslam deyil"

Səfir İsmayıl Alper iştirakçıları bir-bir səmimiyyətlə salamladıqdan sonra bildirdi ki, media mənsubları ilə görüş zərurəti ölkəsində baş verən 15 iyul dövlət çevrilişinə cəhd və ondan sonra cərəyan edən hadisələr ətrafında müzakirə aparmaq zərurətindən irəli gəlib. Diplomatın sözlərinə görə, əslində Azərbaycan çevriliş cəhdində Türkiyə dövlətinin yanında olduğu üçün Ankara burdakı münasibətdən çox razıdır. Lakin bununla belə müəyyən fikir mübadilələrinin aparılması da işin faydasınadır. "Biz dünyanın hər yerində Türkiyə ilə bağlı doğruları anlatmağa çalışırıq. Ancaq bu məsələ Azərbaycana aid deyil. Çünki siz doğruları daha yaxşı görürsünüz", - deyə səfir bildirdi.

İsmayıl Alper Coşqun Türkiyədəki çevriliş cəhdinin arxada qaldığını vurğuladı: "Biz yaxın tariximizdəki ən ciddi təhlükələrdən birini adladıq. Cümhuriyyətimizin 100-cü ildönümünü qeyd etməyə hazırlaşdığımız bir vaxtda Türkiyədə böyük fəlakətlər yaşandı. Bu, son dərəcədə üzücüdür. Ancaq şükürlər olsun ki, Türk xalqı daha böyük faciələrin baş verməsinə imkan vermədi. Türkiyənin tarixində çevrilişlər çox olub. Bizim ölkəmiz uzun illərdən bəri terrorla mücadilə aparan bir ölkədir. 15 iyul gecəsi isə xain şəbəkənin etdikləri terrorun zirvəsi oldu. Cümhurbaşqanının etdiyi müraciətdən sonra xalq küçələrə töküldü, demokratiya şüarları altında Türkiyənin bir çox yerlərində çevrilişə qarşı sərgilədiyi mənzərə ölkəmizdə demokratiyanın necə inkişaf etdiyini sübuta yetirdi. Eyni zamanda çevrilişlə hakimiyyətə gəlməyin mümkün olmadığını isbat etdi. Türkiyə bütün qurumları ilə dimdik ayaq üstədir. Ölkəsinə, dövlətinə, millətinə bağlı bütün vətənpərvər məmurlarımız üç-dörd saat yuxu almaqla gərəkəni edirlər. Şübhəmiz yoxdur ki, Türkiyə bu hadisələrdən güclənərək çıxacaq. Türkiyə çox ciddi təhlükələri adladı və Azərbaycan xaric, dünyaya demokratiya dərsi verdi".

Diplomat bildirdi ki, çevriliş gecəsi türk mediasının, vətəndaş cəmiyyətinin "oynadığı rol bir əfsanə"dir. Onun sözlərinə görə, telekanalların kəsilməsinə çalışıldığı halda prezidentin bir cib telefonu ilə xalqa xitab etməsi o gecə dönüş nöqtəsinə çevrildi, xalq küçələrə axışdı və çevrilişin qarşısı alındı. Səfir əlavə etdi ki, 15 iyul olmasaydı belə, bu olaylar başqa günün birində ortaya çıxacaqdı: "Şəhidlərimiz var, amma şükürlər olsun ki, daha böyük fəlakətlərin qarşısı alındı. Biz Konstitusiyamızın devrilməsinin mücadiləsini apardıq və sonda qalib gəldik. İndi də bu hadisələrin növbəti dəfə təkrarlanmaması üçün gərəkilənlər edilir, fətullahçılara qarşı müvafiq tədbirlər həyata keçirilir".



MUSAVAT.COM

## "Türkiyə bu hadisələrdən güclənərək çıxacaq"

Diplomat "Fətullahçı terror hörgütü" ilə bağlı tədbirlərin də davam etdirildiyini bildirdi və dəfələrlə Azərbaycanın tutduğu mövqedən razılığını dilə gətirdi: "Azərbaycanda hər kəs bu təhlükəni ürəkdən lənətlədi. Mən bunu böyük minnətdarlıq hissi ilə deyirəm. Azərbaycan bu davranışı ilə həm qardaşlıq mövqeyini ifadə etdi, həm də doğrunun yanında dayanmaqla nümunəvi davranış sərgilədi". Səfirin sözlərinə görə, Azərbaycanda olduğu kimi, son hadisələrlə əlaqədar səmimi əndişələnənlərlə yanaşı, vəziyyətdən sui-istifadə edənlər də var və bu istiqamətdə spekulyasiyalara yol verilir.

Azərbaycanda Türkiyənin turizm sektoru ilə bağlı narahatlıqlar haqda danışan səfir dedi ki, qoy, heç kim narahatlığı olmasın. "AZAL kimi Türk Hava Yolları da normal fəaliyyətini təhlükəsizlik şəraitində davam etdirir. Azərbaycanın Türkiyə ilə işbirliyində heç bir sıxıntılar olmayacaq",- deyə böyükelçi vurğuladı.

Səfir "inanclı olduğu" deyilən fətullahçıların müxtəlif qurumlar daxilindəki fəaliyyətindən də bəhs etdi: "30 il Türkiyə bayrağı altında xidmət edən adamlar o gecə "mənəvi lider"lərinin təlimatı ilə Türk xalqına silah çəkdilər. Bu, silahlı qüvvələrin çevriliş cəhdi deyil, uniforma geymiş, ağlını itirmiş bir qrupun cəhdi idi".

Ordu generalı İlker Başbuğun çevriliş cəhdinin arxasında ABŞ kəşfiyyatının dayanması barədə dedikləri barədə səfirin reaksiyası belə oldu: "ABŞ bizim müttəfiqimiz, dost bildiyimiz və dost görmək istədiyimiz bir ölkədir. Fətullah Gülənin bu darbənin arxasında dayandığına dair bizim şübhəmiz yoxdur. Ancaq ABŞ-ın aramızdakı anlaşmaya uyğun olaraq onun Türkiyəyə təhvil verilməsi lazımdır. ABŞ-ın hər hansı qurumunun bu olayın arxasında dayanıb-dayanmadığı haqda qəti məlumatımız yoxdur, rəsmilərimiz də bu haqda konkret mövqe bildirməyib. Bu adam 15 ildir orda yaşayır və şübhəsiz ki, bu prosesləri oradan tətikləyib. Bizim ABŞ-dan gözləntimiz dostluq, müttəfiqlik münasibətlərinə uyğun addımlar atmasıdır. Bizim ABŞ-dan istədiyimiz konkret və açıqdır: bu təhvil-təslimi gerçəkləşdirməsi gərəkdir ki, ədalət yerini alsın".

Azərbaycandan hansısa tələblərinin olmadığını deyən səfir "biz bu təcrübəmizi Azərbaycanla paylaşırıq" dedi. Ancaq bununla belə, o, Türkiyədən üçüncü ölkələrə yayılan bu təhlükənin "virus kimi" inkişaf etdiyini etiraf etdi. Diplomat bir sıra əcnəbi ölkələrin mediasında Türkiyədə baş verənlərin saxtalaşdıraraq yayınlamasından da bəhs etdi və bu kimi hallara etirazını bildirdi.

NATO-Türkiyə münasibətlərinə gəldikdə, səfir "Biz NATO-nun önəmli ölkəsiyik və fəaliyyətimizi davam etdirəcəyik, bu mövzu ilə bağlı da bəzi spekulyasiyalar oldu" söylədi. Gülən camaatının inanclı olması ilə bağlı deyilənlərə cavabında isə İsmayıl Alper "diqqət edək, lütfən, bu, mənim bildiyim din, bu, mənim bildiyim İslam deyil" dedi. Ərdoğan iqtidarının dini inanclara önəm verməsi barədə fikirlərə cavabında isə qeyd etdi ki, ümumilikdə Türkiyə toplumu inanclı toplumdur. 15 iyul gecəsi mühafizəkar, baş örtülü xanımlarla müasir vətəndaşların eyni şəkildə çevrilişə qarşı mübarizə apardığını dedi və bununla bağlı səslənən iddiaları da təkzib etdi.

Türkiyədə demokratiyanın taleyi barədə narahatlıqlar haqda sualın cavabında səfir "15 iyul hadisələrindən sonra demokratiya məsələlərində hansısa problem olmayıb, belə bir şey mümkün deyil" - söylədi. Əlavə etdi ki, o hadisələrdən sonrakı müzakirələrdə daha çox Türkiyədə müstəqil medianın önəmindən bəhs olunur, həmçinin, parlamentinin rolundan danışılır. "Demokratiya ilə əlaqədar sizin əndişəniz olmasın, bu məsələlər daha yüksək səviyyədə davam edəcək"- səfir qeyd elədi.

"Azərbaycanda çevrilişə cəhdlə bağlı təhlükə ola bilərmi" sualına cavabında diplomat dedi ki, Azərbaycandan tələb etdikləri heç nə yoxdur. Azərbaycanımız bu bölgənin müstəqillik adasıdır, bunun belə davam etməsi lazımdır. Bizim tək istəyimiz təcrübəmizi Azərbaycanla bölüşməkdən ibarətdir".

"Yeni Müsavat" qəzetindən baş redaktorun müavini Azər Ayxan, Musavat.com-un baş redaktoru Xalid Kazımlı və bu sətirlərin müəllifinin də iştirakçı olduğu tədbir maraqlı müzakirələrlə davam etdi.

❑ **E.PAŞASOY**
**FOTO: "YM"**





# Nigar Yaqublu və Seymur Həzi həbsxanada evləndilər

## Tofiq Yaqublu: "Biz yenidən siyasi məhbus ailəsi statusuna qayıtdıq..."

**Dünən Ədliyyə Nazirliyi Penitensiar Xidmətin 17 saylı Cəzaçəkmə Müəssisəsində AXCP-nin həbsdə olan sədr müavini Seymur Həzi və Müsavat Partiyası Məclisinin üzvü Nigar Yaqublunun nikah mərasimi keçirilib. Mərasimi Xəzər Rayon Qeydiyyat Şöbəsi həyata keçirib. Nikahın rəsmi qeydiyyatı baş tutduqdan sonra Nigar yaqublu "Azadlıq" radiosuna təəssüratlarını bölüşüb:**



"Çox asan bir proses, bir dəqiqəlik iş imiş. Hər şey öncədən hazır idi. Sadəcə, elan etdilər və nikah şəhadətnaməsini verdilər. Dünən bu bir dəqiqəlik proses üçün bütün günü bizi yubatdılar. Ancaq buna da şükür. Seymur da yaxşı idi, hər kəsə salam söylədi".

Müsavat Partiyasının başqan müavini, Nigar Yaqublunun atası Tofiq Yaqublu da "Yeni Müsavat"a açıqlamasında gənclərin xoşbəxt günündən dolayı sevinc içində olduğunu bildirdi: "Sözsüz ki, sevinirəm. İş prinsipcə həll olunmuşdu, sadəcə, formal tərəfi qalmışdı. Dünən (srağagün -red.) ASAN-Xidmət bu vəzifəni yerinə yetirmədi, bəhanələr gətirdilər, yubatdılar, ancaq heç bir faciəvi durum yox idi, biz bilirdik ki, bir gün tez, bir gün gec, axır ki, bu məsələ rəsmiləşəcək. Sevinirəm, qürur duyuram ki, iki əqidəli, əzmkar, mətanətli gənc ailə qurur. Hədəfləri, məqsədləri eynidir. Həm də belə bir şey var ki, mən özüm də siyasi məhbus olmuşam, kürəkənim də siyasi məhbusdur, Nigar özü də siyasi məhbus olub. Biz yenidən siyasi məhbus ailəsi statusuna qayıtdıq. Necə ki, mən və Nigar azadlıqda idik, siyasi məhbus ailəsi statusu üzərimizdən qalxmışdı, ancaq indi yenidən həmin dövrə qayıtdıq. Çünki artıq Seymur da bizim ailənin bir üzvüdür və biz yenidən siyasi məhbus ailəsi olduq. Xeyirli , düşərli olsun. Düşünürəm ki, yaxşı olacaq, gənclər xoşbəxt bir ailə qurmağa nail olacaqlar".

T.Yaqublu onu da bildirdi ki, hələ ki həbsdə olması səbəbindən Seymur Həzi ilə danışmaq imkanı olmayıb: "Lakin mən onun düşüncələrini bilirəm. Biz onunla əqidə yoldaşıyıq, jurnalist həmkarıq. Bir çox parametrlərdə eyniyik. Təxminən, onun keçirdiyi hisləri də başa düşürəm, ancaq əlaqəmiz yoxdur. Bundan sonra yəqin ki, zəng edər, danışarıq".

Qeyd edək ki, Seymur Həzi barəsində 2014-cü ilin avqust ayında Abşeron Rayon Polis Şöbəsində Cinayət Məcəlləsinin 221.3-cü (xuliqanlıq, silahdan və ya silah qismində istifadə edilən əşyaları tətbiq etməklə törədildikdə) maddəsi ilə cinayət işi başlanıb. Abşeron Rayon Məhkəməsinin hökmü ilə S.Həzi 5 il müddətinə azadlıqdan məhrum edilib. Hökmdən narazı qalan S.Həzi apelyasiya şikayəti verib. Sumqayıt Apelyasiya Məhkəməsi birinci instansiya məhkəməsinin çıxardığı hökmü qüvvədə saxlayıb. "Amnesty İnternational" təşkilatı da Seymur Həzini "vicdan məhbusu" kimi tanıyıb.

❑ **NƏRGİZ**

# "Hakim komandada referendumla bağlı qeyri-müəyyənlik var"

## Pənah Hüseyn: "Sosial-siyasi partlayışlar və gözlənilməz xaos situasiyaları passiv cəmiyyətlərdə meydana gəlir"

**AXP lideri, sabiq baş nazir Pənah Hüseyn qəzetimizə müsahibə verib.**

***- Pənah bəy sizin hazırda Azərbaycan Respublikasının Konstitusiyasına dəyişikliklərlə bağlı referendumla əlaqədar şərhləriniz bəziləri tərəfindən həmin referenduma tərəfdar olmaq kimi dəyərləndirildi. Daha dəqiqi vitse-prezident institutunun tətbiqinin hələ Elçibəy iqtidarı dönəmində müzakirə obyekti olduğu barədə açıqlamanız bu cür mülahizələrə əsas kimi göstərildi. Bu barədə nə deyə bilərsiniz. Tanınmış jurnalistlərdən biri sosial şəbəkələrdə ümumiyyətlə belə bir faktın uydurma olduğunu iddia edib. Uydurma olmayıbsa belə vitse-prezident vəzifəsinin hələ Elçibəy dönəmində düşünüldüyünü gündəmə gətirməyin indiki referenduma dolayısı da olsa dəstək olması barədə mülahizələrdə həqiqət payı yoxdurmu?***

- Birincisi, xatırlayın, referendum elan olunan kimi az qala bütün diqqət də, tənqid də bu vitse-prezidentlər vəzifəsinin təsisi üzərində cəmləşirdi. Bu belə davam etsəydi və bir müddət sonra opponentlər arxivlərdən mənim toxunduğum islahatlar haqqındakı sənədləri, KİV materiallarını ortaya qoysaydı, hansı vəziyyət yaranırdı? Arxivləri qoyaq bir yana. Kimsə zəhmət çəkib haqqında danışdığım dövrdə siyasi hakimiyyət sahəsində struktur dəyişiklikləri haqqında KİV materiallarına, məsələn, mənim özümün 1993-cü ilin aprelində "Azərbaycan" qəzetində, yaxud yenə Elçibəyin sağ olduğu dönəmdə, 1997-ci ilin fevralında və daha sonra verdiyim müsahibələrdə bu məsələlərə dair heç kim tərəfindən təkzib olunmayan materialları ortaya qoysa, nə olardı?

İkincisi, referendum elan edildikdən sonra sizin qəzetə verdiyim müsahibədə mən nə demişdim? Demişdim ki, vitse-prezidentlik özü özlüyündə respublikaçılıq prinsiplərinə zidd deyil, məsələ siyasi kontekstdə və siyasi konseptdədir. 1992-93-cü illərdə, Azərbaycan siyasi həyatında, istər ictimai-siyasi şüur sahəsində, istər praktikada real və ya xəyali olaraq monarxist, məmur oliqarx, ailə-klan hakimiyyəti aktual bir problem kimi mövcud idimi, müzakirə mövzusu idimi? Deyildi. 1992-93-cü illərdə hazırlanan konstitusiya islahatları layihələrinin, altını cızıram, birində nəzərdə tutulurdu ki, amerikan idarəçilik modelinə keçilsin, Nazirlər Kabineti ləğv edilsin və vitse-prezidentliklər, departamentlərlə əvəzlənsin. Bu referendumda məsələ necə qoyulur? Vitse-prezidentlər institutu təsis edilir, lakin, nazirlər kabineti də saxlanılır. Deməli, məqsəd, onsuz da indi ciddi siyasi problem kimi mövcud olmayan icra hakimiyyəti sistemində paralelçiliyin aradan qalxması ola bilməz. Deyilsə, nədir? Burdan konseptin də fərqli olması meydana çıxır. İndiki iqtidarın opponentlərinin, bu referenduma qarşı çıxanların əsassız görünməyən mövqeyi ondan ibarətdir ki, məqsəd hakimiyyətin azad, ədalətli və demokratik seçki ilə deyil, əbədi olaraq əvəzlənməsi mexanizmi yaradılmasıdır. Ən maraqlı odur ki, hakimiyyət ideoloqları, baxmayaraq ki, referendum ətrafında təşviqat, təbliğat başlayıb, bu iddiaları nəinki təkzib etmirlər, həm də bu təkzibə həvəsli də görünmürlər. Yəni hazırda indiki konstitusiya dəyişikliklərinin rəsmi konsepti faktiki olaraq mövcud deyil və bu, siyasi müxalifətə geniş əks-təbliğat imkanı və meydanı verir. Beləliklə, o dövrdə nəzərdə tutulan islahatların tamamilə başqa bir məqsədi var idi. İndi isə tamamilə fərqli məqsədlər, niyyətlər irəli sürülür. Amerikan idarəçilik modeli deyərkən çox güclü prezident hakimiyyəti, çox güclü parlament və ən yüksək səviyyədə müstəqil məhkəmə hakimiyyəti başa düşülür. Biz o zamanlar islahatları bunun üçün həyata keçirmək istəyirdik...

***- Hazırda konstitusiyaya təklif edilən dəyişiklik də ən güclü prezident hakimiyyətinin formalaşmasını təmin etmirmi məgər?***

- Prezident hakimiyyəti onsuz güclü idi. Ancaq digər hakimiyyət qolları barədə bunları demək mümkün deyil. Hazırda irəli sürülən və referenduma çıxarılan konstitusiya dəyişikliklərində icra hakimiyyətinin daha da güclənməsi, onsuz da formal xarakter daşıyan parlament və müstəqil məhkəmə hakimiyyətinin isə daha da zəiflədilməsi, hakimiyyət qolu kimi yox olması prosesi müşahidə edilir. Halbuki, ən son günlərə qədər hətta iqtidara loyal münasibət bəsləyən bəzi siyasi qüvvələr də qarışıq idarəçilik sisteminin yaradılmasını, parlamentin və Nazirlər Kabinetinin səlahiyyətlərinin genişlənməsi istiqamətində dəyişikliklərin olacağını gözləyirdi. Odur ki, iqtidar düşərgəsində zahirdə görünən yekdilliyə rəğmən dərində ciddi bir qeyri-müəyyənlik və narahatlıq vardı. Bizim müşahidələr göstərir ki, hətta hakimiyyət komandasında da referendumun nə üçün ortalığa atılması ilə bağlı qeyri-müəyyənlik var. Diqqət eləsək hakimiyyət ideoloqları, təşviqatçıları çox ehtiyatla danışırlar. Açıq-aydın görünür ki, hansısa bir "ustanovka", hansısa bir konseptual izahat hələlik yoxdur. Bu referendumun nə üçün zəruri olması, niyə məhz indiki məqamda ortalığa gəlməsi, konstitusiya dəyişikliklərinin nəzərdə tutulan dəyişikliklərin mənası barədə referendum təklifinin müəllifinin, yəni dövlət başçısı İlham Əliyevin özündə geniş və təfərrüatlı şərhin olmaması faktı var. Belə bir şərh olmadan qeyd edilən qeyri-müəyyənlik çətin ki, aradan qalxsın.

***- Ölkə prezidentinin konstitusiyaya dəyişikliklər təklifi layihəsində bu barədə müəyyən izahatlar, əsaslandırmalar əksini tapır. Bu, kifayət deyilmi?***

- Kifayət deyil. Orada məsələyə ən ümumi şəkildə və mücərrəd toxunulub. Bir halda ki, çox ciddi təkliflər irəli sürülüb və bu təkliflərin altında dövlət başçısının imzası durur, o zaman ətraflı əsaslandırmaya ehtiyac var.

***- Qeyd edirsiniz ki, referendumun ortaya çıxması həm də müəyyən narahatlıqdan irəli gəlir. Axı bu gün hakimiyyət üçün heç bir narahatlıq yaradacaq vəziyyət yoxdur. Xalq siyasi baxımdan aktiv deyil, müxalifət zəif və xalqa təsir edə bilməyəcək durumda, beynəlxalq təpki yox.***

- Ən qorxulu cəhət də məhz xalqın passiv olması və müxalifətin zəifliyidir. Sosial-siyasi partlayışlar və gözlənilməz xaos situasiyaları bir qayda olaraq məhz bu cür cəmiyyətlərdə meydana gəlir. Dünya təcrübəsində buna çoxsaylı misallar var. Xalqın siyasi passivliyi və zəif müxalifət sosial partlayışlar üçün əlverişli zəmindir. Əgər sosial-iqtisadi sahədə bir inkişaf yoxdursa, ciddi islahatlar həyata keçirilmirsə, məsuliyyət bölüşdürülmürsə, əvvəl-axır cəmiyyət gərginliyə dözmür və partlayır. O baxımdan mən sizin dediyiniz situasiyanı tam əks şəkildə dəyərləndirirəm. Narahatlıq üçün əsaslar var. Birinci növbədə elə iqtidarın özü üçün. Beynəlxalq diqqətin olmaması da yaxşı əlamət deyil...

***- Seçki Məcəlləsi siyasi qüvvələrə təşviqat qrupları yaratmaq imkanı verir. Təşviqat qruplarına isə efirə çıxmaq hüququ tanınır. Heç olmasa müxalifət düşərgəsi sözünü efirdən xalqa demək üçün təşviqat qrupları yaratmalı deyildimi? Vaxt bu gün başa çatır bunun üçün.***

- 2015-ci il parlament seçkilərindən sonra imitasion demokratiyaya xas olan addımlarda həvəsli olan siyasi qüvvələr azalıb. Diqqət edirsinizsə, hazırda müxalifətdən yeganə Müsavat Partiyası təşviqat qrupu yaradıb.

***- Sözünüzdən belə çıxır ki, Müsavat imitasion demokratiya xas olan addım atır?***

- Yox. Fikrim bu şəkildə yozulmasın. İmitasiya sözünün hərfi mənasından yapışıb müəyyən bir iş görmək istəyənlərə yarlıq kimi yapışdırmaq düzgün olmaz. O da bir taktikadır. Bu taktikanın tərəfdarları əvvəllər daha çox idi. Bilirsiniz, imitasion demokratiya bəzi hallarda real demokratiyaya keçiddə bir mərhələ ola bilir. Belə görünür ki, biz başqa mərhələyə daxil olmuşuq. Siyasi qüvvələrin böyük əksəriyyəti artıq demokratik imitasiyanın perspektivinə olan inamı itirib.

***- Axı hansı qeyri-müəyyənlikdən söhbət gedə bilər, hakimiyyət çox operativ şəkildə referendumla bağlı tələb olunan işləri reallaşdırmaqdadır, YAP "Yeni Azərbaycan" təşviqat qrupu yaratdığını elan edib, bütün respublika ərazisində hazırlıqlara start verilib. Belə qeyri-müəyyənlik olur?***



"Referendum məsələsində müxalifət üçün əldə oluna biləcək yeganə real bir şey dağınıq və pərakəndə olan düşərgənin bir araya gəlməsi ola bilərdi"

- Təşviqat qrupunun yaradılması və s. bu kimi hərəkətlər qeyri-müəyyənliyin olmaması demək deyil. Təkrar edirəm, mənim qənaətimə görə, bütövlükdə komanda üçün bu referendumun və ondakı təkliflərin qəfil gündəmə gəlməsi gözlənilməz olub. Doğrudur, ayrı-ayrı şəxslər bunu aprel ayından sonra yaranmış vəziyyət, dünyada, regionda gedən proseslərlə izah eləməyə çalışırlar. Ancaq əksəriyyətə aydın olmur ki, söhbət nədən gedir. Ona görə də narahatlıqları hiss olunur. Bu narahatlığın arxasındakı real narahatlıq nədən ibarətdir, bu barədə də müxtəlif mülahizələr ortalığa atılır....

***- Müxalifət bu imkandan istifadə edə bilərmi? Referendum məsələsinin gündəmə gəlməsindən xeyli vaxt keçir, bu günə qədər müxalifətin ciddi bir hərəkətlənməsi olubmu? Müxalifət geri qalmırmı?***

- Mənim referendumla bağlı şərhlərimi tənqid edənlər göstərirdilər ki, mən bu referenduma çıxarılan dəyişikliklər mühüm görünsə də və hətta real məzmunca əhəmiyyətsiz olmasa da onlar Azərbaycandakı siyasi proseslərin taleyində həlledici, müəyyənedici ola bilməz fikrini irəli sürməklə guya referenduma qarşı real müqaviməti zəiflədirəm. Mən yenə öz fikrimdə qalıram ki, referendum hüquqi-siyasi bir məsələdir, lakin təəssüf ki, Azərbaycanda proseslər artıq hüquqi-siyasi müstəvidən çıxıb. Bunu iqtidar öz fəaliyyəti ilə edib və ağır nəticəsini də özü görəcək. Siyasi müxalifətə gəldikdə isə bu vəziyyəti nəzərə alaraq, özünün fəaliyyətini yenidən dəyərləndirməli və yenidən planlaşdırmalıdır. Mən bu planlaşdırma sözünü xüsusi olaraq vurğulamışdım. İlkin addım olaraq da referendumun əleyhinə olan qüvvələrin vahid platformasının işlənib hazırlanması və cəmiyyətə təqdim olunmasını zəruri olduğunu demişdim və indi də o şəkildə düşünürəm. Mənə elə gəlir ki, bu referendum məsələsində siyasi müxalifət və ümumiyyətlə alternativ siyasi çevrə üçün əldə oluna biləcək yeganə real bir şey son dövrlərdə dağınıq və pərakəndə olan müxalifətin bu şəkildə bir araya gəlməsi ola bilərdi.

***- Bu vəziyyət nə ilə bağlıdır. Müxalifət partiyaları və liderləri arasında münasibətlərin barışmaz həddə dərinləşməsi birliyə imkan vermir, yoxsa düşünürsünüz ki, onsuz da nə edilməsindən asılı olmayaraq hakimiyyət istədiyinə bu referendumda da nail olacaq?***

- Hakimiyyət və onu müdafiə edənlərin düşərgəsindəki qeyri-müəyyənlikdən danışdım. Eyni qeyri-müəyyənlik müxalifət düşərgəsində də mövcuddur. Konkret bir strateji hədəfin ortada olmaması və eyni zamanda dünyadakı, regiondakı, Azərbaycandakı proseslərin hansı istiqamətdə getməsi barədə düzgün təsəvvürlərin, qavrayışların olmaması problemi var. Perspektivsizlik, xaos gözləntisi və yalnız bu xaos yarandıqdan sonra müəyyən konkret addımlar atmaq, tədbirlər görmək, fəaliyyət üsulu seçmək ovqatı ortadadır. Mən bu referendumun hərfi mənası üzərində diqqətin cəmləşdirilməsi yox, referendum üstü məsələlərə diqqət yönəldilməsinin tərəfdarıyam. Mənim fikrimcə, məsələn, hal-hazırda prezidentlik müddətinin beş il və ya 7 il olması, prezident öz səlahiyyətlərini icra etmədikdə onun səlahiyyətini baş nazirin, yoxsa vitse-prezidentin icra etməsi kimi məsələlər elə də böyük həlledici məsələlər deyil. Bu, əlbəttə ki, hakimiyyətdaxili ziddiyyətlərin həll olunması cəhdləri və hakim elita daxili ziddiyətləri tənzimləmək və idarə etmək, hakimiyyətin müəyyən çevrədaxili ötürülməsini təmin etmək baxımından cəlbedici görünə bilər. Amma strateji olaraq və dünyadakı gedən prosesləri də nəzərə alsaq, mən bu məsələlərin hakimiyyət ötürülməsi də daxil olmaqla, həlledici olmadığı qənaətindəyəm. Bundan sonrakı illərdə vəziyyəti nə müəyyən edəcək, o cümlədən konkret bir çevrənin hakimiyyətdə qalmasının taleyini həll edəcək məsələ konstitusiyadakı dəyişikliklərdə yox, maaş, pensiya, təqaüdlərin verilib-verilməməsi, neft pullarının daxil olması nəticəsində səviyyəsi yüksəlmiş istehlakın ən azı minimum həddə saxlanıb saxlanması, Qarabağda uğurların olub olmayacağı, çörəyin, nəqliyyatın, zəruri kommunal xidmətlərin kütlə üçün əlçatan qalıb qalmayacağı ilə müəyyən ediləcək. Açıq demək lazımdır ki, ən qısa müddətdə bəzi çevrələr qarşısında hakimiyyəti necə saxlamaq və ötürmək problemi ilə yanaşı gözlənilən çətin dövrdə hakimiyyət məsuliyyətinin altında qalmaq və ya altına girmək nə dərəcədə məqsədəuyğundur sualı ən ciddi şəkildə duracaqdır. Yəni siyasi paradiqmada olduqca ciddi dəyişikliklər ərəfəsindəyik.

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 168 (6489) 3 avqust 2016

# Şirvandakı partlayışların səbəbi gizli saxlanılır - motiv

## Nazir Yavər Camalov hesabat vermək əvəzinə, "Yeni Müsavat"ı məhkəmə ilə hədələdi; nazirliyin mətbuat xidmətini qıcıqlandıran nədir?

**İyulun 26-da Müdafiə Sənayesi Nazirliyinin (MSN) tabeliyində olan və Şirvanda yerləşən hərbi təyinatlı "Araz" zavodunda baş verən dəhşətli partlayışın səbəbləri barədə hələ ki rəsmi məlumat verilmir. 1 həftədən artıq vaxt keçməsinə baxmayaraq, 2 nəfərin ölümü, 26 nəfərin yaralanması ilə nəticələnən partlayışın səbəbləri, fəsadların aradan qaldırılması ilə bağlı görülən işlərin nəticələri barədə ictimaiyyətə məlumat verilmir.**

Hadisə baş verən gündən zavodda baş verən partlayışın səbəbləri və müəmmalı olayın ətrafında dolaşan iddialarla bağlı kifayət qədər yazmışıq. Lakin bu yazılanlara rəsmi şəkildə münasibət bildirmək əvəzinə, MSN-in mətbuat xidməti baş verən hadisə ilə bağlı "Yeni Müsavat" qəzeti də daxil olmaqla, bu haqda məlumat dərc edən mətbuat orqanlarına barmaq silkələyib.

Nazirliyin mətbuat xidmətindən bildirilib ki, zavodda baş vermiş hadisənin araşdırılması məqsədilə yaradılan Dövlət Komissiyası öz işini davam etdirir və partlayışın nəticələrinin aradan qaldırılması işlərinə başlanılıb. Mətbuat xidmətinin yaydığı bu məlumat ictimaiyyəti məlumatlandırmaq yox, baş verən olayla bağlı iddialara yer verən, hadisənin dəqiq səbəblərinin açıqlanmasının marağında olan mətbuata xəbərdarlıq etmək məqsədi daşıyır.

**Mətbuata barmaq silkələyən nazirlik eyni ilə belə bir bəyanat yayıb:** "Bəzi kütləvi informasiya vasitələri həqiqətə uyğun olmayan əsassız və qərəzli məlumatlar yayırlar. Bu da heç bir jurnalist etikasına sığmır. Bir daha qeyd edirik ki, məsələ ilə bağlı məlumat yayarkən nazirliyin mətbuat katibliyindən verilən məlumatlara istinad edilməlidir. Əks halda, nazirlik öz hüquqlarını qorumaq üçün müvafiq qaydada məhkəmə orqanlarına müraciət edəcək".


Yavər Camalov

Əslində üstündən 1 həftə keçməsinə baxmayaraq partlayışın başvermə səbəbləri haqda məlumat yaya bilməyən MSN-i qınamaq, ondan hadisənin başvermə səbəbləri haqda dolğun bilgilər gözləmək də reallıqdan uzaq görünür. Çünki nazirlik hələ 1 il əvvəl, iyulun 6-da Şirvanda "Telemexanika" zavodunda baş verən partlayışla bağlı ictimaiyyəti məlumatlandırmayıb.

Həmin hadisə ilə bağlı Şirvan Şəhər Prokurorluğunda Cinayət Məcəlləsinin 223.2-ci (partlayış təhlükəli obyektlərdə təhlükəsizlik qaydalarını pozma ağır nəticələrə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanmışdı. Bir nəfərin ölümü, 19 nəfərin müxtəlif dərəcəli bədən xəsarətləri alması ilə nəticələnən həmin partlayışın başvermə səbəblərinin müəyyənləşdirilməsi məqsədilə müvafiq ekspertizalar təyin edilmişdi. Bu cinayət işinin başlanması haqda məlumat verilsə də, nəticəsi haqda xəbərlər hələ də gizli saxlanılır.

"Araz" zavodundakı partlayış faktına görə isə Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində Cinayət Məcəlləsinin 223.2 (partlayış təhlükəli obyektlərdə təhlükəsizlik qaydalarını pozma ağır nəticələrə səbəb olduqda) və 314.2-ci (səhlənkarlıq ağır nəticələrə səbəb olduqda) maddələri ilə cinayət işi başlanıb. Bu cinayət işinin nəticəsinin nə olacağı isə maraqla gözlənilir.

Ötən yazımızda "Araz" zavodunda baş vermiş partlayışla bağlı istintaq tədbirlərinin miqyasının genişləndirilməsi və nazir Yavər Camalovun da istintaqda dindiriləməsi ilə bağlı məlumat yaymışdıq. Görünən budur ki, nazirliyin mətbuat xidməti sonuncu məlumatdan qıcıqlanıb və belə bir bəyanat yayıb. Həmin yazımızda qeyd edilirdi ki, istintaqa cəlb olunanlar sırasında adı keçən bir başqa məmur isə Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı Mərdan Camalovdur. Son 1 ildə onun rəhbərlik etdiyi rayonda iki hərbi zavodda partlayışın başvermə səbəbləri araşdırılarkən başçının ifadəsinin alınması istintaqçılar üçün müəyyən ipucları verə bilər...

Xatırladaq ki, Yavər və Mərdan Camalovlar qardaşdırlar. Onların hər ikisi Şirvan (keçmiş Əli Bayramlı) rayonunda anadan olub. Camalov qardaşlarının ciddi biznes imperiyasının olduğu barədə dəfələrlə yazılıb. Yavər Camalov iqtidarda ən varlı, imkanlı nazirlərdən sayılır.

Müdafiə Sənayesi Nazirliyi baş vermiş hadisənin nəticələri barədə qısaca olaraq qeyd edir ki, nəticələrin aradan qaldırılması işlərinə başlanılıb. Musavat.com Şirvandakı mənbələrdən partlayışdan sonra hazırda bölgədə görülən işlərlə bağlı məlumat əldə edib. Hazırda mərkəzin ərazisi də daxil olmaqla, zavodda və təxminən 2 kilometrlik ərazidə ANAMA mütəxəssisləri partlayışdan sonra ətrafa səpələnən döyüş sursatlarının başlıqlarını, siqnal raketlərinin patronlarını toplamaqla məşğuldurlar.

Sonda onu da qeyd edək ki, prezident İlham Əliyevin sərəncamı ilə "Araz" zavodunda baş vermiş partlayışla əlaqədar Dövlət Komissiyası yaradılıb. Baş nazirin 1-ci müavini Yaqub Eyyubovun sədrlik etdiyi komissiyanın bu günə qədər keçirdiyi toplantılar, görülən işlərlə bağlı ictimaiyyətə heç bir məlumat verilmir.

❑ **Musavat.com**

# Gülən camaatı Azərbaycanda çevriliş edə bilərmi - ekspertlər iddia edir ki...

## Arzu Nağıyev: "Nurçularla gülənçiləri eyniləşdirmək doğru deyil..."

**Xəbər verdiyimiz kimi, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan çıxışlarından birində Fətullah Gülənin təşkilatına qarşı mübarizənin digər ölkələrdə də başlaması zərurətinə toxunub. Bu mənada Ərdoğan Azərbaycanın da adını "gülənçilərin" təşkilatlanmış olduğu ölkələrin sırasında çəkib. Türkiyə prezidentinin bu açıqlaması birmənalı qarşılanmayıb. Ərdoğan bildirib ki, hörgütün 35 il əvvəl təşkilatlanmağa başladığı ölkələr olan Azərbaycan, Qırğızıstan, Türkmənistan kimi türkdilli respublikalarda çevrilişə cəhd etmək potensiali var.**

Azərbaycanlı ekspertlər isə bunu mümkün hesab etmir.

"Yeni Müsavat"a açıqlamasında Ərdoğanın xəbərdarlığını dəyərləndirən Sabiq MTN zabiti, **"Təhlükəsizlik" Araşdırmalar Mərkəzinin rəhbəri İlham ismayıl** bildirdi ki, Azərbaycanda nəinki "gülənçi"lər, heç başqa qüvvələr də dövlət çevrilişi etmək iqtidarında deyil: "Türkiyədə iyulun 15-də baş verən hadisələrdən sonra ölkənin siyasətində - konkret olaraq Rəcəb Tayyib Ərdoğanın siyasətində Fətullah Gülən siyasətinə və tərəfdarlarına qarşı aşırı şəkildə ittiham irəli sürülməyə başlanıb. Bunu Türkiyə daxilində baş verən hadisələrdən və həbslərdən də aydın görmək olur. Həbs edilənlər arasında günahsız insanlar da var. Lakin baş verənləri birmənalı şəkildə Gülənə qarşı yönəltmək doğru deyil. Düzdür, biz çevrilişin əleyhinəyik Ərdoğanın özünə yaxın bildiyi ölkələr, o cümlədən də Azərbaycan haqqında belə həyəcanlı anonslar verməsi əslində onun hələ də fobiya içərisində olmasından xəbər verir. Deyim ki, Azərbaycanda adı Fətullah Gülənlə hallanan Qafqaz Universitetində hamı "gülənçi" ola bilməz. Eləcə də bu, hazırda Azərbaycanda biznes fəaliyyəti ilə məşğul olan iş adamlarına da aiddir. Hətta Azərbaycanda "gülənçi"lər olmuş olsaydılar belə, onlarda da Ərdoğanın verdiyi anonsdakı kimi Azərbaycanda çevriliş etmək potensialı yoxdur. Ərdoğan isə o qədər vahimə içərisindədir ki, sonuncu "gülənçi"ni belə sıradan çıxarmamış sakitləşməyəcək".


Fətullah Gülən

**İlham İsmayıl onu da bildirib ki, Ərdoğanın "gülənçilərin" Azərbaycanda çevrilişə cəhd etmək potensialı var" iddiasının əsası yoxdur:** "Azərbaycanda nəinki "gülənçi"lər, heç başqaları da dövlət çevrilişinə cəhd belə etmək iqtidarında deyillər. Azərbaycan hökuməti bu baxımdan situasiyanı daim ciddi nəzarətdə saxlaya bilir. Gülən tərəfdarlarının Azərbaycanda nəinki çevriliş, heç etiraz səsi də çıxmayıb, bu ola da bilməz. Ərdoğanın açıqlaması real deyil".

**Politoloq Arzu Nağıyev isə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Azərbaycanda "gülənçilərin" çevriliş edəcək qədər güclü mövqeyi yoxdur:** "Cənab Ərdoğanın son vaxtlar verdiyi açıqlamalarda bir sıra müsəlman dövlətlərinin adları çəkilir. Ən çox adıçəkilən dövlət də Qırğızıstandır. Bu ölkənin prezidenti Atanbayev isə bəyanat verdi ki, bu bizim daxili işimizdir, bizdə olan bütün dövlətlərə, təşkilatlara dövlət tərəfindən nəzarət olunur. Eyni zamanda onu da demək olar ki, Azərbaycanda bütün dövlət təşkilatları, digər qurumlar bir müddət öncə verilən bəyanatlara görə öz sıralarında müəyyən təmizləmə işləri aparmışdılar. Bu gün Gülən camaatı elə bir güc deyil ki, Azərbaycanda hər hansı çevriliş edə bilsin. Hazırda bu məsələ aktual olduğu üçün Ərdoğan çıxışlarında bu məsələyə toxunur. Ancaq Azərbaycanda belə bir addımın atılacağı inandırıcı görünmür. Ölkəmizdə dövlət və dövlətçiliyə qarşı təhlükə daşıyan hər hansı məlumat daxil olduqda, bu, nəzarətdə saxlanılır və müvafiq əməliyyat-axtarış tədbirləri həyata keçirilir. İstər dövlət qurumları olsun, istər digər qurumlar. Hökumət çevrilişə cəhd edə biləcək hər hansı qüvvəni daim nəzarətdə saxlayır. Digər tərəfdən, Azərbaycan əhalisinin sayı cəmi 9 milyondur, qadınları, uşaqları, qocaları çıxsaq, cəmi 3-4 milyon qalır ki, onun bir neçə faizi "gülənçi" ola bilər. Bu azsaylı qrupun elə bir qüvvəsi də yoxdur ki, çevriliş edə bilsinlər. Türkiyədə 1989-cu ildən orduda, hərbi akademiyalarda, məktəblərdə Gülən camaatını yerləşdirmişdilər. Azərbaycanda bu mümkün deyil və olmayıb. Çünki bizim dini baxışlarımız da müxtəlifdir. Gülən camaatının məqsədi tərəfdarlarından kimisə vəzifəyə qoymağa nail olmaq və sonradan onun əli ilə digərlərini də müxtəlif qurumlara vəzifəyə yerləşdirməkdir. Bizdə belə bir tendensiya olmayıb, idarəetmədə onlar təmsil olunmur. Bir-iki dənə təşkilat var idi, onlar da sıradan çıxdı.

**A.Nağıyev onu da bildirdi ki, nurçuları gülənçiləri eyniləşdirmək doğru olmazdı:** "Nursinin inancı ilə gülənçilərin inancı çox fərqlidir. Gülənçilər müxtəlif məktəblər açmaqla, bu məktəblərin hesabına, şirkətlərin hesabına gəlir əldə etməklə hakimiyyətə gəlirlər. Lakin Nursinin təbliğatında belə şey yoxdur. Nurçular öz gününü gözləyir ki, nə vaxt onlara ehtiyac olsa, o zaman hakimiyyətə gəlsinlər".

❑ **Nərgiz LİFTİYEVA**



# Ölkənin taxıl ehtiyatı nə qədərdir?

## Ekspertlər idxaldan asılılıqdan narahatdır, rəsmilər isə asılılığın azalacağını deyirlər...

**İlkin proqnozlara görə, cari ildə Azərbaycanda 3 milyon tondan artıq taxıl istehsalı gözlənilir. "Hazırda istehsal edilmiş taxılın satışında və ayrı-ayrı dəyirmanlar tərəfindən tədarükündə heç bir ciddi problem müşahidə olunmur", - deyə Kənd Təsərrüfatı Nazirliyi Aparatının Bitkiçilik Şöbəsinin müdiri İmran Cümşüdov qeyd edib.**

**İqtisadçı alim Elşad Məmmədov** bildirib ki, bu sahədə bir sıra problemlər artıq xroniki hal alıb: "Ölkənin taxıl ehtiyatları ilə bağlı məsələlərin strateji və prioritet istiqamət kimi qəbul olunduğu, bu sahənin ərzaq və ümumilikdə iqtisadi təhlükəsizliyin fundamental əsaslarından biri olmasını nəzərə alaraq, ölkədə taxıl ehtiyatlarının, Taxıl Fondunun real vəziyyətinin, habelə onun formalaşdırılmasının struktur təhlili vacibdir. Bu sahədə yaranmış vəziyyətin təhlili ölkədə bir sıra problemlərin artıq xroniki hal almasını göstərir. Belə ki, Taxıl Fonduna tədarükü də nəzərə almaqla ölkənin taxıla olan tələbatının təxminən 45 faizi idxal hesabına ödənilməkdədir. Son iqtisadi problemləri, ölkənin idxal-ixrac sistemindəki, xarici ticarətdəki struktur disbalansı da nəzərə aldıqda, bu, sözsüz ki, qeyri-məqbul hal kimi qəbul edilməlidir. Bu, ölkədə taxıl istehsalında mövcud olan bir sıra problemlərin sistematik hal alması ilə bağlıdır. Problemlərin ən önəmlilərindən biri məhsuldarlığın aşağı səviyyədə olması ilə bağlıdır. Belə ki, orta MDB normativlərindən xeyli artıq sahələrin taxıl istehsalına ayrılmasına baxmayaraq, məhsuldarlığın orta dünya gösəricilərindən təxminən 2, aparıcı taxıl istehsalçıları ölkələrindən isə təxminən 3 dəfə aşağı olması, sözsüz ki, ğöstəricilərə öz mənfi təsirini etməkdədir. Texnoloji, o cümlədən suvarma ilə bağlı problemlərin mövcudluğu da sözsüz ki, problemin dərinləşməsinə xidmət edir. Ümumilikdə SSRİ dağılandan sonra ölkədə bu sahədə, ilk növbədə bu sahənin elmi-tədqiqat bazasının inkişafında ciddi problemlər olmuşdur ki, bu gün ölkə iqtisadiyyatı bunun bədəlini ödəməkdədir. Hazırda bu sahədə əsasən elmi-tədqiqat işlərinin lazımi səviyyədə aparılmaması nəticəsində hətta yerli istehsal üçün belə xammalın idxalı mövcuddur ki, bu sözsüz ki, arzuedilməzdir. Nəticədə ölkə bu sahədə ciddi iqtisadi problemlərlə, o cümlədən idxaldan asılılığın kritik səviyyədə olmasından irəli ğələn qiymət artımı, bu sahədə idxalı təmin etmək üçün müəyyən hesablamalara görə, illik 300 milyon dollara yaxın kapital axını və digər iqtisadi problemlərlə üzləşməkdədir. Bunların kompleksli həlli ölkə hökumətinin iqtisadi bloku üçün prioritet istiqamətlərdən olmalıdır".

Qeyd edək ki, ötən il baş verən iki devalvasiyanın fonunda ölkədə un və un məhsulları bahalaşmışdı. Ekspertlər narahatlıqla vurğulamışdılar ki, taxıl nə səbəbdən hələ də xaricdən idxal edilir. Onlar həmçinin ölkədə əkilən taxılın yemək üçün yararsız olduğunu bildirmişdilər. Taxıl Fondu isə ehtiyatını xarici idxaldan topladığından, vəziyyət daha da acınacaqlı olmuşdu. Əksər ekspertlər bildirirlər ki, ölkədə ərzaq buğdası tamamilə idxaldan asılıdır.

**Ekspert Qalib Toğrulun sözlərinə görə, istehsal etdiyimiz taxıldan əslində heç yemək üçün də istifadə edilmir:** "Xaricdən hər il təxminən 1 milyon 500 min ton buğda idxal edirik, 1 milyon 800 min ton da özümüz istehsal edirik. Azərbaycanın istehlakı, tələbatı təxminən 1 milyon 300 min tondur. Xaricdən aldığımız taxılın hesabına yaşayırıq".

Devalvasiyalardan sonra bir çox sahələrdə olduğu kimi, taxılçılıqla bağlı vəziyyətin normal olmadığı ortaya çıxıb. Belə ki, qeyri-neft sektorunu, kənd təsərrüfatını inkişaf etdirmək barədə fikirlər yenidən səslənərkən məlum olub ki, Azərbaycan heç taxıla olan tələbatını yerli istehsal hesabına ödəyə bilmir. Üstəlik, yerli istehsal qida üçün yararsızdır. Ekspertlər onu da qeyd edirlər ki, bu, ərzaq təhlükəsizliyi ilə bağlı olan bir məsələdir və bunun məsuliyyəti Kənd Təsərrüfatı Nazirliyinin üzərindədir. Yəni indiyədək bu sahəyə ayrılan milyonlarla manatlıq dövlət yatırımlarına baxmayaraq, aqrar sektorda keyfiyyətli buğda yetişdirmək mümkün olmayıb. Əsas səbəb odur ki, fermerlərin maddi-texniki təchizatı yetərincə deyil.

Son olaraq yayılan rəsmi məlumatlarda isə bildirilir ki, Azərbaycan taxılla bağlı idxaldan asılılığı azaldır. Ölkəmiz Rusiyadan idxal etdiyi taxılın həcmini xeyli azaldıb. Azərbaycana 2015/2016 kənd təsərrüfatı ilində Rusiyadan idxal edilən taxılın həcmi 5,7 faizdən 3,6 faizə düşüb. Beləliklə, Azərbaycanın Rusiyadan aldığı taxılın miqdarı 1,72 milyon tondan 1,21 milyon tonadək azalıb.

❑ **Röya RƏFİYEVA**

# Qubad İbadoğlundan Arif Hacılıya sərt sözlər

## "Arif Hacılının bacardığı yeganə şey intriqalar yaratmaqdır"

**Müsavat başqanı Arif Hacılı ilə "Yeni Musavat" qəzetinin baş redaktoru Rauf Arifoğlu arasında qalmaqal baş verib. Arif Hacılı strateq.az və xural.com saytlarına müsahibəsində Rauf Arifoğlunu hakimiyyətə təslim olmaqda ittiham edib. Buna cavab olaraq isə "Yeni Musavat" qəzetinin baş redaktoru Rauf Arifoğlu qələmə aldığı yazıda Arif Hacılıya sərt cavab verib.**

Bundan sonra qəzetinin əməkdaşları Elşad Paşasoy, Etibar Seyidağa və baş direktor Ələsgər Süleymanov Müsavat Partiyasından istefa veriblər. Müsavat başqanlığına keçmiş namizəd, **ADR hərəkatının sədri, iqtisadçı ekspert Qubad İbadoğlu** vəziyyət barədə ölkə.az-a danışıb:

"Müsavat Partiyasının dağılması təhlükəsini biz çoxdan görürdük. Bizim qurultay qabağı və qurultaydan sonra apardığımız mübarizənin əsas məqsədi ondan ibarət idi ki, partiyada təkbaşına hakimiyyətçilik olmasın, partiya demokratik və partiyanın nizamnaməsi ilə idarə olunsun. Biz bu mübarizəni aparan zaman bizə dəstək olmadı. Təbii ki, bunu başa düşürəm, hamı partiyanın bütövlüyü üçün çalışırdı. Biz özümüz də partiyanın bütövlüyü üçün çalışmışıq. Müsavat Partiyasından qeyri-qanuni məni çıxartmasaydılar, yəqin ki, indiyə qədər Müsavat Partiyasında qalıb fəaliyyət göstərərdim.



Bütün bu pozuntular ona görə baş verdi ki, Müsavat Partiyası bir qrupun, bir ailənin nəzarətində olsun. Müsavat qocaman bir partiyadır və partiyanın çox şərəfli tarixi var, ancaq təəssüflər olsun ki, partiyanı idarə edənlərin məsuliyyəti dərk etmədən, partiyanın xəttində, onun siyasi kursunda öz maraqları çərçivəsində etdikləri dəyişiklik partiyanın zəifləməsinə, boşalmasına, nüfuzunun itirilməsinə gətirib çıxardı. İndiki şərtlərlə partiyanı bərpa etmək, yenidən canlandırmaq çətindir. Bunun üçün çox böyük resurslar tələb olunur. Müsavat Partiyasından istefa verənlərin çoxu tanıdığınız adamlardır. Kifayət qədər siravi üzvlər var ki, onlar partiyadan istefa verib gediblər və bunu ictimailəşdirməyiblər. Bütövlükdə Müsavatda bir qrup adam qalıb. Onlar da partiya başqanını tərifləməklə məşğuldurlar".

**ADR hərəkatının sədri Rauf Arifoğlu - Arif Hacılı qalmaqalı haqqında onu bildirib ki, Arif Hacılı çox ədalətsiz açıqlamalar verir:** "Müsavat Partiyasının qurulmasında və inkişafında xidməti olan adamlardan biri də Rauf Arifoğludur. Özünün mətbu orqanı, siyasi fəaliyyəti ilə Rauf Arifoğlu Müsavat Partiyasına kifayət qədər nümunələr verib. Arif Hacılı deyir ki, Müsavat Partiyası cəmiyyətə nümunələr verib. O nümunələri cəmiyyətə Hikmət Hacızadə, Vurğun Əyyub, Nəsib Nəsibzadə, Rauf Arifoğlu, Qubad İbadoğlu verib. Arif Hacılı nə Müsavat Partiyası daxilində, nə partiyadan kənarda cəmiyyətə heç bir nümunə verməyib. Arif Hacılının bacardığı yeganə fəaliyyət intriqalar olub. Bu da partiyanın parçalanmasına, onun indiki vəziyyətə düşməsinə gətirib çıxardı".

# "Cəmiyyətin durumu ağırdır, dalana dirənmişik"

## Sahib Kərimli: "Reallıqla barışmalıyıq, beynəlxalq aləm Azərbaycandakı proseslərə reaksiya vermir, çünki..."

**Milli Şuranın və AXCP-nin üzvü Sahib Kərimli musavat.com-a sentyabrda keçiriləcək referendumla bağlı müsahibə verib. O, müsahibəsində müxalifətin təşəbbüs qrupu yaratmasından, gözlənilən etiraz aksiyalarından və referendumdan gözləntilərdən danışıb.**

***- Referendumla bağlı müxalifətin yaratdığı təşəbbüs qrupları effekt verəcəkmi? Nə gözləyirsiniz?***

- Cümhuriyyət dəyərləri cəmiyyətdə düzgün tədris olunmayıb, maarifləndirilməyib. Bu dəyərləri qoruyan məktəb yaradılmalıdır. Referenduma tamamən demək olmaz ki, ölkədə monarxiya sisteminə keçiddir. Cümhuriyyət dəyərlərinə zidd olsa da, hələlik monarxiya deyil. Gələcəkdə baş verə biləcək prosesləri, riskləri önləmək üçün İlham Əliyev öz hakimiyyətini ətrafındakı müəyyən şəxslərdən qorumağa çalışır. Cəmiyyətin elə bir potensialı yoxdur ki, təklif edilən dəyişikliyi qəbul etməsin. Amma növbəti addımların olmaması üçün respublika prinsiplərinin kökdən qazınmaması naminə, mümkün səfərbərlik olmalıdır. Maarifçi yollarla öyrənilməlidir ki, cümhuriyyət dəyərlərinə nə qədər həssasiyyətli adam var. Söhbət təkcə kütləvi etirazların təşkilindən getmir. Təşviqat qruplarının yaradılması faydalıdır, təqdirəlayiqdir.

***- Amma etiraz aksiyaları da gündəmə gəlib. Normal aksiya keçirmək mümkün olacaqmı?***

- Ümumiyyətlə, siyasi və hüquqi strukturlar fəaliyyətlərinə görə hüquqi və siyasi məsuliyyət daşıdıqları kimi, fəaliyyətsizliklərinə görə də daşıyırlar. Yəni bu gün, məsələn, Respublikaçı Alternativ adı ilə cəmiyyətdə uzun illər siyasi, ictimai fəaliyyət göstərib, cümhuriyyət dəyərlərinin təbliği ilə bağlı xeyli işlər görən REAL-çı dostlarımız var. Cümhuriyyət dəyərləri istiqamətində, onun inkişafı istiqamətində konstitusiya maddələri mübahisələndirilsin, müzakirə olunsun, amma onlar iştirak etməsinlər prosesdə. Tərəfdarlarına bunu izah edə bilməzlər axı. Fəaliyyət göstərməmək özü siyasi məsuliyyət yaradır. Təşviqat qrupu yaratmaları doğru addımdır. Fürsət kimi də dəyərləndirilməlidir. Eləcə də digər siyasi qüvvələrin bu cür addımları qiymətləndirilməlidir. Dinc etiraz aksiyaları da keçirmək mümkündür, cəhdlər olmalıdır.



***- Bəs ümumilikdə ölkə müxalifətinin indiki durumu narahatedicidirmi? Məsələn, tərəfdarların azlığı, siyasi intriqalar, hələ də neçə illər öncə baş vermiş hadisələrdən dolayı aparılan müzakirələr müxalifəti, cəmiyyəti demokratik proseslərdən uzaqlaşdırmırmı?***

- Kim uzaqlaşacaqsa, uzaqlaşacaq. Cəmiyyətin durumu ağırdır, dalana dirənmişik. Hakimiyyətlə müxalifət arasında, həmçinin müxalifət partiyalarının öz aralarında olan münasibətlər normal deyil. Başda hakimiyyət olmaqla, biz siyasilər, bu ölkəyə normal siyasət qaydaları, etiketləri gətirə bilmədik. Halbuki imkanları geniş bir sekulyar cəmiyyətimiz var, kənar radikal dini cərəyanların təsir etmək imkanları yoxdur. Yəni normal sistem qurmaq lazımdır. İnkarın üzərində qurulmamalıdır siyasət. Müxlaifətdaxili intriqalar bitməlidir. Bu məsələlərin fövqündə dayanmaq lazımdır. Bu gün baş verənlər və sabahkılar daha həyati vacibdir. Bir siyasətçi kimi özümün statusuma uyğun məsuliyyətimi dərk edirəm. Biz normal ölkə qurmalıyıq, ölkəmiz yaşanmaz haldadır. Tolerant cəmiyyətdən istifadə edib bu ölkədə vətəndaşa xidmət edən sistem qurmaq lazımdır. Bir siyasətçi kimi görəvim nədir? Ən əvvəl xalq üçün də demirəm ki, pafoslu çıxmasın. Ən əvvəl deyirəm balalarım üçün, özüm üçün, qohum-qardaşım üçün, kəndim, elim-obam üçün, bütün ölkəm üçün hesab edirəm ki, sistem qurulmalıdır. Bu mənada bu məsələlərin fövqündə dayanmaq lazımdır. Sistemsizlikdən hamı əziyyət çəkir, əməkdaşlıq bunun üzərinə inşa edilməlidir. Hakimiyyətin aqressiyasını durduran güc yoxdursa, belə potensial görünmürsə, loyallığını və tolerantlığını artırmaq yolları aranmalıdır. Bu isə mümkün qədər geniş əməkdaşlıqla əldə oluna bilər.

***- Referendumla bağlı nə gözləyirsiniz? Bu dəyişikliklərə beynəlxalq aləmdən hansısa reaksiya ola bilərmi?***

- 1997-98-ci illərdə, 2000-ci illərdə Azərbaycanda istənilən əhəmiyyətli siyasi hadisə, yaxud hakimiyyətin hansısa addımı səhərisi gün ABŞ Dövlət Departamentinin sözçüsü tərəfindən mətbuat konfransında şərh olunurdu. Son illər bunları görmürük, indi dünyanın qlobal problemləri var. Qərb dəyərlərini maarifləndirmə, demokratiyanın təməl prinsiplərinin cəmiyyətə təliminin yanlış yollarını tapdı. Yəni iki layihə üzərində işlədilər, yumşaq islam, bir də kosmopolit qruplar üzərindən. Hər iki qruplar da cəmiyyətlərindən qopdular, maarifləndirə bilmədilər. Qərbin dəyərlərinin ən alovlu müdafiəçiləri, bu ölkədən bezib getmiş və getmək istəyənlərdən ibarətdir. Bu mənada beynəlxalq aləm baş verən proseslərə reaksiya vermir. Tamamilə demək olar ki, İlham Əliyevlə yaxın əməkdaşlıq edirlər. Reallıqla barışmalıyıq. Amma İlham Əliyev fərqində olmalıdır ki, təmin etdiyi beynəlxalq dəstək və daxildəki müqavimətsizlik, tolerantlıq, razılaşma, həm də bir fürsətdir. Onun vətəndaşa xidmət edən normal sistem qurmaq öhdəliyini və məsuliyyətini daha da artırır. Əvvəlki idarəetmə qalacaqsa, iqtisadi səbəblərdən sosial etirazlar başlayacaq.

❑ **RÖYA**

**Gərək bu söz-söhbət yerli-dibli olmayaydı. Gərək Müsavat başqanı Arif Hacılı Əvəz Zeynallının qəzetinin "Qaynar qazan" rubrikasında "Yeni Müsavat"ın baş redaktoru Rauf Arifoğlunu incidəcək sözlər deməyəydi. Gərək Rauf Arifoğlu da ona o cür sərt cavab yazmayaydı, sonra da bu qovğa mediaya, sosial şəbəkəyə sıçramayaydı.**

**Xalid KAZIMLI**

# İşgəncə altında alınan ifadəyə bənzəyən müsahibə



Əslində Əvəz Zeynallı da gərək bütün müsahiblərini mütləq "Rauf Arifoğlu rubrikası"nda danışdırmağa səy göstərməyəydi.

İndi deyək ki, bu onun peşəsidir, intriqa yaratmalıdır, tiraj toplamalıdır və s. Amma eyzən, xroniki olaraq bir adamı hədəf taxtasına çıxarmaq və pislətmək qərəz göstəricisidir.

Bu qərəz nədən irəli gəlir, düzü, doğrusu, bilmirəm, bəlkə də tutarlı səbəbləri var.

Ancaq Rauf Arifoğlunun bu qərəzi haqq etmədiyini bilirəm. Ən azı ona görə ki, Əvəz Zeynallı türmədə olanda məhz Rauf Arifoğlunun az qala hər gün "Əvəz bəyə diqqət, yoldaşı material göndərəcək, ləngitmədən sayta qoyun, yaxşı şəkliylə verin" deyə saytın əməkdaşlarına tapşırıq verdiyinin şahidiyəm.

Hətta bir dəfə əməkdaşlardan biri dedi ki, bəy, vallah, Əvəz türmədən çıxandan sonra haqqınızda nə gəldi, yazacaq, necə ki, həbsindən qabaq yazırdı. Onda Rauf Arifoğlunun cavabı belə oldu: **"Bilirəm. Amma adam dardadır, həmkarımızdır. Yardım etmək borcumuzdur. Allah tezliklə qapısını açsın. Çıxandan sonra da nə edər, özü bilər, Allahı bilər".**

Budur, artıq Əvəz Zeynallının qapısı açılıb və o, Rauf Arifoğluna olan "vəfa borcu"nun əvəzini artıqlaması ilə qaytarır: hər müsahibindən onun əleyhinə ifadə alır. Əslində o, artıq "Qaynar qazan"da "Rauf Arifoğlu bölümü" açmalıdır. Bəlkə də bu, daha maraqlı və tirajlı olar.

Artıq neçə müddətdir ki, Rauf Arifoğlu uzun illərdən bəri çəkişmədə, intriqada olduğu bədxahlarının onun barəsində yazdıqlarına, dediklərinə o qədər də önəm vermir və hər dəfə hansısa media qurumunda tənqid *(və ya barəsində təhqiramiz ifadə işlədilən)* olunan və bunu sinirə bilməyən əməkdaşlarımıza dözümlü olmağı tövsiyə edir. O tövsiyənin sözləri birə-bir olaraq belədir: **"Mətbuatda məndən çox söyülən, təhqir edilən yoxdur. Hamıya cavab verirəm? Yox. Kin saxlayıram? Yox. Siyasətlə məşğul olan şəxs kinli oldusa, heç nəyə nail ola bilməz".**

Ancaq elə ki, yaxın-uzaq keçmişdə Rauf Arifoğlunun yaxşılıq etdiyi, dost bildiyi biri onun ünvanına yaxşı-yaman sözlər səsləndirir, ictimailəşdirir, Rauf Arifoğlu özünü mütləq ona cavab vermək zorunda hiss edir və olduqca sərt şeylər yazır.

Onun Arif Hacılıya yazdığı cavabın ilk variantı olduqca sərt idi. Ancaq onu dərhal yaymadı, gözlədi, hirsi tam soyuduqdan sonra oturub yenidən redaktə etdi, hiddət daşıyan ifadələri ixtisar etdi, sonra yaydı.

Rauf Arifoğlunun bu və digər xasiyyətlərini hamıdan yaxşı Arif Hacılı bilir - birlikdə partiya rəhbərliyində təmsil olunublar, birlikdə mühakimə olunublar, birlikdə məhbəsdə yatıblar, azadlığa birlikdə çıxıblar, yüz dəfə xeyir-şər məclislərində birgə iştirak ediblər, aralarında bir kitablıq yazışmalar, nə qədər telefon danışıqları olub və s. və i.a.

Bütün bunlara məhəl qoymamaq və ötən ilin iyulundan bəri Rauf Arifoğlu üçün həssas səciyyə daşıyan "İlham Əliyevə təslim olmaq" məsələsinə toxunmaq yanlış idi. Çünki ötən il bu söhbət minlərlə dəfə təkrarlandı, bədxahlar ömrünün 26 ilini Azərbaycanın müstəqillik dövrü mətbuatının inkişafına həsr etmiş və ölkənin bir nömrəli qəzet və saytını yaratmış adama "əməkdar jurnalist" fəxri adını çox gördülər. Əsas məsələ bu fəxri adı müşayiət edən döş nişanını (çox zaman bunu qəsdən "orden aldı", "medal verdilər" kimi qələmə verirlər) kimin təqdim etməsiydi. Məgər ötən il hakimiyyətdə İlham Əliyev yox, başqa bir siyasi xadim olsaydı, milli mətbuatın 140 illiyi ilə əlaqədar olaraq Rauf Arifoğluna fəxri ad verməyəcəkdi? Kim olsa, verəcəkdi. Çünki ortada bir əməkdarlıq faktı var - kimin bunu etiraf edib-etməməsindən asılı olmayaraq.

Bu baxımdan, hələ ötən ildən Rauf Arifoğlu bu xüsusda həssas idi və bədxahlarının "ilişmə"lərindən rəncidə olsa da, fikir verməməyə çalışırdı. Ancaq iş gəldi, bu yerə çatdı, "xlebnik" dediyi yaxın adamı ona qarşı xoşagəlməz sözlər danışdı və ortalıq qarışdı.

Ümumiyyətlə, bütün demokratik inkişafdan qalmış ölkələrdə olduğu kimi, bizim ölkəmizdə də bir gerilikçi ənənə var: bir nəfərin vaxtilə qoşulduğu partiyadan istefa verməsi, başqa bir xətt seçməsi xəyanət, satqınlıq hesab olunur. Sanki adamlar partiyaya siyasi fəaliyyət göstərmək üçün girmirlər, kəbinlə ailə qururlar və o qapıdan yalnız onların meyiti çıxa bilər. Vaxtsız ayrılıq isə yalnız partiya sədrinin üç dəfə "talaq" deməsindən sonra mümkündür.

Bu durumu mafioz birliklərə və dini sektalara üzv olmağa da bənzətmək olar. Onlarda da birliyə daxil oldunsa, bütün hüquqlar əldən gedir, onu tərk etmək olmaz, bu cür təşəbbüslər və addımlar xəyanət sayılacaq, ardınca haqq-hesab çəkiləcək.

Bu, könüllü şəkildə birləşən, müəyyən məqsədlər uğurunda mübarizə aparan azad insanlara yaraşan müamilə deyil. Hər kəsin ömrünün, siyasi fəaliyyətinin müəyyən mərhələsində azad seçim etmək hüququ var. Adam istəyər, İsa Qəmbəri dəstəkləyər, istəməz, İlham Əliyevi müdafiə edər, heç birini istəməz, gedib bitərəf olar. Ancaq nə yazıq ki, neçə müddətdir, bu ölkədə insanlara bitərəf olmaq hüququ da tanınmır.

Bu baxımdan, Rauf Arifoğlunun Müsavatdan getməsi, sırf qəzetçiliklə məşğul olmaq qərarı verməsi nə partiyada, nə də demokratik düşərgədə bu qədər uzun müzakirələrə səbəb olmamalıydı. Ondan əvvəl və sonra yüzlərlə siyasi fəal üzv olduğu partiyalardan ayrılıb və heç bir ajiotaj-filan olmayıb. Əgər Rauf Arifoğlu keçmiş partiyasına hücum etsəydi, keçmiş partiya yoldaşlarının adını hallandırsaydı, o zaman onlara da söz haqqı yaranardı. Ancaq o, partiyadan sakitcə getmişdi - heç kəsin ünvanına ittiham səsləndirmədən, heç kəsi qınamadan...

Arif Hacılı bu ölkənin siyasət arenasının ən fədakar, əzabkeş, prinsipial adamlarından biridir. Ancaq heyif ki, o, bəzən intriqaya çox meyl edir, emosional olur, ürəyində saxlamalı olduğu sözləri dilinə gətirir və bundan istifadə edənlər tapılır.

Bu ölkədə siyasətçi səmimi ola, bütün suallara düz-düznəqulu cavablar verə bilməz. Elə etsə, onun sözlərini yozub, pozub özünə qarşı istifadə edəcək, hər kəsi ona düşmən kəsdirəcəklər.

Siyasətçi yalan da danışmamalıdır, suallara qeyri-səmimi cavablar da verməməlidir. Ancaq üçüncü bir yol var. Siyasətçi görəndə ki, ona verilən suala verəcəyi cavab onun mövqeyini zəiflədəcək, dostunu düşmənə çevirəcək, onda siyasətçinin sualdan yayınmaq və maksimum diplomatcasına cavab vermək haqqı var. Heç kəs onu divara qısnaya, topa tuta bilməz. Əksinə, çoxları onun bu hərəkətini anlayışla qarşılayacaq və "əsl siyasətçi belə olar" deyə dəyərləndirəcəklər.

Arif Hacılının Əvəz Zeynallıya verdiyi ifadə dustaqlardan işgəncə altında alınan ifadələrə bənzəyirdi. Normalda əsl siyasətçi belə sözləri dəməməlidir.

Əlbəttə, bu qovğa da səngiyəcək, arada normal münasibətlər bərpa olunacaq. Belə şeylər əvvəllər də olub. Ancaq "söz yarası sağalmaz" deyə bir ifadə var. Çalışmaq lazımdır ki, söz yarası vurulmasın.

Mən inanıram ki, Arif Hacılı və Rauf Arifoğlu bir müddətdən sonra barışacaqlar, əvvəlki kimi dost-qardaş olmasalar da, salam-əleyki bərpa edəcəklər. Bu inam Rauf Arifoğlunun şəxsən mənə dəfələrlə dediyi "siyasətçi kinli olmamalıdır, ola bilməz" ifadəsindən doğur.

**Sözümü hər iki bəyin sevimli şairi olan Ramiz Rövşənin bir misrası ilə bitirirəm: "Yenə də lənət şeytana".**

# Demə, Arif Hacılının "bağrında"kı yer 2008-ci ildən bitibmiş...



**Elşad PAŞASOY**
epashasoy@yahoo.com

**Müsavat başqanı Arif Hacılının "Xural" qəzetinə müsahibəsində dedikləri məni ötənləri bir daha xatırlamağa və ciddi qərar verməyə vadar etdi. Bir neçə il əvvələdək düşünürdüm ki, bəzi məsələləri boş vermək lazımdır, keçib gedəcək. Amma görünən budur ki, bizim boş verdiyimiz məsələlər qoc-qocaman partiyanın başında dayanan şəxs üçün keçici deyil, qalıcı imiş.**

Bütün bunlara görə də mən Müsavat Partiyasının sonuncu qurultayında namizədlərdən Arif Hacılıya deyil, Qubad İbadoğluna dəstək vermişdim. Demişdim ki, partiyaya yeni nəfəs gəlməsi, təşkilatın xarici aləmlə əlaqələrinin gücləndirilməsi baxımından Qubad İbadoğlunun başqan seçilməsi daha məntiqli olardı. Qurultaysonrası baş verənlər, Müsavatın ilmə-ilmə sökülməsi, partiyanın aparıcı simalarından bir çoxunun kənara çəkilməsi, xeyli fədakar insanın incik düşməsi, fəaliyyətini dondurması haqlı olduğumu sübuta yetirdi...

Arif Hacılı "2008-ci ildən bu üzə mən "Yeni Müsavat" qəzetinin kursunu Müsavat Partiyasının kursuna uyğun gəlməyən siyasi kurs hesab edirəm" - deyib və aşağılayıcı tonda fikirlər söyləyib. Çox təəssüflər olsun. Müsavat adına yaraşmayan mövqedir. Bu cür saygısızlıq olmaz. Digər tərəfdən, əgər o, 8 il əvvəldən "Yeni Müsavat"la əlaqəni kəsmişdisə, onda bu qəzet onu təbliğindən niyə imtina etmədi bu müddətdə? Arif bəy doğrudanmı 2014-cü ilin qurultayından sonra "Yeni Müsavat"ın redaksiyasına ziyarətini və orada dediklərini unudub? Unudubsa, xatırlayaq: "Bizə də "Yeni Müsavat"dan yaxın olan hər hansı bir mətbuat orqanı yoxdur", -demişdi.

Ancaq Müsavat başqanı son müsahibəsi ilə göstərdi ki, artıq münasibətləri qoruyub-saxlamaq mümkün deyil, olanları ört-basdır etməyin mənası yoxdur. Böyük hədəfləri olan heç bir siyasət adamı, rəhbərlik etdiyi təşkilatın illərlə təbliğat ruporu olmuş aparıcı mətbu orqanı ilə bu cür davranmazdı təbii ki. Normalda rəhbərlik etdiyi təşkilatın təbliği üçün "Yeni Müsavat"ın, musavat.com-un imkanlarından yararlanmalı olan partiya rəhbəri nədənsə sürətlə qəzetlə münasibətləri bitirməyə üstünlük verdi.

Dediklərindən bəlli olur ki, o, hələ 2008-ci ildən bizi - 10-dan artıq Müsavat üzvünün də işlədiyi "Yeni Müsavat"ı dəftərindən silibmiş. Bəs bu illər ərzində bizim Müsavatın təbliği ilə bağlı yazdıqlarımız, partiya rəhbərliyi ilə yüzlərlə müsahibələrimiz, seçki kampaniyalarındakı təmənnasız təbliğat işlərimiz, mitinqlərdən reportajlarımız? Bunun qarşılığında "Yeni Müsavat"ın baş redaktoru Rauf Arifoğluna 50 illik yubiley "təbriki" məhz bu sayaq, Əvəz Zeynallının "Qaynar qazan"ındakı kimi olmalıydı? Axı o, başqan olarkən "hər kəsi bağrına basacağını" demişdi. Ancaq demə, hörmətli Arif Hacılının "bağrında"kı yer 2008-ci ildən bitibmiş...

Məntiq həm də onu deyir ki, faktiki olaraq Müsavat başqanı bizim kimi düşünənləri rəhbərlik etdiyi partiyanın sıralarında görmək istəmir. Əks təqdirdə, müsavatçıların da illərlə əziyyətlərə qatlaşaraq, təhlükələrlə üz-üzə qalaraq çalışdığı media orqanına qarşı bu qədər amansızcasına davranmazdı. Bizlər bu illər ərzində "Yeni Müsavat"la Müsavat Partiyası arasında fərq qoymadıq. Baş redaktorumuz keçən il partiyanı tərk edəndən sonra da "dostlar, mən qərarımı verdim, siz də qərar verin" demədi, hər birimizin mövqeyinə saygılı yanaşdı.

Hətta Arif Hacılının başqanlığı dönəmində də baş redaktor olanlara rəğmən işçilərini "Ya Müsavat, ya "Yeni Müsavat" "seçimi qarşısında qoymadı. Ancaq Arif Hacılı son açıqlamaları, Rauf Arifoğluna qarşı davranışları ilə bizi də pis vəziyyətdə qoydu. Bundan sonra susmağımız, olanları boş verməyimiz ən azı ayıb olar. İnanıram ki, Rauf bəy də mənim qərarıma saygılı yanaşacaq, hər halda, mən 17 illik haqq-salamı, kəsdiyimiz duz-çörəyi, düz-çörəyi unuda bilmərəm, bəzilərindən fərqli olaraq.

Partiya rəhbərliyi ilə qəzet arasındakı mövcud münasibətlər səbəbindən 21 ildir üzvü olduğum Müsavat Partiyasının sıralarından istefa verdiyimi bəyan edirəm. Bundan sonra azad jurnalist, heç bir partiya öhdəçiliyi olmayan media mənsubu kimi xalqımızın xidmətində dayanmağı, dövlətimizin güclənməsi, ərazi bütövlüyümüzün təmin olunması sahəsində çalışmağı daha faydalı hesab edirəm. Təbii ki, partiya rəhbərliyində, sıravi üzvlər arasında kifayət qədər sağlam düşüncəli, əqidəli, Vətəninə, təşkilatına bağlı insanlarımızla normal münasibətlərimiz bundan sonra da davam edəcək. Fədakar müsavatçıların hər birinə uğurlar arzulayıram.

**P.S.** *Yazının geniş variantı musavat.com-da dərc olunub.*



# Ət verin, ət!

Zamin HACI
zaminhaci@gmail.com

**Çörək bahalaşıb, hökumət isə xalqa məsləhət görür çörək tapmayanda tort yesinlər. Bu məsləhət 18-ci əsrin sonlarında, söz vaxtına çəkər, elə indiki yay aylarında fransız xalqının işinə yaramışdır. Mariya Antuanetta adlı xanıma gəlib deyirlər xalq çörək tapmır, o da deyir çörək yoxdursa nə qəm, gedin şirin kökə, biskvit, tort doldurun qarnınıza. Xalq isə belə əyləncəli məsləhəti qulaqardına vurərək gözəl xanımın boynunu vurmuşdur. O vaxtdan bəri fransız xalqı kef eləyir.**

Hərçənd indi bizdə çörək olmasa da tort var. Bizim kef çəkməyimiz çətin olacaqdır. Allah bir qapını bağlayanda o biri qapını açırmış - uca millətimiz demişkən. Azərbaycan isə Şərqlə Qərbin, Şimalla Cənubun qovuşmaq yeri olduğundan burda hər tərəfə qapı var, "skvoznyak"dan *(yelçəkər)* belimiz quruyubdur. Bir neçə günə Putin gəlib belimizi lap qırıb gedəcəkdir. Zalım oğlu elə bil Stenka Razin-dir, hər dəfə Xəzər tərəfdən gəlib quldur kimi bizi çalıb-çapıb gedir, səsimizi çıxartmaq bir yana qalsın, mıqqıldaya bilmirik.

Üç-dörd gün qabaq Qarabağ tərəfə getmişdim, camaat danışırdı ki, indi çörəkdən betər ət problemi yaranmaq üzrədir. Dana, qoyun, keçi tapıb kəsmək, bunu paytaxtımıza yollamaq günü-gündən çətinləşir. Azərbaycan xalqının "lülə-tikə-basdırma" baş menyüsünü nəzərə alsaq, ən dəhşətli iqtisadi fəlakət budur. Ət yeməsək, bir-birimizi basıb yeyəcəyik. Çörək olmasa da yaşayarıq, ancaq sizi inandırım, bu millət axşamlar kababxanalara yıxılıb ət gəmirib gəyirməsə yaşaya bilməz.

Ətdən yazdım bir əhvalat yadıma düşdü. Sovet vaxtı bir uydurma uzunömürlü vardı: Şirəli Müslümov. Lerikdə yaşayırdı. Kişinin yaşı bəlkə də 100 il olardı, ancaq sovet hökumətinə guya yaxşı şəraitdə, sosializmdə yaşayıb uzun ömür sürən insan mifi qayırmaq lazım olmuşdu, qurban kimi də Şirəli bəyi seçmişdilər. Uzunömürlü olmağın başqa kriteriyaları da az-çox uyğun gəlirdi: dağda yaşamaq, təmiz ərzaqlar yemək, əsəbdən, gərginlikdən uzaqlıq və sairə. Qısası, SSRİ hər beşillikdə Şirəli bəyin yaşının üstünə 5-10 il qoya-qoya, saxta rəqəm artımıyla 1980-ci illərin sonunda onu... 165 yaşlı eləmişdi! Təsəvvür edirsinizmi? "Pripiskanın" beləsini dünyada kimsə görməmişdi.

Özü də yalançının yaddaşı olmaz deyirlər, sovet hökuməti gopa basmağa necə aludə olurdusa keçən il açıqladığı rəqəmi növbəti il unudurdu, misal üçün, 1979-cu ildə 120 yaşlı Müslümov 1980-ci ildə qəfildən 130 yaşlı olurdu. Yazıq kişi hökumətin sayəsində hər il 10 yaş qocalırdı.

Uzun sözün qısası, bir gün yenə kapitalist dünyasından bu möcüzəyə tamaşa etməyə gələn jurnalist yığınına Şirəli müəllimin mətbuat konfransı verməsi nəzərdə tutulur. Bakıda bir mehmanxanada *(o vaxtlar hotel ancaq imperialist aləmdə olurdu, bizdəkilər hamısı mehmanxana idi)* hazırlıq görülür, Müslümovu neçə gün qabaqdan gətirib orda otaqda yerləşdirirlər, instruktaj edirlər. "KQB", partxozaktiv-zad hamısı yorulmaq bilmədən çalışır, qocaya ancaq ağartı məhsulları: qatıq, pendir, süzmə, ayran-filan verirlər. Ağsaqqala möhkəm tapşırırlar ki, xarici jurnalistlər uzun ömrün sirrini soruşsalar desin sağlam qidalar yeyirəm, ancaq süd içirəm, qatıqlayıram və sairə.

Nə başınızı ağrıdım, konfrans başlayır, xarici jurnalistlər qarışqa kimi salonda qaynaşır, Şirəli babanı ənlik-kirşanlayıb, bəzəyib-düzəyib başda oturdublar, tərslikdən birinci sual da elə ağsaqqalın qida rasionu haqda olur. Xarici jurnalist soruşur ki, Şirəli baba nə yeyib-içir.

Adamı bir həftədir dovğa-qatıqla bezdiriblər, birdən bu dözmür, bomba kimi partlayır: "Mən ət yemək istəyirəm, mənə ət gətirin!"

Bundan sonra konfrans dağılır gedir işinin dalıyca.

# Türkiyədə ikinci çevriliş cəhdi mümkünmü?

## Politoloq: "Qərb dünyasında, həm ABŞ, həm də Avropa Birliyi çərçivəsində Türkiyəyə qarşı çıxan ölkələri görə bilərik"

**Türkiyədə hərbi çevrilişə cəhddə iştirak edən şəxslərin istintaqa cəlb olunması prosesi davam edir. Türkiyənin "Aydınlıq" qəzetinin yazarı Sabahatdin Önkibar yazısında bildirib ki, çevrilişə cəhd edənlər planlarını yerinə yetirdikdən sonra ilk olaraq 50 nəfəri edam edəcəkdilər. Onun açıqladığı siyahıda ilk olaraq prezident Rəcəb Tayyib Ərdoğanın da adı yer alır.**

Başqa bir məqam ondan ibarətdir ki, hərbi çevrilişə cəhdin qarşısı alınsa da, buna cəhd edən qruplaşmanın hələ də tam zərərsizləşdirilmədiyi müzakirə olunur.

Türkiyənin müxtəlif ictimai şəxsləri də bu barədə fikir bildiriblər. Ehtimal olunur ki, ikinci dəfə də bu kimi cəhd olacaq. Lakin bu dəfə qiyamçılar siyasi qətllərə əl atacaqlar. Hədəfdə isə siyasi partiya liderlərinin, funksiyanerlərinin olduğu ehtimal olunur. Hətta bu barədə CHP lideri Kamal Kılıçdaroğlu da münasibətini bildirib. Türkiyə mətbuatının yazdığına görə, artıq FETÖ-çülər ictimai təşkilatların, siyasi partiyaların içərilərinə qədər sızmağı bacarıblar. Həmçinin məlumatlara görə, Kamal Kılıçdaroğlunun mühafizəçiləri arasında da onlardan var və artıq həmin şəxslər ifşa olunublar.

**Türkiyədə "darbeçi"lərin ikinci cəhdinin mümkünlüyü barədə "Yeni Müsavat"a politoloq Natiq Miri danışıb. O bildirib ki, çevriliş cəhdi çərçivəsində hərbidə və polisdə olan fətullahçıların böyük əksəriyyəti üzə çıxdı:** "Ancaq düşünürəm ki, hər bir halda fətullahçılar hələ də bu orqanlarda mövcuddurlar. Bu baxımdan, qətiyyən bu məsələni istisna etmək olmaz. Müəyyən zaman çərçivəsindən sonra əgər həqiqətən də mərkəzdən belə bir əmr gələrsə, bəli, bu cür sui-qəsdlərin olması mümkündür. Fətullahçıların kökünün Türkiyədən tamamilə kəsildiyi və Fətullah Gülənin özünün belə Türkiyəyə ekstradisiya olunduğu halda da belə bir əmr mərkəzdən gələ bilər. Söhbət buradа kimlərinsə bu prosesə qarışmaları, yaxud da çevrilişə dirəniş göstərmələrindən getmir. Məqsəd Türkiyədə ictimai-siyasi vəziyyəti gərginləşdirməkdir. Çünki əslində hədəf Türkiyə dövlətinin özüdür. Türkiyədə vəziyyəti qarışdırmaqla, bəzi ölkələr öz geosiyasi maraqlarına çatmaq istəyirlər. Ona görə də düşünürəm ki, bu, həmçinin təkcə siyasi partiya rəhbərlərinin hakimiyyəti müdafiə etməsi ilə bağlı deyil".



Natiq Miri

**Politoloq hazırkı vəziyyətdə regiondan Türkiyəyə qarşı gələ biləcək təhlükədən də danışıb:** "İndiki şəraitdə bunu Yaxın Şərq ölkələri çərçivəsində müşahidə etmək mümkün olmayacaq. O baxımdan ki, açıq şəkildə Yaxın Şərq ölkələri, Birləşmiş Ərəb Əmirliyi, Səudiyyə Ərəbistanı, yaxud da Misir çərçivəsində biz bunu görməyəcəyik. Çünki bu ölkələr birbaşa Türkiyə ilə qarşı-qarşıya gəlmək istəməzlər. Ancaq Qərb dünyasında, həm ABŞ, həm də Avropa Birliyi çərçivəsində Türkiyəyə qarşı çıxan ölkələri görə bilərik. Bu yöndə bəzi işarətlər da özünü göstərir. Hər bir halda Türkiyə ilə bağlı məlum hadisələrdən sonra ABŞ öz hədəfinə çatıb. Əslində bu məsələdə Fətullah Gülən və onun rəhbərlik etdiyi təşkilat ABŞ-ın marağında deyil. Sadəcə olaraq, bu təşkilat bir alət olaraq istifadə olunub. Düşünmürəm ki, baş verən çevriliş cəhdinin məğlubiyyəti ABŞ-ın nəzərdə tutduğu planın hədəfə çatmadığını göstərir. Qətiyyən bu, belə deyil. ABŞ öz hədəfinə çatdı. Bu hadisələrə qədər ABŞ dəfələrlə Türkiyədən 25 minlik ordunun İraqın Başika bölgəsindən çıxarılmasını tələb etmişdi. Lakin buna nail ola bilmirdi. Çünki Türkiyə hakimiyyəti bunu istəmirdi. Eyni zamanda Türkiyə həm də Suriyada geosiyasi aktiv ölkə olaraq, ABŞ-ın bir çox siyasi istəklərinə qarşı durdurdu. Bu çevrilişdən sonra isə Türkiyə Suriyada da aktiv deyil. Ona görə də düşünürəm ki, bu hakimiyyət devrilsə də, devrilməsə də ABŞ ən azından qısamüddətli hədəflərinə çatmış oldu".

❑ Əli RAİS

# İlkər Başbuğ hərbi çevriliş cəhdində ABŞ-ı suçladı

## Türkiyə Silahlı Qüvvələrinin keçmiş baş qərargah rəisi: "ABŞ Güləni təhvil verməzsə, demək, ondan istifadə etməyə davam edəcək"

**Türkiyə Silahlı Qüvvələrinin keçmiş baş qərargah rəisi İlkər Başbuğ CNN-türk kanalında jurnalist Ahmet Hakana verdiyi müsahibədə sensasion açıqlamalar verib. Musavat.com-un Türkiyənin "Hürriyet" qəzetinə isinadən verdiyi xəbərə görə, İlkər Başbuğ 15 iyul insidentini hərbi çevriliş olaraq qəbul etmədiyini bildirib.**

"Bu, Gülən hərəkatının silahlı qiyam hərəkatıdır", - deyə o hadisəni belə təsbit edib. Keçmiş baş qərargah rəisi çevrilişin ana sütununun Gülən hərəkatı olduğunu, lakin bu hadisələrdə ümumilikdə 3 qrupun əli olduğunu bildirib. İlkər Başbuğ hərbi çevriliş cəhdinin arxasındakı siyasi iradənin ABŞ-ın Mərkəzi Kəşfiyyat İdarəsi (MKİ - CİA) olduğunu söyləyib.

Başbuğun fikrincə, ABŞ MKİ-sinin əsl hədəfi FETÖ-dən istifadə edərək Türkiyə Silahlı Qüvvələrini vurmaq olub. İlkər Başbuğ hərbi çevriliş günü ilə bağlı bir sıra məqamları paylaşıb. O, hələ cümə axşamı oturduğu rayondakı hərbi hissələrdə hərəkətliliyi müşahidə etdiyini, amma bunun hərbi qiyama çevriləcəyini ağlına gətirmədiyini bildirib. Başbuğ sıravi əsgərlərin qiyamçı statusuna daxil edilməsini doğru hesab etmədiyini də sözlərinə əlavə edib.



İstefada olan general olub-bitənlərdən ən çox Milli Kəşfiyyat Təşkilatının (MKT - MİT) məsuliyyət daşıdığını bildirib. Onun sözlərinə görə, 2002 və 2010-cu illər ərzində Silahlı Qüvvələrdə həyata keçirilən təmizləmələr həmişə MİT-in raportlarına əsasən gerçəkləşdirilib. Başbuğ həmin dövrdə ordudan atılan hərbi kadrların heç birinin FETÖ üzvü olmadığını söyləyib.

İlkər Başbuğ bu dövrdə MİT-in Gülən camaatının mənsubları ilə doldurulduğunu bildirib. General həmin dövrdə uzaqlaşdırılan hərbçilərin nurçu camaatın digər qolundan, Mehmet Kurdoğlunun heyətindən olduğunu təsdiqləyib. **"Belə çıxır ki, FETÖ rəqib camaatın adamlarını uzaqlaşdırmaqda bizdən istifadə edib"**, - qərargah rəisi etiraf edir.

Başbuğ MİT-ə hərbçilərin rəhbərlik etdiyi dövrdə Fətullah Gülən hərəkatı ilə daha effektiv mübarizə aparıldığını, TSK-nın kazarma xaricində hərbçiləri izləmək imkanının olmadığını da söyləyib. O, Fətullah Gülən hərəkatının silahlı qüvvələrə 70-ci illərdən sonra sızmağa başladığını söyləyib: **"Camaatın əsl güclənməsi Turqut Özal zamanında oldu"** deyib və keçmiş baş nazir Nəcməddin Ərbakanın Gülən hərəkatı ilə məsafəli davrandığını da müsahibəsində ifadə edib.

Türk general Gülən camaatı barədə AKP iqtidarına dəfələrlə xəbərdarlıq etdiyini, "təhdit bu gün bizədir, sabah da sizə gələcək" dediklərini, lakin o vaxtlar iqtidar mənsublarının onlara mövzunu şişirtməməyi məsləhət gördüklərini bildirib.

İlkər Başbuğ Gülən hərəkatının 2011-ci il iyulun 3-də danışılmış oyunlar ittihamı ilə "Fənərbaxça" klubunu hədəfə aldıqlarını, lakin klub rəhbərliyinin bu hücum qarşısında duruş gətirərək ayaqda qaldığını ifadə edib.

Onun fikrincə, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan 2012-2016-cı illər arasında Gülən şəbəkəsinə qarşı təkbaşına mübarizə aparıb və bu yolda təkbaşına qalıb. Başbuğ çevriliş zamanı ordu rəhbərliyini ləng tərpənməkdə günahlandırıb.

Fətullah Gülənin ABŞ tərəfindən təslim edilməsi məsələsinə də toxunan general deyib: **"Onu zaman göstərər... ABŞ Güləni təhvil verməzsə, demək ki, ondan istifadə etməyə davam edəcək, edərsə demək ki, istifadə müddəti bitib"...**

İlkər Başbuğ həbs edilən 2-ci ordu komandanı Adəm Hudutinin FETÖ üzvü olduğuna olduqca şübhə ilə yanaşdığını söyləyib. Keçmiş qərargah rəisi bütün olub-bitənlərə rəğmən, hərbi məktəblərin bağlanmasının doğru olmayacağını da sözlərinə əlavə edib.

Müsahibədə Başbuğun çevrilişin arxasında 3 qrup olması ilə bağlı söylədikləri də maraqlıdır: **"15 iyul çevrilişini planlayan, idarə edən və təşkil edən ana isim Gülən camaatıdır, ikincisi, böyük bir ehtimalla, öhdəsinə düşəni etməyənlər, gecikənlər və tərəddüdə düşənlərdir, üçüncü qrup isə camaatçı olmamasına rəğmən bundan istifadə etmək istəyən bəzi insanlar ola bilər".**

❑ Vaqif HÜSEYN

YENİ MÜSAVAT
N 168 (6489) 3 avqust 2016

## Düşmən ölkə növbəti çalxalanma ərəfəsində

**Serj Sərkisyan "Sasna tsrer" təşkilatının iki həftə ərzində ölkədə yaratdığı iflic vəziyyətin düzəldiyini bəyan edib. O, problemin qansız-qadasız başa çatmasını az qala böyük zəfər olaraq qeyd edib. Amma erməni lider, bununla belə, iki polisin öldürülməsi faktını, deyəsən, unudub.**



# Sərkisyana hiddət səngimir - yeni qiyam yetişir

Ermənistan prezidentinin son açıqlamaları ictimai-siyasi kəsimi sakitləşdirmək əvəzinə, qəzəbi daha da artırıb; yerli media ölkə başçısını riyakarlıqda suçladı; müxalifət isə hakim rejimi növbəti silahlı üsyanla hədələyir...

Ermənistan prezidentinin bu nitqini öz yaxın çevrəsi ətrafında etməsi müxalif mətbuat tərəfindən hiddətlə qarşılanıb. Mətbuat bu çağırışla Sərkisyanın öz ətrafına birlik mesajı verdiyini bildirir. Ölkə jurnalistləri Sərkisyanın jurnalistlərdən üzr istəməsini anlamadıqlarını bildiriblər. Onların fikrincə, Sərkisyanın döyülən, əzilən, gözü çıxarılan mitinqçilərin əvəzinə məhz jurnalistlərdən üzr istəməsi riyakarlıq əlamətidir.

Müxalifət Serj Sərkisyanın Ermənistanda milli etimad hökumətinin qurulacağı barədə sözlərini da tənqid edib. Siyasi opponentlər bir neçə ay sonra Ermənistanda parlament seçkilərinin keçiriləcəyini və hökumətin bu seçkilərin nəticələrinə uyğun qurulacağını xatırladıblar. *(Yeni konstitusiyaya əsasən, Ermənistan parlament respublikası elan edilib-red.)* Onlar Sərkisyanın bu sözlərlə seçkilərin nəticələrini indidən müəyyənləşdirdiyini, yəni seçkilərin saxtalaşdırılmasına hazırlaşdığını bildirirlər.

Sərkisyanın bəyanatındakı mühüm məqamlardan biri də onun "bəzilərinin kresloya can atması və bundan ötrü İrəvanı Beyruta və ya Hələbə çevrimək istəyənlər" barəsində dedikləri olub. Yerli mətbuat bununla Jirayr Səfilyanın Beyrutda dünyaya gələn Livan ermənisi olduğuna işarə edildiyini bildirir.

"Maraqlıdır, Hələbdəki kimdir? Bəlkə Sərkisyan onu devirmək istəyən və Ermənistan siyasi meydanında fəaliyyət göstərən başqa qüvvələri nəzərdə tutur", - deyə armenianreport saytının şərhçisi Aram Amatunı yazır...

Ermənistan mətbuatı həmçinin son hadisələrdə Rusiyanın qızışdırıcı və qərəzli rol oynadığını yazır. Jurnalist Tevos Arşakyan "Putin, sənin qulun biz deyil, Serj Sərkisyandır" adlı məqaləsində Rusiyanın erməni xalqının başına gələn bütün bədbəxtliklərin baiskarı olduğunu qeyd edib.

**"Müttəfiqimiz heç bir vicdan əzabı çəkmədən erməni torpaqları *(?!) (işğal edilmiş Azərbaycan əraziləri-red.)* ilə alver edir və Azərbaycanı qızışdırır, ona dərs keçir. Bütün bunların fonunda erməni cəmiyyətində artıq qəzəb və qızğınlıq bir-birinə qarışıb. Bura Sərkisyan rejiminə nifrət, güc strukturlarının hərəkətlərindən iyrənmək, Ermənistanın KTMT (Kollektiv Təhlükəsizlik Müqavilə Təşkilatı) və Avrasiya İttifaqındakı müttəfiqlərinin Azərbaycanın hücumları qarşısındakı susqunluğu da aiddir" - Arşakyan yazır və davam edir: "Moskvada bir şeyi anlamırlar ki, onların qulu Sərkisyandır, ermənilər yox".**

Tevos Arşakyan Varujan Avetisyanın sözlərinə qüvvət verərək Ermənistanın Rusiyaya qarşı milli azadlıq hərəkatına başlamalı olduğunu bildirib.

Ermənistan parlamentinin deputatı Zarui Postancyan isə Ermənistanın 1-ci informasiya saytına (1in.am) verdiyi müsahibədə ""Sasna tsrer" təşkilatının ələ keçirdiyi yüksəklikləri qəsbkarlara verməyəcəklərini" söyləyib. Erməni deputat qəsbkarlar dedikdə təbii ki, Sarkisyan rejimini nəzərdə tutub.

**"Bizim düşmənə verəcək heç nəyimiz yoxdur. Hazırda mən atışmada yaralanan insanların tezliklə sağalmasını arzu edirəm ki, yenidən gəlib mövqeləri ələ keçirsinlər. Həmin gün *(mitinqin dağıdıldığı gün nəzərdə tutulur-red.)* Ermənistan hakimiyyəti vətəndaşlarına qarşı terror aktı həyata keçirib. Baş terrorçu *(Serj Sərkisyan)* əmr edib, bu əmri isə Ermənistan polis rəisinin müavinləri Levon Yeranosyan və Aşot Karapetyan icra ediblər. Bu cinayətkar rejimdən qurtulmaq uğrunda bizə Pavel Manukyan kimilərin qayıtması vacibdir"**, - deyə Postancyan hətta lazım gəlsə, Sərkisyana qarşı qanlı mücadilənin istisna edilməyəcəyinə işarə vurub.

❑ **Vaqif HÜSEYN**
**Musavat.com**



# ABŞ qondarma "erməni soyqırımı"nı tanıya bilər, əgər...

## Ekspertlərə görə, Türkiyə ilə münasibətlərdə soyuqluq davam edərsə, bunun baş verməsi mümkündür

**"ABŞ-ın qondarma "erməni soyqırımı"nı tanımaq ehtimalı var". Bunu ABŞ Konqresinin Nümayəndələr Palatasının üzvü Cim Kosta bəyan edib. Onun sözlərinə görə, bu istiqamətdə işləyən konqresmenlər məsələ ilə bağlı əlavə dəstək alacaqlar.**

Qeyd edək ki, daha öncə də Almaniya Türkiyə ilə münasibətlərinin soyuqlaşması fonunda uydurma məsələni tanımışdı. İndi də Türkiyədə baş verən hərbi çevrilişdən sonra bu ölkənin ABŞ-la münasibətlərində problem yaşanır. Bir tərəfdən, Türkiyə rəsmiləri ABŞ-ı çevrilişə dəstək verməkdə ittiham edir, digər tərəfdən, ABŞ Fətullah Güləni Türkiyəyə verməməklə bu narazılığı daha da artırır. İki ölkə rəsmiləri arasında da sərt bəyanatlar səslənməkdədir. Bəs ABŞ Almaniya kimi saxta soyqırımı tanıya bilərmi?

**"Yeni Müsavat"a açıqlamasında bu ehtimala münasibət bildirən politoloq, "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu bildirdi ki, Türkiyə ilə münasibətlər soyuqlaşmaqda davam etsə, qondarma erməni soyqırımının qəbul edilməsi reallaşa bilər:** "Prinsipcə, ABŞ-ın bəzi ştatlarında soyqırımla bağlı qətnamələr qəbul edilib. Ara-sıra Amerika Konqresinin komissiyalarında da bu müzakirə edilir, lakin son anda səsvermə ərəfəsində vaz keçiblər. Türkiyə ilə strateji münasibətlərin əhəmiyyətini nəzərə alaraq buna getməyiblər. Heç kimin ağlına gəlməzdi ki, Türkiyə ilə çox sıx münasibətlərdə olan, milyonlarla türkün yaşadığı Almaniya erməni soyqırımını qəbul etdi. Halbuki o ölkədə heç 50-10 min erməni yoxdur. Hesab edirəm ki, ABŞ-la Türkiyə münasibətləri də soyuya bilər. Çünki ABŞ Fətullah Güləni Türkiyəyə iadə etməyəcək. Onu da istisna etmirəm ki, ermənipərəst konqresmenlər bu fürsətdən istifadə edib, soyqırımı qəbul etmək üçün yararlanacaqlar. Türkiyədə terror törədən, yüzlərlə insanı ABŞ bu ölkəyə geri vermirsə, onun qondarma erməni soyqırımı ilə bağlı qətnamə qəbul etməsi də gözləniləndir. Onu da nəzərə almaq lazımdır ki, Barak Obama artıq prezidentliyi ilə vidalaşır. O prezidentliyə namizəd olarkən erməni lobbisinə vəd etmişdi ki, soyqırımı tanıyacaq. İndi Obamanın bir neçə ayı qalıb və yəqin ki, o, bu addımı atacaq".

**Politoloq Qabil Hüseynli də bildirdi ki, Türkiyə ABŞ-la münasibətlərində ehtiyatlı olmalıdır, əks halda, qondarma soyqırım qəbul edilə bilər:** "Çox asanlıqla bu məsələ ABŞ-da gündəmə gələ bilər və hətta qəbul edilə bilər. Əgər Türkiyə münasibətləri bir Güləndən ötrü pozsa, bütöv bir dövlətin maraqlarını qurban versə, Amerika bu məsələni gündəmə də gətirər, çox asanlıqla qəbul da edə bilər. ABŞ-ın qondarma soyqırımı qəbul etməsi isə artıq Ermənistanın qarşısında yaşıl işıq yandıracaq və o, Avropa Məhkəməsində təzminat davası aça bilər, Türkiyənin qarşısında çox ciddi tələblər irəli sürə bilər".

**Q.Hüseynli qeyd etdi ki, Türkiyə bu məsələdə siyasi qaydalara uyğun davranmalıdır:** "Gülənin taleyi məhkəmə yolu ilə həll edilməlidir, dövlət bu işə qarışmamalıdır. Vəkil tutmalıdırlar, vəkilə lazım olan sənədləri, sübutları verməlidirlər, bu sübutlarla məhkəmə araşdırması təyin edilməlidir. Amerikada məhkəmələr müstəqildir, hər hansı siyasi qərara tabe deyil. Gülənin Türkiyəyə verilib-verilməməsinə dair məhz məhkəmə qərar çıxarmalıdır. İndi məhkəmə qərarı çıxarılmamış, mitinqdə çıxış edib, "Siz Güləni bizə verməlisiniz" deyə çığırmaqla, təhdid etməklə məsələ həll olunmur. İstənilən təhdidi ABŞ edə bilər. Türkiyənin əlində nə var ki... ABŞ-la münasibətlərin pozulması Türkiyə üçün böyük fəlakət olar. Mənim düşüncəmə görə , ABŞ-la münasibətlərin üstündə əsmək lazımdır. Gülən bu gün-sabah ölüb gedəcək və ya başqa bir dövlətə ötürüləcək. Türkiyə hakimiyyəti Gülən haqda ölüm hökmü çıxarıb. Ölüm hökmü çıxaran ölkəyə heç kimi vermirlər. Lakin ABŞ-ın soyqırımı qəbul etməsini də gözləmirəm. Türkiyə kimi dövləti belə kiçik məsələlərə qurban vermək olmaz".

❑ **Nərgiz LİFTİYEVA**

## İsrail səfirliyi: ""Erməni soyqırımı" ilə bağlı mövqeyimiz dəyişməz qalır"



**İsrailin Azərbaycandakı səfirliyi İsrail komitəsinin qondarma "erməni soyqırımı"nı tanıması barədə yayılmış məlumata münasibət bildirib.**

Səfirlikdən "Report"a bildirilib ki, İsrail Knessetinin Təhsil, Mədəniyyət və İdman Komitəsinin qərarına baxmayaraq, İsrail hökumətinin qondarma "erməni soyqırımı" ilə bağlı mövqeyi dəyişməz olaraq qalır.

Səfirlik bir daha bu məsələnin tarixçilərə aid olduğunu və siyasi müzakirə mövzusu olmasına ehtiyac duyulmadığını vurğulayıb.

# Çörəklə bağlı qiymət müəmması - artıb, yoxsa...

## Ekspert: "Elektrikin bahalaşması çörəyin bahalaşmasına iqtisadi zəmin yaratmır"

**İyulun 30-dan etibarən Bakıda bir sıra mağazalarda çörəyin qiymətində 10 qəpik artım olub. Lakin maraqlı məqam ondan ibarətdir ki, eyni zavodun istehsalı olan çörəklər müxtəlif mağazalarda fərqli qiymətlərlə satılır.**



Bakıda adətən çörəyin qiymətində artıma (10 qəpik) məhəllə marketlərində və digər bu kimi pərakəndə satış yerlərində rast gəlmək olur. "Yeni Müsavat"ın əməkdaşı müşahidə aparıb ki, iri ticarət mərkəzlərində çörək əvvəlki qiymətinə satılır. Misal üçün, "Araz", "Rahat" marketlər şəbəkəsində qiymət artımı yoxdur. Eyni zamanda "Bazar store"da çörək hələ ki həmişə olduğu kimi, 40 qəpiyə satılır. Lakin misal üçün, "Planet market"də Binə, Bakıxanov, Nur çörək zavodlarının çörəkləri iyulun 30-dan etibarən 50 qəpiyə satılır. Hətta bu barədə çörək vitrininin önünə xüsusi qiymət göstərən lövhə də vurublar. Mağaza satıcıları bildirirlər ki, qiyməti qaldıran onlar yox, zavodlardır. Yuxarıda da qeyd etdiyimiz kimi digər mağazalarda isə eyni zavodun çörəkləri 50 deyil, 40 qəpiyə satılır.

**Məsələ ilə bağlı son günlər rəsmi açıqlama da verilib. Açıqlamalarda da deyildi ki, hazırda çörəyin qiymətində heç bir artım yoxdur. İqtisadiyyat Nazirliyinin mətbuat xidmətinin rəhbəri Abbas Əliyev bu xüsusda bildirib:** "Çörək qiymətləri dövlət tərəfindən tənzimlənməyən məhsulların siyahısına daxildir. Bununla belə, qiymətləri dövlət tərəfindən tənzimlənməyən mallar üzrə də süni qiymət artımına yol verilməməsi üçün mütəmadi monitorinqlər aparılır. Əgər qarşıdakı dövrdə qiymətlərdə dəyişiklik baş verərsə, bunun səbəbləri araşdırılacaq".

Bəs belə olduğu halda, çörəyin qiymətinin qalxma səbəbi nədir? **İqtisadçı ekspert Vüqar Bayramov** "Yeni Müsavat"a bildirib ki, hazırda çörəyin qiymətini analiz edib konkret fikir bildirmək üçün maneələr var: "Çörək istehsalçısı olan zavodlar 1 kiloqram çörəyin xərci ilə bağlı açıqlama yaymayıblar. Nəticədə çörəyin hər kiloqramının xərc strukturu bəlli deyil. Ona görə də bu gün qiymətin xərcdən üstün və ya az olduğunu müəyyənləşdirmək çətindir. Bu baxımdan, daha məqsədəuyğun olardı ki, çörək istehsal edən zavodlar hər kiloqram çörəyin onlara neçəyə başa gəlməsi ilə bağlı ictimaiyyəti məlumatlandırsınlar. Bəlli olsun ki, bu gün çörəyin qiymətinin artırılması üçün zəmin var, yoxsa yoxdur. Düşünmürəm ki, çörəyin qiymətinin artması istehsala ciddi təsir göstərir. Nəzərə alaq ki, elektrik enerjisinin hər bir çörəyin xərc strukturunda payı elə də çox deyil. Bu baxımdan da elektrik enerjisinin qiymətinin artması çörəyin bahalaşmasına iqtisadi zəmin yaratmır".

**Ekspert bildirib ki, xərc strukturları ilə bağlı müxtəlif məlumatlar var:** "Bütün bunlara görə, indiki məqamda çörəyin qiymətinin artmasına iqtisadi zəminin olub-olmamasını da müəyyənləşdirmək çətindir. Yuxarıda da qeyd etdiyim kimi, zavodların çörəyin xərc strukturu ilə bağlı məlumatları ictimaiyyətə təqdim etmələrinə ehtiyac var. Bir məqam da var ki, Azərbaycan taxıla olan ehtiyacının əhəmiyyətli bir hissəsini xaricdən idxal hesabına ödəyir. İstehsal etdiyimiz taxılın böyük bir qismi çörək üçün keyfiyyətli deyil. Ona görə də çörək istehsalının idxaldan asılılığı var. Bundan başqa, manatın məzənnəsinin aşağı düşməsi də idxal edilən buğdanın manat ifadəsində qiymətinə təsir göstərir. Ancaq eyni zamanda Nazirlər Kabineti tərəfindən vergilərin tənzimlənməsi istiqamətində addımlar atılıb. Bu baxımdan, əgər manatın qiymətinin aşağı düşməsi xərci artırırsa, vergilərin azaldılması və ləğvi xərcin optimallaşdırılmasına gətirib çıxarıb".

**Ekspertin çörəyin müxtəlif yerlərdə fərqli qiymətə satışına münasibəti belə olub:** "Adətən iri supermarketlərin qiymətə təsir imkanları var. Onlar böyük həcmdə çörəyin satışını həyata keçirirlər. Kiçik mağazaların isə bu cür imkanları yoxdur. Düşünmürəm ki, kiçik və iri mağazalarda müxtəlif qiymətə satılan çörəklərdə keyfiyyət, çəki fərqi var. Yeganə məsələ, yuxarıda qeyd etdiyim kimi, iri marketlərin daha çox çörək satmaları və bu səbəbdən əvvəlki qiyməti saxlaya bilmə imkanlarıdır".

Yada salaq ki, manatın ikinci devalvasiyasından sonra da çörəyin və unun qiymətində artım müşahidə olunmuşdu. Həmin zaman hökumətin, yerlərdə icra hakimiyyətinin nümayəndələrinin işə qarışması nəticəsində qiymətlər əvvəlki vəziyyətinə qaytarıldı.

❑ **Əli RAİS**



# Əhali kreditlərini qaytara bilmir

## Onların bir qismi dollar borcunu ödəmək iqtidarında olmasa da, biləklərdən ödəniş etməyənlər də var

**Ölkədə vaxtı keçmiş kreditlərin artdığı bildirilir. Mərkəzi Bankın (MB) hesabatına görə, may ayında problemli kreditlərin həcmi 132,9 milyon manat artıb. İyunun 1-i bu rəqəm 1 milyard 514 milyon manata çatıb. Problemli kreditlərin ümumi kredit portfelindəki payının da kəskin artdığı deyilir. Bunun ümumi portfeldə çəkisinin 8,3 faiz olduğu qeyd edilib. Bir ay əvvəl isə bu göstərici 7,4 faiz idi.**

Həmçinin bankların kredit qoyuluşlarının da azaldığı açıqlanıb. MB-nin hesabatına görə, iyunun 1-nə ölkə banklarının ümumi kredit portfeli 18 milyard 197,1 milyon manat təşkil edib. Bu may ayında kredit portfelinin 561,6 milyon manat azalması deməkdir. Ancaq Azərbaycandakı müstəqil iqtisadçılar bu rəqəmlərə bir qədər şübhə ilə yanaşırlar. Onlar düşünür ki, problemli kreditlər daha çoxdur.

**İqtisadçı alim Fikrət Yusifov məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, problemli kreditlər daha çox xarici valyuta ilə götürülən kreditlərdir:** "Əgər Mərkəzi Bankın rəsmi saytındakı rəqəmlərə nəzər salsaq, keçən ilin fevral ayı ilə müqayisədə vaxtı keçmiş kreditlərin bu ilin beş ayı ərzində 33 faizdən çox artdığının şahidi olarıq. İlyarım ərzində baş vermiş bu artım kifayət qədər böyükdür. Bəzi banklarda bu rəqəmlərin orta göstəricilərdən daha yüksək olması barədə məlumatlar var. Bu sıraya ilk növbədə bağlanmasına qərar verilmiş və bağlanmaq ərəfəsində olan banklar aiddir. Mərkəzi Bankın məlumatları onu da göstərir ki, artım əsasən xarici valyutada verilmiş kreditlərin ödənişindəki gecikmələr nəticəsində baş verib. Belə ki, keçən ilin fevral ayı ilə müqayisədə, milli valyuta üzrə gecikən kreditlərin həcmi cari ilin may ayında 5,6 faiz azalsa da, xarici valyuta ilə verilən kreditlər üzrə bu gecikmələrin həcmi 2,3 dəfə artıb. Bu rəqəmlər özlüyündə problemin məhz xarici valyutada olan kreditlər üzrə yarandığını göstərir. Buna görə də hesab edirik ki, problemin həllinin bir yolu var. Mərkəzi Bank daxili borclanma hesabına bankların xarici valyutada verdikləri kreditlər üzrə yaranmış məzənnə fərqini onlara ödəməli və bundan sonra banklar xarici valyutada olan kreditləri köhnə məzənnə ilə manatla olan kreditlərə çevirməlidirlər. Fikrimizcə, bu, məsələnin həllinin ən optimal yoludur".

**Bankların xarici maliyyə qurumlarından götürdükləri kreditlərə gəldikdə isə ekspert qeyd edib ki, bu istiqamətdə də məqsədyönlü işlərin aparılması mümkündür:** "Məsələn, həmin kreditlərin ödəniş vaxtının uzadılması üzrə razılaşmalar əldə etmək mümkündür. Bəzi zəruri hallarda isə bu kreditlərə görə dövlət zəmanəti də vermək olar. Bütövlükdə problemin həlli yollarını dediyimiz addımların atılmasında görürük. Əks halda, xarici valyuta ilə verilən kreditlər üzrə gecikmələr daha da artacaq ki, bu da nə banklar üçün, nə də əhali üçün arzu olunan hal deyil".

**Ekspert Əkrəm Həsənov isə bildirib ki, manat kreditləri də artıq qaytarılmır:** "Devalvasiya gözləntisi bankların axırına çıxır. Dollar kreditlərinə xüsusi diqqət manat kreditlərini bir qədər kölgədə qoyub. Lakin reallıq budur ki, həm əhali, həm də sahibkarlar nəinki dollar, həmçinin manat kreditlərini də ödəmir. Bir qismi maliyyə çətinliyi ucbatından ödəmir. Bir qismi isə bilərəkdən ödəmir. Məqsəd sadədir: manatın kəskin devalvasiyasını və nəticədə borclarının heçə çevrilməsini gözləyirlər. Təxmini belə düşünürlər: "Qoy bank məni versin məhkəməyə, məhkəmə prosesini aşağısı 1,5-2 il uzadaram, o vaxta qədər də manat bir neçə dəfə dəyərdən düşər, devalvasiya və inflyasiya olar, qiymətlər və maaşlar artar və sair. Lap faizləri və cərimələsi ilə birgə də qaytarsam, ciddi məbləğ olmayacaq. O vaxtadək də əlimə düşəni dollara çevirib gözləyərəm". Yeri gəlmişkən, elə banklar da məhz bu səbəbdən hazırda manatla kredit verməkdən yayınır. Bəli, Mərkəzi Bankın yarıtmaz pul siyasəti və bank nəzarəti, eyni zamanda bankların da acgöz və qeyri-peşəkar fəaliyyəti hazırda özlərinə qarşı işləyir və nəticədə ölkənin maliyyə sistemini uçuruma aparır".

❑ **Röya RƏFİYEVA**

# Milyarder Kərimov Telman İsmayılova hücuma keçdi

**İllərdir açıq-aşkar neft oğurluğunun baş verdiyi Mahaçqala limanını ələ keçirmək uğrunda hazırda müflis vəziyyətdə olan yəhudi əsilli azərbaycanlı oliqarx Telman İsmayılovla dağıstanlı milyarder Süleyman Kərimov arasında mübarizə başlayıb.**

Virtualaz.org Rusiya mənbələrinə istinadən xəbər verir ki, hökumətin özəlləşdirmə proqramına əsasən dövlət mülkiyyətində olan Mahaçqala limanı ilin sonuna qədər Dağıstan hökumətinin mülkiyyətinə veriləcək və özəlləşdirməyə çıxarılacaq.



Telman İsmayılov



Süleyman Kərimov

İndiyədək limana əsas iddiaçılar "Nafta-Moskva" şirkətlər qrupunun sahibi, dağstanlı milyarder-oliqarx, Federasiya Şurasının Dağıstandan olan üzvü Süleyman Kərimov və "Summa" şirkətlər qrupunun sahibi, digər dağıstanlı oliqarx Ziyavudin Maqomedov hesab olunurdu. Lakin bugünlərdə limana sürpriz iddiaçı ortaya çıxıb. Bu, hazırda müflis vəziyyətdə olan, bütün aktivləri əlindən çıxan və üst-üstə 1.5 milyard dollarlıq borc tələbi ilə üzləşən Telman İsmayılovdur.

Mətbuata məlum olub ki, hələ özəlləşdirməyə çıxarılmamış Mahaçqala limanını almağa Türkiyənin liman operatoru "Yılport Holding" maraq göstərir. Holdinqin adından Dağıstan rəhbərliyi ilə danışıqları aparan isə Telman İsmayılovdur. Bildirilir ki, Türkiyədə yaşayan T.İsmayılovun bu holdinqlə bağlılığı var və o, Dağıstan rəhbəri Ramazan Abdulatipovla yaxın münasibətlərindən istifadə edərək bu gəliri obyekti ələ almağa çalışır.

Lakin Mahaçqala limanına digər iddiaçı Süleyman Kərimov Dağıstan rəhbəri ilə yaxın əlaqələri olan Telman İsmayılovun limanı ələ keçirməyə çalışdığını öyrənən kimi əks hücuma keçib. Biznesmenin strukturları ilə əlaqəli olan "Arolia Holding" Dağıstanın Arbitraj Məhkəməsində "Mahaçqala dəniz ticarət limanı" dövlət idarəsinə qarşı 678 milyon rubl məbləğində iddia qaldırıb. Məlum olub ki, "Arolia Holding" Mahaçqala limanının "Sberbank" qarşısında yarım milyard rubldan artıq olan kredit borcunu alıb və indi limanın məhkəməyə verərək ya borcun ödənilməsini, ya limanın müflis elan edilməsini istəyir. Əgər iddia təmin olunsa, Mahaçqala limanı müflis olacaq. Kərimov isə müflis olmuş limanı qəpik-quruşa ələ keçirəcək.

Mahaçqala limanında neft oğurluğu haqda Rusiya mətbuatı neçə vaxtdır yazır. Məlumatlara görə, Rusiya şirkətlərinin Xəzərdən hasil etdiyi neftin bir hissəsi Mahaçqala limanından oğurlanır və liman rəhbərliyinin qeyri-leqal neftayırma zavodlarına ötürülür. Mahaçqala limanında neft oğurluğuna görə bu yaxınlarda "LUKoil" şirkəti Xəzərdən hasil etdiyi nefti Bakı-Tiflis-Ceyhan kəmərinə yönəldə biləcəyinə dair xəbərdarlıq edib.

Limanda hökm sürən oğurluq və korrupsiyaya görə bu ilin mayında "Rosmorreçflot" limanının direktoru Əhməd Hacıyevi işdən azad etməyə cəhd göstərib. Lakin liman direktoru öz tərəfdarlarını mitinqə toplayıb və üstəlik, onlara "Kalaşnikov" avtomatları da paylayıb. Mətbuat yazır ki, Mahaçqala sakinləri bu mənzərəni görəndə müharibə başladığını zənn ediblər.

YENİ MÜSAVAT
N 168 (6489) 3 avqust 2016

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# Müharibə variantı yenidən gündəmə qayıdır

## Ermənistan prezidentinin son bəyanatının ardınca Paris danışıqlarına hansı üzlə gedəcəyi sual doğurur; hərbi və siyasi şərhçilər işğalçı ölkənin qarşısında konkret tələblər qoymağı zəruri sayır...

**İrəvanda post-patrul polisi polkunun binasını iki həftədən artıqdır ələ keçirən silahlı terrorçu qrupun üzvlərinin təslim olmasından sonra prezident Serj Sərkisyan ilk dəfə ictimaiyyət qarşısına çıxdı və bu çıxışı ilə də Ermənistandakı silahlı dəstənin arxasında əslində özünün dayandığını, bütün bu oyunların Qarabağla bağlı oynanıldığını nümayiş etdirdi.**




İctimaiyyətin müxtəlif təbəqələrinin nümayəndələrini prezident iqamətgahına toplayaraq onların qarşısında çıxış edən Ermənistan prezidenti deyib ki, baş verənlər Ermənistanda milli barışıq hökumətinin formalaşdırılmasını zəruri edir. Onun sözlərinə görə, konstitusiya islahatları məhz buna yönəlib. "Əminliklə deyirəm ki, cəmi bir neçə ay sonra Ermənistanda məhz belə hökümət olacaq" - o bildirib. Daha sonra o, Qarabağ məsələsi haqda danışarkən "birtərəfli güzəştlərin olmayacağını" deyib. "Dağlıq Qarabağ heç vaxt Azərbaycanın tərkibində olmayacaq. Bu, istisnadır. Bir daha təkrar edirəm ki, istisnadır. Mən bütün şüurlu həyatımı bu problemə həsr etmişəm. Və öz xalqım üçün məqbul varianta nail olmaq üçün mən nəinki istənilən vəzifəni, öz canımı da qurban verməyə hamışə hazıram" -Sərkisyan deyib.

Ölkədə Qarabağa görə qiyam təşkil edən, xalqın küçələrə çıxmasına şərait yaradan, radikalların Qarabağla bağlı silaha əl atmasında göz yuman S.Sərkisyan sonda verdiyi Qarabağ bəyanatı ilə həm etirazları səngitməyi düşünür, həm də bununla qarşıdakı görüşlər üçün kart-blanş əldə etməyə çalışır. Bundan əvvəl "dünya yığılsa da, Qarabağ ermənilərini Azərbaycanın tərkibində yaşamağa razı sala bilməz" deyən Sərkisyan indi də "xalq etirazları"nı əsas gətirib güzəştli sülhdən yayınmağa çalışır.

Dünən Ermənistan Milli Təhlükəsizlik Xidməti binanın tutulması ilə bağlı 47 şəxsin saxlanıldığı barədə məlumat yayıb. Proseslərin episentrində dayanmış, məhbus müxalifətçi Jirayr Səfilyan isə 2006-cı ildən sonra ikinci dəfə dövlət çevrilişinə cəhddə günahlandırılıb. Virtualaz.org-un xüsusi müxbiri xəbər verir ki, Səfilyan livanlı dostu Ralf İrikyanla birlikdə "Pekin" restoranında nahar edərkən tutulmuşdu. Ralf İrikyan Ermənistanın biznesini oğurluq və reket yolu ilə deyil, öz əlləri ilə qurmuş azsaylı milyarderlərindən biridir. O, "Vivasel MTS" telekommunikasiya şirkətinə rəhbərlik edir.

Qeyd edək ki, iyulun ortalarında Jirayr Səfilyanın tərəfdarlarından ibarət bir qrup İrəvanda polis idarəsinin binasını ələ keçirmişdi. İki həftəlik silahlı qarşıdurma ərzində onlar hakimiyyətdən liderlərinin azad olunmasını tələb edirdilər. Silahlı şəxslərlə üz-üzə dayanmağın təhlükəli olduğunu anlayan erməni hakimiyyəti isə ölkədə bəzi silah növlərinin satışına qadağa qoyub. Bu barədə Ermənistan polisinin mətbuat xidmətinin rəhbəri Aşot Aqaronyan bildirib.

Ermənistanda "İrs" partiyasının nüfuzlu nümayəndələri David Sanasaryan və Ovsep Xurşudyan da həbs olunanlar arasındadır. İrəvan Ağsaqqallar Şurasının üzvü, "İrs" partiyasının mətbuat katibi David Sanasaryan haqqında iki ay müddətinə həbs qərarı verilib. Azvision.az erməni KİV-nə istinadən xəbər verir ki, bunu Sanasaryanın vəkili Robert Revazyan bildirib. Vəkil vurğulayıb ki, Sanasaryan kütləvi iğtişaşların təşkilində şübhəli bilinir.

Saxlanılan şəxslərdən 24-nə "Girov götürmə", "Binanın dağıdılması və ona zərər vurulması ilə bağlı həmin obyektin tutulması" və "Qeyri-qanuni silah alma, saxlama, daşınma və üzərində odlu silahın gəzdirilməsi" maddələri üzrə ittiham irəli sürülüb. Şübhəsiz ki, Sərkisyan daha il yarım müddətində məhkəmə şouları ilə ölkədə baş qatmağa çalışacaq və həm də vasitəçilərə Qarabağda güzəştlərə getməsinin "riskli" olduğu barədə bəhanələr uyduracaq. Xüsusilə də onun Qarabağ üçün "canından keçməyə" hazır olduğunu bəyan etməsi Azərbaycana mövqeyini qətiləşdirmək və növbəti əməliyyatlara hazır olmaq mesajı da verir. Belə görünür ki, Sərkisyan son bir ayda cəbhəyə iki dəfə gəlməklə mövqelərdəki durumu öyrənmək istəyib. Bunun ardınca müharibə müsajını səsləndirməsi ondan xəbər verir ki, aprel döyüşləri Sərksiyana dərs olmayıb. "Ermənistan prezidenti Serj Sərkisyanın "canımdan keçərəm, Qarabağdan keçmərəm" açıqlaması daxili və xarici auditoriyaya hesablanıb. Daxilə mesajı budur ki, narahat olmayın, Qarabağ danışıqlarında güzəştə getməyəcəm, xarici auditoriyaya isə demək istəyir ki, "mənə Dağlıq Qarabağ ətrafındakı rayonların boşaldılması məsələsində təzyiq etməyin, yoxsa Ermənistanda xaos başlana bilər".

**Politoloq Elxan Şahinoğlu bunu "Yeni Müsavat"a açıqlamasında dedi.**

**Ekspertin sözlərinə görə, bu mesajlar Sərkisyanı xilas etməyəcək:** "Demaqogiya ilə məşğuldur, ölkəni uçuruma yuvarlandırıb, iqtisadiyyat və sosial sahə dağılıb, ölkəni tərk edənlərin sayı durmadan artır və ən nəhayət, Ermənistanı Rusiyanın əlavəsinə çevirib, indi də bəd ayaqda əhalini Qarabağla bağlı "şüarla" sakitləşdirmək istəyir. Ona görə biz elə etməliyik ki, Sərkisyan Dağlıq Qarabağı itirməklə, özünün təbirincə desək, canından da keçsin. Çünki o, bizə başqa alternativ qoymur. Ötən müsahiblərimdə demişdim ki, Ermənistandakı daxili qarşıdurmanın gedişatını diqqətlə izləməli və buna uyğun qərar verməliyik. Qarşıdurma indiki mərhələdə nisbətən səngiyib, polis məntəqəsi qiyamçılardan azad edilib. Yəqin ki, indi ikinci mərhələ başlayacaq. Bu mərhələdə həbslərin sayı artacaq. Növbəti mərhələdə isə hakimiyyətlə sistemdən kənar müxalifətin və cəmiyyətin fəal hissəsi ilə növbəti qarşıdurması baş verəcək. Bu arada Ermənistanda terror hadisələrinin, sui-qəsdlərin baş verməsi ehtimalı da az deyil".

**E.Şahinoğluna görə, aydındır ki, biz bütün mərhələləri gözləməli deyilik:** "Azərbaycan prezidenti İlham Əliyev erməni həmkarı ilə növbəti görüşdə məsələni sərt qoymalıdır: Ermənistan status və ya referendumun keçirilmə tarixi şərtini irəli sürmədən Dağlıq Qarabağ ətrafındakı rayonları azad etməyə hazırdır, ya yox? Sərkisyan bu suala növbəti dəfə "yox" cavabı verdiyi halda, biz tədbirlərimizi buna görə verməliyik. Həm də bu cavabı beynəlxalq birlik də görəcək. Doğrusu, növbəti nəticəsiz danışıqlardan sonra Sərkisyanla bir müddət görüşməyin əhəmiyyəti qalmayacaq. Azərbaycan prezidenti İlham Əliyev özü də dəfələrlə vurğulayıb ki, imitasiya xarakteri daşıyan danışıqlarda iştirak etməyəcək. Sərkisyan Dağlıq Qarabağ ətrafındakı rayonları boşaltmaq istəmirsə, demək, növbəti danışıqların imitasiya əhəmiyyəti daşıyacağı üzə çıxacaq. Aprel ayından bu yana danışıqların gedişatı göstərir ki, Sərkisyanın masa arxasındakı mövqeyi dəyişməyib. Ona görə də cəbhə bölgəsində işğalçıya qarşı təzyiqi artırmalıyıq".

**Politoloq Arzu Nağıyev isə hesab edir ki, bu, Sərkisyan tərəfindən verilən birinci belə bəyanat deyil:** "Bəzi kütləvi informasiya vasitələrinə verdiyi müsahibələrində də bunu deyib. Məlumdur ki, İrəvanda düzənlənən sonuncu siyasi şouda Sərkisyan öz istəyinə çata bilmədi. Çünki əsas tələb Dağlıq Qarabağ münaqişəsində güzəştə getməməkdən ibarət idi. Eyni zamanda Dağlıq Qarabağdakı separatçılar qarşısında da "müstəqillik" sözü verməkdə davam edən Sərkisyan bununla öz hakimiyyətini qoruyur və status-kvonu saxlayır, danışıqları uzadır. Məqsəd də seçkilərə qədər uzatmaq və hakimiyyətdən getməkdir. Təbii ki, bu, ilk növbədə Azərbaycanı qane etmir, bundan başqa, Qərb də regionda təhlükəsizliyin təmin edilməsinə çalışır. Əsas oyunçu kimi Rusiya da stabillikdə maraqlı olmalıdır. Yəqin ki, Türkiyənin də Rusiya ilə yaxınlaşması problemin həllinə müsbət təsir edə bilər. Azərbaycan belə bir vəziyyətdə təbii ki, öz prinsiplərindən geri çəkilməyəcəkdir və bütün beynəlxalq normalara uyğun olaraq ərazi bütövlüyünü bərpa etməyə çalışacaqdır . Bunun üçün də ATƏT müvafiq qərarlar verməlidir. Əsasən ilk mərhələ kimi rayonların işğalçı ordudan təmizlənməsidir. Ermənistanda isə etiraz aksiyaları müvafiq ssenari üzrə davam edəcəkdir, çünki bununla onlar dünya ictimaiyyətinə sübut etməyə çalışırlar ki, Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olarsa, guya Ermənistanda dövlət çevrilişi baş verə bilər. Buna da məlumdur ki, Rusiya və hətta Qərb də imkan verməz. Bütün bunlardan belə nəticə çıxarmaq lazımdır ki, Azərbaycan sülh danışıqlarına getsə də, hərbi yolla olan variantı daima ehtiyat variant kimi hazır vəziyyətdə saxlamalıdır və düşünürəm ki, belədir".

**"Ermənistanın cinayətkar rəhbəri Serj Sərkisyan faktiki olaraq Qarabağla bağlı indiyə kimi gizli şəkildə, tülkücəsinə zaman-zaman üstüörtülü, bəzən açıq formada danışıqlar aparmaqla imitasiya edən mövqeyini artıq konkret olaraq bütün dünyaya bəyan etdi". Bu fikirlər isə hərbi ekspert, polkovnik-leytenant Üzeyir Cəfərova məxsusdur. Əməkdaşımızla söhbəti zamanı o bildirdi ki, bundan sonra Azərbaycan Xarici İşlər Nazirliyi təcili olaraq ATƏT-in Minsk Qrupundan bu məsələ ilə bağlı açıqlama və mövqe tələb etməlidir:** "Yəni onlar İrəvanda post-patrul polisi polkunun binasını iki həftədən artıq ələ keçirən silahlı terrorçu qrupun üzvlərinin təslim olmasından sonra Sərkisyanın Qarabağla bağlı verdiyi açıqlama ilə bağlı sözlərinə aydınlıq gətirməlidirlər. Zatən, onsuz da biz bilirdik ki, ermənilər 1994-cü ildən bu yana, sadəcə, vaxt udmaqla bu prosesi bacardıqca uzatmaq istəyirdilər. İndi isə Sərkisyan ictimaiyyətin müxtəlif təbəqələrinin nümayəndələrini prezident iqamətgahına toplayaraq onların qarşısında çıxış edərkən "birtərəfli güzəştlərin olmayacağını" deyib. Bununla da, mən hesab edirəm ki, bundan sonra heç bir danışıq prosesinə vaxt sərf etməyə dəyməz. Elə Minsk Qrupu da üzüsulu fəaliyyətini dayandırsa, pis olmaz. Bir cani və ona havadarlıq edən qüvvələr, faktiki olaraq bütün dünyanı Qarabağ məsələsinin həlli ilə bağlı barmağına dolamış kimi davranır. Heç kimin də ona yerinin göstərməsinə cəhd etməsini biz görmürük. Ona görə də bu məsələnin yeganə çözümü Azərbaycan dövləti və onun Silahlı Qüvvələri olmalıdır. Başqa yol artıq qalmayıb. Mənasız danışıqlar və vaxt itkisi bizim ziyanımıza işləyə bilər".

***

**Bu arada məlum olub ki, avqustda Azərbaycan və Ermənistan xarici işlər nazirləri Elmar Məmmədyarovla Edvard Nalbəndyanın həmsədr ölkələrin xarici işlər nazirləri ilə görüşü olacaq. Virtualaz.org-un məlumatına görə, bu barədə ABŞ Konqresi Nümayəndələr Palatasının üzvü Cim Kosta "news.am" saytına müsahibəsində deyib.** "Mən bilirəm ki, avqustda Azərbaycanın və Ermənistanın xarici işlər nazirlərinin Rusiya xarici işlər naziri Serqey Lavrov, Fransa xarici işlər naziri Jan Mark Eyro və ABŞ dövlət katibi Con Kerri ilə görüşü planlaşdırılıb", - deyə konqresmen bildirib. Hələlik rəsmi Bakı görüş faktını təsdiqləməyib. Mümkündür ki, nazirlər Azərbaycan və Ermənistan prezidentlərinin növbəti görüşünün detallarını müzakirə etsin. Vyana və Sankt-Peterburq görüşünün ardınca dövlət başçılarının Parisdə, daha sonra isə ABŞ-da bir araya gələcəyi deyilir. Lakin Sərkisyanın son bəyanatından sonra görüşün mənası qalmır.

**Prezidentlərin Fransada gözlənilən növbəti görüşünü şərh edən politoloq Rasim Musabəyov deyib ki, Azərbaycanın əsas təkidi ondan ibarətdir ki, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mahiyyət üzrə danışıqlar getməlidir, hansısa kənar məsələlər barədə yox (axar.az). İrəvandakı son olaylara gəlincə, politoloqun sözlərinə görə, Sərkisyan hazırkı manevrləri ilə vaxt udmağa çalışır.** "Məqsəd isə təbii ki, Dağlıq Qarabağla bağlı Fransada danışıqlar pro-

YENİ MÜSAVAT
N 168 (6489) 3 avqust 2016



# Söz azadlığı terrorun kölgəsində...

## Dünya ictimaiyyəti medianı niyə müdafiə etmir?

**Dünyanın demokratiya carçısı olan hegemon dövlətləri, insan hüquq və azadlıqlarının keşiyində duran beynəlxalq təşkilatlar mətbuata qarşı təzyiqlərə, jurnalistlərin həbsinə əvvəlki qədər sərt reaksiya vermir.**

Hazırda müxtəlif ölkələrdə, o cümlədən Türkiyədə mediaya təzyiqlər tarixdəki ən yüksək həddinə çatıb. Qardaş ölkədə son çevrilişə cəhd olayından sonra onlarla jurnalistin həbs edilməsi, onlarla media orqanının bir gündə qapadılması, həmçinin digər ölkələrdə jurnalistlərlə bağlı baş verən olaylar dünyanın beynəlxalq təşkilatlarını əvvəlki kimi narahat etmir. Xarici mediada demək olar ki, onların sərt bəyanatlarına, operativ reaksiyalarına rast gəlmirik. Əvvəl əgər bir jurnalistin həbsi Avropa Şurasını, BMT-ni ayağa qaldırırdısa, indi həmin təşkilatlar dünyada baş verən hadisələr fonunda susqunluğunu qoruyur.

Bəs görəsən, bu durumun səbəbi nədir? Niyə jurnalistlərin hüquqları, söz azadlığı bir vaxtlar dünya gündəminin bir nömrəli məsələsi olduğu halda, indi arxa plandadır?

**"Yeni Müsavat"ın suallarını cavablandıran politoloq Ərəstun Oruclu bildirdi ki, istənilən hadisə, o cümlədən jurnalistlərin həbsi bir neçə dəfə təkrar olunduqda beynəlxalq siyasət üçün də adiləşir:** "Məsələn, əvvəllər terror aktları baş verəndə dünya mətbuatının gündəmindən düşmürdü. Amma elə ki, terror aktlarının sayı artdı, miqyası genişləndi, tədricən bu, insanlar üçün adiləşdi. Təxminən jurnalistlərin həbsi, mətbu orqanlarının təzyiqlərə məruz qalması, qapadılması da adiləşib. Xüsusən Türkiyədə baş verənlərə bu cür münasibət anlaşılan deyil. Türkiyədə son illər, əsasən də Balyoz işlərindən başlayaraq jurnalistləri kütləvi şəkildə həbs etməyə başladılar. Artıq orada həbs olunan jurnalistlərin sayı yüzə çatıb. Mənim fikrimcə bu, daha çox adiləşmədir. Çünki 5-10 il əvvəlki siyasi mədəniyyət, siyasi əxlaq çərçivələri də bu gün dəyişib, o cümlədən də mediaya və insan haqlarına münasibət dəyişib. İnsan haqları ilə bağlı verilən bəyanatların sayı azalıb. Siyasət öz simasını dəyişməyə başlayıb. Jurnalistlərin həbsinə laqeydlik siyasətin dəyişməsindən gələn təzahürdür, getdikcə biz başqa məqamları da görəcəyik".



**Ərəstun Oruclu:** "Mediaya və insan haqlarına münasibət dəyişib"



**Zeynal Məmmədli:** "Beynəlxalq siyasətdə daha aktual olaylar önə çıxdıqda, digərləri fonda qalır"

**Ümid Partiyasının sədri İqbal Ağazadə qeyd etdi ki, hazırda dünya siyasətində bu dövr böyük itkilərlə müşayiət olunan dövrdür və əsas gündəmi terror hadisələri zəbt edib:** "Həbslərlə müqayisədə terrorda ölənlərin sayı daha böyükdür və hazırda terror daha qlobal məsələ kimi ortaya çıxıb. Ən güvənli, təhlükəsiz ölkələrdə belə ciddi terror hadisələri baş verirsə, onlarla insan ölürsə, təbii ki, bu olaylar üzərində düşünmək daha məntiqlidir, nəinki xırda həbslər və azadlıqların müvəqqəti məhdudlaşdırılması ilə. Birinci faktor budur. İkinci faktor odur ki, fəsil fərqlidir, yay daha çox parlamentarilərin istirahət etdiyi, siyasilərin fəal olmadığı dövrdür. Sentyabrdan daha fərqli münasibətlər formalaşacaq. Ən başlıca səbəblərdən biri isə odur ki, dünyada yeni düzən formalaşmağa başlayıb və o düzənin formalaşması bəzi regionlarda kataklizmlərlə müşayiət olunub. 2019-cu ilə qədər bu kataklizmlər davam edəcək. Həmin dövrdən sonra dünyada yeni bir düzən formalaşacaq ki, orada artıq idarətmə dəyərlər üzərində qurulacaq. İndi həmin dəyərlər istər Avropada, istər Yaxın Şərq coğrafiyasında çox böyük zərbə altında qalıb. Ona görə də, bu cür münasibət yaranıb".

**İ.Ağazadənin fikrincə, insanın fundamental azadlığı olan yaşamaq dünyanın ən böyük dövlətlərində, Almaniyada , Fransada, digər böyük ölkələrdə sual altındadırsa, terrora aidiyyəti olmayan insanlar onun qurbanı olursa, yaşamaq haqqını itirirlərsə, təbii ki, mətbuatın azadlığı məsələsi bir qədər arxa plana keçir:** "Bu gün yaşamaq hüququmuz şübhə altındadır, nəinki azad mətbuat. Hər an hər yerdə terror ola bilər, adi insandan tutmuş siyasətçiyə qədər hər kəs həyatını itirə bilər. Hesab edirəm ki, bu gün dünya daha böyük problemlərlə üz-üzə qalıb. Dünya siyasəti insanın yaşamaq haqqını qorumağın yollarını axtarır, günahsız insanların qurban getməsi problemini çözə bilmir. Dünyanın hər yerində terror baş verir. Ona görə də mətbuatın azadlığının itirilməsinə təəccüblənməməliyik".

**Media eksperti Zeynal Məmmədli isə bu mənada əsas yükün cəmiyyətin və medianın öz üzərinə düşdüyünü bildirdi:** "Birincisi, beynəlxalq siyasətdə daha aktual olaylar önə çıxdıqda, digərləri fonda qalır. Bir də hər bir böyük dövlət öz maraqlarına uyğun olaraq nəyi doğru sayıb-saymamağa qərar verir. Bu halda mən hesab etmirəm ki, haradasa jurnalistlərin həbsinə reaksiyalar yoxdur. Diqqət yetirsək görərik ki, dünyanın jurnalist birlikləri Türkiyədəki həbslərdən də narazıdırlar. Sadəcə, bizdə ANS-lə bağlı məsələ Türkiyədəki olaylar fonunda qavrandığından arxa plana atılıb. Buna reaksiya daha sonra olacaq. Çünki hələ ANS-in məhkəmə perspektivi var. Biz özümüz də mübarizə aparmalıyıq. Lakin öyrəşmişik ki, bizim əvəzimizə başqaları çalışsın, başqaları çarpışsın. Jurnalistikada baş verən hər bir olay ilk növbədə o auditoriyanın və jurnalistlərin özünün problemidir. Jurnalistlər özü bunu dünyaya çatdıra bilmirlərsə, deməli, onların bir jurnalist gücü olaraq tanınmağında da problem var. Məsələyə bu rakursdan da yanaşa bilərik. Türkiyə ilə bağlı məsələdə durum bir qədər aydın deyil. Bu baxımdan, yəqin ki, yaxın müddətdə insan hüquqlarını müdafiə edən təşkilatlar da mövqe bildirəcəklər. lakin bu bizə unutdurmamalıdır ki, olaylara reaksiya vermək ilk növbədə həmin medianın, cəmiyyətin işidir. Əgər həmin cəmiyyət üzərinə heç bir ağırlıq götürməsə, hər zaman kənardan kömək umsa, bu işlərin sonu heç də arzulanan kimi bitməyəcək".

❑ **Nərgiz LİFTİYEVA**

# Yanan bina ilə bağlı zərərçəkənlər məcburi məhkəməyə çağırıldı

## Qərar icra olunması üçün ərazi üzrə müvafiq polis idarəsinə göndəriləcək

**Xətaidə 9 mərtəbəli yaşayış binasında baş verən yanğında zərərçəkmiş şəxslər məhkəməyə dəvət edilsələr də gəlmirlər. Onlar məhkəmənin çağırışına məhəl qoymadıqlarından məcburi şəkildə məhkəməyə gətirilmələri ilə bağlı qərar çıxarılıb.**

Musavat.com-un məlumatına görə, ötən ilin aprelində Xətai rayonunda, Zığ şossesində yerləşən yaşayış binasında baş vermiş yanğından ziyan çəkmiş şəxslər məhkəməyə çağırılsalar da, gəlmirlər. Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Eldar İsmayılovun sədrliyi ilə keçirilən məhkəmə prosesində zərərçəkmişlərin məhkəmə gətirilməsi üçün polisə müraciət ünvanlanıb.

Avqustun 2-də keçirilən məhkəmə iclasında hakim bildirib ki, zərərçəkmişlərin bir qismi həm telefonla məhkəməyə dəvət olunub, həm çağırış məktubu göndərilib. Onların məhkəməyə gəlməsi üçün avtobuslar belə təşkil edilib. Lakin buna baxmayaraq, onlar məhkəməyə gəlməyiblər.



Lakin təqsirləndirilən şəxslərin vəkilləri məcburi gətirilmə təklifinə etiraz ediblər. Hakimlər vəkillərin təklifini müzakirə edib və zərərçəkmişlərin məcburi gətirilməsi haqda qərar çıxarıb. Qərar icra olunması üçün zərərçəkmişlərin yaşadığı ərazi üzrə polis idarəsinə göndəriləcək.

Qeyd edək ki, baş verən yanğınla bağlı Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb. Cinayət işi üzrə aparılan baxış, axtarış, götürmə və s. istintaq hərəkətləri ilə TNH şirkətinin fəaliyyətinə, istehsal etdiyi poliuretan məmulatının keyfiyyət və istehsal texnologiyasına dair zəruri materiallar, həmçinin iş üçün əhəmiyyət kəsb edən digər sənədlər müvafiq qaydada maddi sübut kimi götürülüb.

Ağırlaşdırıcı hallarda vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə yanğın təhlükəsizliyi qaydalarını kobud surətdə pozaraq, Xətai rayonu ərazisində yerləşən və qeyd edilən yaşayış binasına və bina sakinlərinə külli miqdarda maddi ziyan vurulmasına səbəb olan əməllərinə görə "TNH" şirkətinin fəaliyyətinə və görülən işlərə faktiki rəhbərliyi həyata keçirən Fərid Sadıqov, şirkətin direktoru Zaur Əşrəfov, şirkət direktorunun tikinti işləri üzrə müavini Nüsrət Muxtarov Cinayət Məcəlləsinin 225.2-ci (ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və digər ağır nəticələrə səbəb olan yanğın təhlükəsizliyi qaydalarını pozma) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda) maddələri ilə təqsirləndirilən şəxs qismində istintaqa cəlb edilərək, barələrində Nəsimi Rayon Məhkəməsinin qərarları ilə 4 ay müddətinə həbs-qətimkan tədbiri seçilib. Sonradan həbs-qətimkan tədbirinin müddəti artırılıb.

Bildirək ki, əvvəlki məhkəmə proseslərində çıxış edən təqsirləndirilən şəxslər özlərini təqsirli bilmədiklərini deyiblər. F.Sadıqov TNH şirkətinin rəhbəri olmadığını, özünün "Astoriya" MMC adlı tikinti şirkətinin olduğunu və Bakıda bina tikintisi ilə məşğul olduğunu deyib. O, şirkətin rəhbəri olan Məmməd Vəliyevin Azərbaycanı tərk etdiyini söyləyib.

Təqsirləndirilən Nüsrət Muxtarov iyulun 13-də Kürdəxanıdakı 1 saylı Bakı İstintaq Təcridxanasında dünyasını dəyişib. Onun oğlu məhkəmədə hüquqi varisi qismində tanınıb və atasının barəsində bəraət hökmünün çıxarılmasını istəyir.

❑ **İlkin MURADOV**

YENİ MÜSAVAT
N 168 (6489) 3 avqust 2016

# Hesablama Palatası dövlət qurumlarında yeyinti axtarır

## Ekspertlərə görə, artıq büdcədə yaranmış kəsirə görə büdcə vəsaitinə nəzarət edilməsi ehtimalı yüksəkdir, bir çox qurumlarda pozuntular aşkarlana bilər...

**Hesablama Palatası Bakı Şəhər İcra Hakimiyyətinin Mənzil-Kommunal Təsərrüfatı Departamentində nöqsanlar aşkarlayıb. "Report"un məlumatına görə, palata auditin nəticələrini açıqlayıb.**

Nəticələrə görə, bəzi Mənzil-Kommunal Təsərrüfatları Birlikləri (MKTB) tərəfindən aktivlərin dəyərinin düzgün olmayaraq xərcə (digər xərclərdə) silinməsi, cari təmir xərclərinin gəlirdən çıxılmalı olan təmir xərcinin normasından artıq aparılması və xərclərə aid edilməsi, liftlərə texniki xidmət haqqına hesablanılıb və departamentdən maliyyələşmə əvəzinə verilmiş mal-materialların dəyərinə tətbiq edilmiş ƏDV-nin düzgün olmayaraq xərcə silinməsi nəticəsində mənzil fondunun xərcləri artırılıb.

Ötən ilin əvvəlinə mənzil fondunun əhalisi 902 526 nəfər və yaşayış sahəsi 10 548 690,6 kv. metr, istifadə olunan qeyri-yaşayış sahəsi 486 270,8 kv. m və liftlərin sayı 5 552 vahid təşkil edib. Həmçinin dövlət əsaslı vəsait qoyuluşu və ehtiyat fondları üzrə 8 layihənin icrası nəzərdə tutulub, həmin layihələrdən 2-si üzrə, ümumiyyətlə, maliyyələşmə açılmayıb.

"Əvvəlki ilin faktiki və cari ilin gözlənilən xərcləri nəzərə alınmadığından mənzil fondunun inzibati idarə və xidməti heyətinin, ev təsərrüfatının saxlanılması və cari təmir xərcləri düzgün hesablanılmayıb, mənzil fondunun zərərinin ödənilməsi üçün dövlət büdcəsi layihəsinə mənzil fonduna aid olmayan xərclər daxil edilib. "Dövlət büdcəsindən maliyyələşən sahələrdə xərclərin proqnozlaşdırılması və maliyyə ehtiyatlarından istifadənin müvafiq məsrəf normaları vasitəsilə tənzimlənməsi məqsədilə bazar iqtisadiyyatının tələblərinə uyğun hazırlanmış şəhər, rayon mərkəzlərində, qəsəbələrdə küçələrin süpürülməsi, işıqlandırılması, yaşıllıq sahəsinə qulluq edilməsi xərclərinin Müvəqqəti Normaları" əsasında hesablanılmalı və təsdiqlənməli olan xərclərin proqnozlaşdırılması zamanı göstərilən normanın tələblərinə əməl olunmayıb", - deyə məlumatda qeyd olunub.

Palatanın yoxlamaları zamanı aşkar olunub ki, balansda olan liftlərin 20,5 faizini 5 ilə qədər olan yeni quraşdırılan liftlər təşkil etdiyi halda ev təsərrüfatının saxlanılması xərcində lift təsərrüfatının saxlanılması xərcinin xüsusi çəkisi əvvəlki ilə nisbətən cəmi 0,4 faiz azalıb. Bundan əlavə, liftdən istifadə edən əhalinin sayının az göstərilməsi, liftlərə xidmət göstərən bəzi təşkilatlar tərəfindən baş idarənin təsdiq etdiyi ştat cədvəlində göstərilən vəzifələrdən əlavə 8,0 vahid artıq və lüzumsuz ştat saxlanılması nəticəsində idarəetmə xərcləri üzrə faktiki xərcdən artıq maliyyələşmə aparılaraq mənzil fondunun lift təsərrüfatı üzrə zərəri artırılıb.

Bəzi hallarda büdcə qanunvericiliyinə riayət olunmayaraq dövlət büdcəsinin "Abadlaşdırma xidmətləri haqqının ödənilməsi" paraqrafı üzrə ayrılmış vəsaitdən "Mənzil və kommunal təsərrüfatı" bölməsinə aid olmayan *(təyinatdan kənar məqsədə)* vəsait yönəldilib. Yoxlamalar zamanı dövlət əsaslı vəsait qoyuluşu və ehtiyat fondlarından ayrılmış vəsaitin istifadəsi üzrə bir sıra obyektin müqavilə qiyməti müvafiq qaydada hesablanmadan, oxşar obyektlər üzrə analoji əmsallar tətbiq olunmaqla müəyyən edilib, işlərin istismara verilməsi barədə aktlar tərtib edilmədiyi və yeni yaranmış dəyər aidiyyəti təşkilatlar tərəfindən müvafiq qaydada uçota alınmadığı aşkar edilib. Bəzi hallarda tikinti norma və qaydalarının tələblərinə riayət edilməməsi nəticəsində smeta sənədlərinə və qəbul aktlarına əsassız və eləcə də tikinti texnologiyasına görə yerinə yetirilməsi mümkün olmayan işlər daxil edilib, layihələrin yerinə yetirilməsi zamanı vaxtın azlığı əsas götürülərək işlər əsasən birbaşa müqavilələrin bağlanılması üçün icazə alınması ilə icra edilib.

Hesablama Palatasının Kollegiyası Bakı Şəhər İcra Hakimiyyətinin Mənzil Kommunal Təsərrüfatı Departamenti tərəfindən yol verilmiş nöqsanların aşkar edildiyi dövründə aradan qaldırıldığını nəzərə almaqla, müəyyən edilmiş digər nöqsan və çatışmazlıqların qısa müddətdə aradan qaldırılması, həmçinin nöqsanlara yol vermiş vəzifəli şəxslərin qanunvericilikdə nəzərdə tutulmuş qaydada məsuliyyətə cəlb edilməsi barədə qərar qəbul edib, icra olunması və həyata keçirilmiş tədbirlər barədə Hesablama Palatasına məlumat verilməsi məqsədilə qərarın surəti Bakı Şəhər İcra Hakimiyyətinə, həmçinin müvafiq təqdimat Mənzil Kommunal Təsərrüfatı Departamentinə göndərilib. Eyni zamanda mənzil fondu xərclərinin əsassız artırılması səbəbindən təsərrüfat fəaliyyəti üzrə artıq maliyyələşmə aparılmış məbləğin 2016-cı ildə dövlət büdcəsinin yerli xərclərindən mənzil fondunun zərərinin ödənilməsi üçün nəzərdə tutulmuş vəsaitdən azaldılması hesabına bərpası üçün Bakı şəhər Baş Maliyyə İdarəsinə müvafiq məlumat təqdim olunub.




Audit tədbiri Bakı şəhərinin 12 inzibati rayonu üzrə MKTB, 3 xüsusi təyinatlı MKTB-ni və Departamentin strukturuna daxil olan 14 qurumu əhatə edib. Ötən ildə dövlət büdcəsindən Departamentə ayrılmış vəsaitlər "Mənzil və kommunal təsərrüfatı" bölməsi üzrə 80,6 faiz, əsaslı vəsait qoyuluşu üzrə 83,6 faiz, ehtiyat fondu üzrə 77,5 faiz səviyyəsində icra olunub. Auditin nəticələri ilə bağlı Milli Məclisə məlumat verilib.

**Qeyd edək ki, artıq Hesablama Palatasının bir neçə qurumda nöqsan, yeyinti aşkarlaması ilə bağlı məlumatlar var. Ekspertlər bildirirlər ki, büdcənin doldurulma cəhdləri bu cür yoxlamaların sayını artıracaq. Ekspert Elşad Məmmədov məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, qurumlarda yoxlamalar mütəmadi şəkildə aparılmalıdır:** "Hesablama Palatasının başlıca funksiyalarına dövlət qurumlarının maliyyə-təsərrüfat fəaliyyətinə, büdcə vəsaitlərinin səmərəli xərclənməsinə nəzarət aiddir. Bu baxımdan, həmin yoxlamalar dövlət qurumlarında mütəmadi şəkildə aparılmalıdır. Bununla belə, son zamanlarda bu prosesin intensivləşməsi, fikrimcə, bir tərəfdən büdcənin mədaxil hissəsinin icrasındakı problemlərlə izah oluna bilər. Digər tərəfdən, əvvəllər də qeyd etdiyim kimi, iri dövlət qurumlarının, ilk növbədə təbii inhisar subyektlərinin maliyyə-təsərrüfat fəaliyyətindəki, menecmentindəki problemlər kritik həddə çatıb. Həmin qurumların həm xarici borclarının artması, həm büdcə qarşısında öhdəliklərinin və digər ölkədaxili borclarının adekvat səviyyədə olmaması, onların investisiya siyasətindəki, xərclər portfelindəki problemlərin artmasından xəbər verir. Bu baxımdan, Hesablama Palatası tərəfindən yoxlamaların həmin yoxlamaların effektiv iqtisadi və təşkilati nəticələrlə yekunlaşacağı halda intensivləşməsi məqsədəuyğun hesab olunmalıdır. Ancaq bununla belə, fikrimcə, ilk növbədə həmin dövlət qurumlarının idarəetmə prinsipləri, hüquqi statusu dəyişdirilməli, onların bazar iqtisadiyyatı şəraitində bazarda həm hakim, həm də inhisarçı-iştirakçı statusu ləğv edilməlidir. Yalnız bu halda iri dövlət qurumlarının maliyyə-təsərrüfat fəaliyyətindəki, eləcə də, ümumiyyətlə, ölkədə dövlət sahibkarlığı ilə bağlı mövcud olan kompleksli problemlərin həllində ciddi irəliləyişin olacağından danışmaq mümkün olacaq".

**Ekspert Natiq Cəfərli isə qeyd edib ki, əslində son illərdə ilk dəfədir belə hal, ciddi nöqsan üzə çıxır:** "Hesablama Palatası "Meliorasiya və Su Təsərrüfatı" ASC və "Azərbaycan Hava Yolları" QSC, AZAL-la bağlı da pozuntular aşkarlayıb. Prosedur olaraq bu hallarda ilk olaraq hüquq-mühafizə orqanları bununla bağlı cinayət işi başlamalıdır. Ayrıca bir araşdırma aparılmalıdır. Amma görünən odur ki, hüquq-mühafizə orqanları hələ belə addım atmayıb. Artıq büdcədə yaranmış kəsirə görə büdcə vəsaitinə nəzarət edilməsi ehtimalı yüksəkdir. Gələcəkdə digər qurumlarla bağlı da belə pozuntular aşkarlana bilər. Büdcədən ayrılan, xərclənən hər manatın yoxlanması aktuallaşıb. Digərlərinə dərs olsun deyə, böyük cinayət işi başlanıla bilər, bəzi məmurlar ciddi şəkildə cəzalandırıla bilər. Büdcənin vəziyyəti pisdir, buna görə ciddi şəkildə xərclənmələr yoxlanılır".

❑ **Röya RƏFİYEVA**



# Namus üstündə polisi öldürən şəxs məhkəmə qarşısında

## "Keçmiş arvadımla onun şəklini çəkmişəm"

**Bakıda namus üstündə polis əməkdaşını öldürən şəxs məhkəmədə ilginc açıqlamalar verib. O, keçmiş həyat yoldaşının evinə gələn şəxsi baş nahiyəsindən güllələyərək qətlə yetirib. Məhkəmənin sonunda tərəflər arasında gərginlik yaşanıb.**

Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim qarşısına çıxarılan 1977-ci il təvəllüdlü İsgəndər Bayraməli oğlu Bəbirov törətdiyi əməli etiraf edib. O, qətlə yetirdiyi şəxsə əməlindən çəkinməsi üçün xəbərdarlıq etdiyini də deyib.

Qeyd edək ki, hadisə ötən ilin noyabr ayında Xəzər rayonu Qala qəsəbəsində baş verib. İsgəndər Bəbirov keçmiş həyat yoldaşının evinə gələrək, Dəmiryolu Nəqliyyatında Polis İdarəsinin əməkdaşı, 1975-ci il təvəllüdlü Malik Musa oğlu Muradovu güllələyərək qətlə yetirib. O, ov tüfəngi ilə həyətə girərək bir neçə dəfə atəş açıb. Güllələrdən biri M.Muradovun baş nahiyəsinə dəyib. M.Muradov aldığı güllə yarasından hadisə yerində keçinib.

İ.Bəbirov eyni vaxtda həyətdə fəhlə işləyən Nicat Şəbiyevi də bıçaqlayaraq hadisə yerindən qaçmışdı. N.Şəbiyevin həmin mənzildə fəhlə işlədiyi bildirilir.

Avqustun 2-də hakim Mirzə Xankişiyevin sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxs İsgəndər Bəbirov ifadə verərkən günahını etiraf edib. Özünü təqsirli bilən İ.Bəbirov bildirib ki, hadisədən əvvəl keçmiş həyat yoldaşı ilə qətlə yetirilən Malik Muradovu bağ evində bir yerdə görüb. Həmin vaxt telefonla foto və videoçəkiliş etdiyini deyən İ.Bəbirov hadisəni qısqanclıq zəminində törətdiyini deyib: "Malikə neçə dəfə xəbərdarlıq etmişdim. Ancaq o, məni hədələyirdi. Polis olduğunu, məni cəzalandıracağını deyirdi. 4-5 nəfərlə birgə mənə hücum da ediblər. Mən də bundan sonra onu güllələdim. Onların fotosunu da çəkmişdim".

Məhkəmənin növbəti iclası avqustun 9-na təyin edilib. Prosesin sonunda təqsirləndirilən şəxslə mərhumun yaxınları arasında gərginlik yaşanıb. M.Muradovun anası və yaxınları İ.Bəbirovun yalan danışdığını və video, fotoçəkilişlərin olmadığını deyiblər.

Xatırladaq ki, hadisə baş verən gün İ.Bəbirovun yaxınları mətbuata açıqlamalarında demişdilər ki, onun keçmiş həyat yoldaşı qətlə yetirilən polis əməkdaşı ilə öz istəyi ilə münasibətdə olub. Lakin İ.Bəbirov onların bu münasibətini qəbul etməyib.

❑ **İ.MURADOV**
**Musavat.com**

YENİ MÜSAVAT
N 168 (6489) 3 avqust 2016

# Vergilər Nazirliyi ilə şou-biznes nümayəndələri arasında qalmaqal səngimir

**Vergilər Nazirliyi ilə şou-biznes nümayəndələri arasında gedən vergi qalmaqalı səngimək bilmir. Müğənnilərin bəziləri vergi əməkdaşları tərəfindən barələrində heç bir əsası olmadan, haqq-hesab çəkilmədən, qərəzli şəkildə vergi ödənişləri qeydə almasından, daha böyük əksəriyyəti isə dost-tanış toyunda, məclisində pulsuz oxumaqlarına baxmayaraq vergiyə cəlb olunmaqlarından şikayətlənirlər.**

Məsələn, bugünlərdə əməkdar artist Abbas Bağırov hansısa nazirlik əməkdaşının toy məclisində iştirak etmədiyi üçün onun barəsində haqsız olaraq 30 min borc qeydə aldığını bildirmişdi. Əməkdar artist Nüşabə Ələsgərli isə "Yeni Müsavat"a müsahibəsində yaxın rəfiqəsinin oğlunun toyunda qonaq kimi iştirak edərkən hədiyyə kimi məclisdə ifa edib, üstəlik, pul da yazdırmasına baxmayaraq, nazirliyin əməkdaşı tərəfindən vergiyə cəlb olunduğunu bildirmişdi.

Bu cür halla rastlaşan müğənnilərdən biri də Əli Mirəliyevdir. Müğənni az-news.az-a açıqlamasında qeyd edib ki, bugünlərdə qonaq kimi getdiyi toy məclisində toy sahibinin xahişi ilə bir mahnı oxuyub və ifadan dərhal sonra Vergilər Nazirliyinin əməkdaşı ona vergiyə cəlb olunduğu barədə məlumat verib. Əli Mirəliyev "Vergilər Nazirliyi yalnız saray müğənnilərindən, yəni məmur toylarında oxuyanlardan vergi almalıdır, xalqın sənətkarından vergi tutulmaz" deyə öz iradını da bildirib.

**Mövzu ilə əlaqədar bir neçə müğənninin də mövqeyini öyrənməyə çalışdıq. Xalq artisti Könül Kərimova məsələdə müğənnilərin haqlı olduğunu vurğuladı:** "Mənim Vergilər Nazirliyi ilə heç bir problemim yoxdur. Amma hər halda, müğənnilər haqlıdır... Məni o siyahıya salmayıblar, çalışıram ki, belə bir problemlə rastlaşmayım. Həm də axır vaxtlar toylara az gedirəm, gedəndə də yarım saat iştirak edib, qayıdıram. Bu barədə çox danışmaq olar. Guya nə yerində düzdür ki, bu da düz olsun? Sadəcə, bunlar boş-boş şeylərdir. Elə bil ki, hər şey bitəndə düşürlər müğənnilərin üstünə, vəssalam, başqa heç bir şey!"



**Könül Kərimova:** "Elə bil ki, hər şey bitəndə düşürlər müğənnilərin üstünə!"



Baloğlan Əşrəfov: "Nazirliyin mənimlə işi yoxdur"

**Əməkdar artist Baloğlan Əşrəfov da bu günədək nazirliklə heç bir problem yaşamadığını dedi:** "İndiki sənətkarlar hələ indi vergiyə cəlb olunanda mən sovet hökumətinin vaxtında bu prosesi yaşayırdım və bilirdim ki, belə bir şey var və ona görə həmişə necə lazımdırsa qanuni şəkildə öz vergilərimi ödəyirəm. İndiki dövrdə toyların sayı da çox deyil. Amma yenə də çalışıram ki, borclu qalmayım. Vergilər Nazirliyinin mənimlə işi yoxdur. Əgər nəsə bir xəbərdarlıq olarsa, onda mən də maraqlanaram ki, bu hardandır".

Müğənni Manaf Ağayev də "Yeni Müsavat"a açıqlamasında bu günədək nazirliklə heç bir problem yaşamadığını bildirdi. Maraqlıdır, doğrudanmı müğənni toy məclisində iştirak etmədiyi halda ona vergi yazıla bilər? Nazirlik müğənnilərin iştirak etdiyi məclislərdəki iştirakının statistikasını necə tənzimləyir?

**Vergilər Nazirliyinin mətbuat xidmətinin əməkdaşı Şahin Məmmədov bəzi suallara aydınlıq gətirib. Nazirliyin əməkdaşı "Yeni Müsavat"a açıqlamasında müğənnilərin vergi öhdəliyinin məhz iştirak etdiyi tədbirlərə görə hesablandığını vurğulayıb:** "Burada əsas problem ondadır ki, bizim müğənnilər məclislərdə iştirak edir, lakin qeydiyyat kitabında qeyd aparıb bunu göstərmək istəmirlər. Vergilər Nazirliyinin iyun ayında apardığı monitorinqlər zamanı müxtəlif məclislərdə iştirak edən müğənnilərin öz çıxışlarının 40 faizindən çoxunu qeydiyyat kitablarında qeydə almadıqları müşahidə edilib. Məlumat üçün bildirim ki, şadlıq evlərində müğənnilərin hansı vaxtda və nə zaman iştirak etməsi bizim məlumat bazasında toplanır və həmin müğənni bəyannaməsini təqdim edərkən bu məlumatlar tutuşdurulur və dəqiqləşdirilir. Vergi öhdəliyinin müəyyən edilməsi konkret sübutlara əsaslanır və vergi xidməti əməkdaşı özündən kiməsə vergi hesablaya bilməz. Belə əsassız fikri yalnız vergi sistemi ilə tanış olmayan şəxslər söyləyə bilərlər".

Qeyd edək ki, Vergilər Nazirliyi müğənnilərin məclislərdəki iştiraklarının statistikasını müəyyənləşdirmək üçün Bakı və digər böyük şəhər və rayonlardakı şadlıq evlərinə xüsusi kameralar quraşdırıb. Hər gün şadlıq saraylarını monitorinqdə saxlayan nazirlik bununla həmin saraylardakı müğənninin kimliyini və rübdə neçə dəfə toyda iştirak etdiyini müəyyən edə bilir. Müğənnilərin oxuduğu toyların qiymətini isə nazirlik təxminən həmin sənətçinin əldə etdiyi gəlirə əsasən müəyyən edir. Öz ailə üzvlərinin, qohumlarının və dostlarının məclisində pulsuz çıxışlar etməyinə baxmayaraq, sənətçilər verginin statistikasına daxil olurlar.

Xatırladaq ki, iki ay öncə Vergilər Nazirliyi vergi borcu olan şou-biznes nümayəndələrinin siyahısını rəsmi saytında açıqlamışdı. "Qara siyahı"da xalq artisti Brilliant Dadaşova, Gülyanaq Məmmədova, əməkdar artist Elza Seyidcahan, Mətanət İskəndərli, Abbas Bağırov və digər tanınmış 50 müğənninin adı yer almışdı.

❑ **Xalidə GƏRAY**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarn dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**


## Elan

**Qəbələ rayonunun Vəndam kəndində gözəl bir meyvə bağı satılır. 60 sot sahəsi var, 86 ağac, qoz, şabalıd, qızıl əhmədi alması, fındıq, hamısı bar verir. Bağ dağ ətəyindədir, kvadratdır, qazı, işığı, suyu var. Çox gözəl bağdır. Xeyir iş səbəbindən çox münasib qiymətə satılır.**
**Əlaqə telefonu: (070) 335-90-15.**


## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34




## Ölkədə bir gündə 3 nəfəri elektrik vurdu

**Ötən gün Azərbaycanda 3 nəfər elektrik cərəyanının qurbanı olub. Modern.az Daxili İşlər Nazirliyinin mətbuat xidmətinə istinadən xəbər verir ki, faciəli hadisələr Şirvan şəhərində, Sabirabad rayonunda və Neftçalada qeydə alınıb.**

Şirvan şəhərində yaşayan Mədinə Kərimova, Sabirabad sakini Güllü Baxışova və Neftçala rayonunda yaşayan Teymur Abışov elektrik cərəyanı vurması nəticəsində ölüblər. Araşdırma aparılır.

YENİ MÜSAVAT
N 168 (6489) 3 avqust 2016

**Yay fəslində əksəriyyət Azərbaycanın müxtəlif bölgələrinə, xaricə istirahətə gedir. Təbii ki, istirahətə gedə bilmək üçün gərək cibiniz dolu olsun. Müəyyən bir qisim də var ki, onlar elə yay istirahətini də paytaxtda keçirməli olur. Bu zaman uşaqlarını əyləndirmək üçün yeganə məkan uşaq əyləncə mərkəzləri və parklar olur. Ancaq burada da hər dəqiqəniz pula hesablanır.**

# Uşaqları güldürən, böyükləri "ağladan" əyləncə mərkəzləri

## Natiq Cəfərli: "Bu, hər hansı bir dövlət orqanının müdaxiləsi ilə həll olunacaq məsələ deyil, rəqabət mühiti olmalıdır..."









Bu cür əyləncə mərkəzlərini "uşaq soyğunçuluq mərkəzləri" adlandırmaq da olar. Qiymətlərlə daha yaxından tanış olmaq üçün bir neçə uşaq əyləncə mərkəzlərinə və parklara baş çəkdik. Əyləncə mərkəzləri uşaqları güldürsə də valideynləri "ağladırdı". Gördüyümüz mənzərələr ürəkağrıdıcı idi. Belə ki, pulu bitən valideyn uşağının digər attraksiona minməsinə mane olmağa çalışır, uşaq isə göz yaşı tökür. Bu vəziyyətdə o valideynin üzündəki çarəsiz, üzgün ifadə, attraksion sahibinin isə uşağın göz yaşı hesabına pul qazanacaq deyə parlayan gözləri təsirli bir mənzərə yaradırdı.

İlk baş çəkdiyimiz məkan bulvar ərazisi oldu. Burada karusellərin qiyməti 3 dəqiqəsi 1 manatdan başlayır. Belə ki, "Günəş" adlandırılan karusel 3 dəqiqəsi 1 manat, viking 3 dəqiqəsi 2 manat, qorxulu ev 5 manat, topların içərisində oynamaq 5 dəqiqəsi 1 manat, uşaqlar üçün tullanmaq attraksionun 5 dəqiqəsi 4 manat idi. Uşaqlarını bulvara gətirən valideynlər bəzi attraksionların qiymətinin baha olmasından gileylənirdi. **Ayşən Quliyeva deyir ki, iki uşağı iki attraksiona mindirəndə artıq 5 manat getmiş olur:** "Bəzi attraksionlar 2 manatdır. Hələ burada satılan tum, dondurma, partlamış qarğıdalı və suların qiymətini demirəm. Onları evin yanındakı mağazadan ucuz alıb hazırlıqlı gəlirik".

Təbii ki, uşaq əyləncə mərkəzləri ilə müqayisədə buradakı qiymətləri nisbətən ucuz adlandırmaq olardı. Əyləncə mərkəzlərində əsasən kart sistemidir. Kartına 20 manat vurursan, amma heç 20 dəqiqə əylənə bilmirsən. Attraksion və əyləncəli oyunların dəqiqəsini və pulunu hesabladıqda bir uşağın normal 1-2 saat əylənməsi üçün gərək 100 manatınızdan keçəsiniz. Bulvardan sonra yolumuzu "Megafun" əyləncə mərkəzindən saldıq. Burada həm nağd ödənişlə, həm də kartla olan oyunlar vardı. Həftə sonu olmasına baxmayaraq burada da əvvəlki kimi çoxluq gözə dəymirdi. Ancaq içəri girər-girməz səs-küy insanın burada bir saatdan artıq qalmasına imkan vermir. Adı əyləncə mərkəzi olsa da, burada insanlara "səs terroru" edilir. İçəri doğru irəlilədikcə, səsi bir-birinə qarışan əcnəbi dillərdəki mahnılardan qulaq tutulur. Burada uşaq üçün olan oyunların qiyməti 50 qəpik və 6 manat arasında dəyişir. Amma böyüklərin əylənməsi üçün qiymətlər olduqca baha idi. Məsələn, karaokedə sizin ürəyinizdən özünüzü bir anlıq müğənni hesab edib mahnı oxumaq keçirsə, bunun 30 dəqiqəsinə 10 manat ödəməlisiniz. Boulinq oynamaq isə 6 manatdır. Burada 25 manatlıq kart da alıb əylənə bilərsiniz. Ancaq bir kartdan iki uşaq istifadə edəcəksə, biri əylənən zamanı digəri durub baxmalı, onun əyləncəsinin bitməsini gözləməlidir. İki uşağın bir kartdan istifadə edib eyni anda bir attraksiona minmək haqqı yoxdur. Burada buz üzərində sürüşmək, qorxulu tunel kimi əyləncə növləri də var ki, onların da qiyməti bahadır. Burada satılan suların, qarğıdalının qiymətləri də bahadır. Uşağınız üçün bu qidaları almaq istəyirsinizsə, özünüzlə əlavə 15-20 manat pul götürməlisiniz. Buradakı kafelərin hər birində 5-6 nəfər gözə dəyirdi. Az adam olmasının səbəbi isə əlbəttə ki, yenə də bahalıq idi. "Megafun"da çay içmək istəsəniz, bu, sizə 20 manata, meyvə şirəsi içmək 5-10 manata, dondurma yemək 10 manata, sandiviç 5-10 manata, pizza 10-16 manata başa gələcək.

"Megafun"dan ayrılıb yolumuzu nisbətən ucuz olacağını düşündüyümüz "Metropark"dan saldıq. Buradakı attraksionlardan, oyunlardan istifadə edə bilmək üçünsə kart almaq vacibdir. Burada 3 manat verib kart almalı, sonra isə ona istədiyiniz məbləğdə balans yükləməlisiniz. Buradakı attraksionlar əsasən kiçik yaşlı uşaqlar üçün nəzərdə tutulub, 3 dəqiqə əylənmək 1-3 manat arasında başa gəlir.

**Uşağını "Metropark"a əyləndirməyə gətirən Anar Əliyev deyir ki, karta 50 manat yükləsə də uşaqlar əylənməkdən doymur:** "Oyunların, attraksionların müddətini az edirlər. 3 dəqiqəyə uşaq ancaq anlaya bilər ki, nəsə fərqli bir şeyə minib. Həm də axı uşaq 3 dəqiqə ilə kifayətlənmir. Bir attraksionda heç olmasa 10 dəqiqə qalmaq istəyir. Ona görə də 50 manat balans yüklədim, o da artıq yekunlaşmaq üzrədir. Heç olmasa insafa gəlib bu dəqiqələri 5 dəqiqə etsinlər. Hər yerdə belədir. Axı bu düzgün deyil. Uşaqlardan istifadə edib bizi soyurlar".

Apardığımız müşahidə Azərbaycanda orta gəlirli bir ailənin gəlirinin 1 uşağı hər gün bir saat normal əyləndirməyə imkan vermədiyini deməyə əsas verir. İşləməyən analara verilən aylıq uşaq pulu isə nəinki onların əyləncəsinə, heç geyiminə belə yetmir. Maraqlıdır, uşaqların əylənməsi üçün qiymətlər əslində necə tənzimlənməlidir?

**İqtisadçı ekspert Natiq Cəfərli rəqabət mühiti olmadığı üçün qiymətlərin bu cür baha olduğunu dedi:** "Qiymətlərin tənzimlənməsi nə dövlət, nə hökumət, nə də Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən həyata keçirilməməlidir. Normalda rəqabətli mühit olmalıdır. Məsələn, elə bulvar ərazisində bir nəfərə və yaxud da bir şirkətə məxsus əyləncə mərkəzləri olmaqdansa, bir neçə rəqabətli əyləncə mərkəzləri olsaydı, o zaman qiymət siyasəti həyata keçirilərdi. Yaxud da şəhərdə barmaqla sayılacaq qədər uşaq əyləncə mərkəzləri var. Normal şərait olsaydı və böyük biznesmenlər, xarici investorlar maraq göstərib bir neçə uşaq əyləncə mərkəzləri açsaydı, o zaman qiymətin tənzimlənməsi mümkün olardı. Əslində bu məsələ qanunla, hər hansısa bir dövlət orqanının müdaxiləsi ilə həll olunacaq bir məsələ deyil. Sadəcə olaraq, Azərbaycanda orta gəlirlilik - təqaüdlərin, maaşların, uşaqlara verilən müavinətlərin miqdarı o qədər aşağıdır ki, bu, normal yaşamağa çatmır. Söhbət tək əyləncədən getmir; uşaq yeməklərinin, geyimlərinin də qiyməti çox bahadır. Amma sırf əyləncədən və əyləncə mərkəzlərindən söhbət gedirsə, bunun yolu hər hansısa bir müdaxilə deyil. Əgər biz bazar iqtisadiyyatının qaydalarına uyğun iqtisadi model qurmaq istəyiriksə, burada müdaxilə olması mümkün deyil. Sadəcə olaraq, rəqabətli mühit artmalıdır. İnsanların daha çox seçim imkanı olmalıdır ki, qiymətlərə də tez təsir göstərsin və qiymətlər aşağı düşsün. Dövlətin əlində ola bilən vasitə ondan ibarətdir ki, insanların yaşayış səviyyəsini yüksəltsin, maaşları, təqaüdləri artırmağın yollarını tapsın ki, insanlar da əldə etdikləri vəsaitlə həm uşaqlarına baxa bilsinlər, həm də onları əyləndirməyə imkanları olsun".

❑ **Günel MANAFLI**



## Bakıda hündürmərtəbəli binaların seysmik davamlılığı yoxlanılacaq

**Bakıda hündürmərtəbəli binaların seysmik davamlılığı yoxlanılacaq. APA-nın xəbərinə görə, Respublika Seysmoloji Xidmət Mərkəzinin direktoru Qurban Yetirmişli dünən keçirdiyi mətbuat konfransında deyib ki, bu proses layihə çərçivəsində Almaniyanın geoloji təşkilatı ilə birgə aparılacaq və 2 il davam edəcək.**

Onun sözlərinə görə, bununla bağlı yekun danışıqlar sentyabrın 19-21-də Almaniyada olacaq və bundan sonra prosesə nə vaxtdan başlanılacağına qərar veriləcək. Q. Yetirmişli əlavə edib ki, Respublika Seysmoloji Xidmət Mərkəzi tərəfindən Bakıda tikilən bütün yeni hündürmərtəbəli binalara, eləcə də digər sənaye əhəmiyyətli tikintilərə əvvəlcədən ərazinin seysmikliyi barədə rəy verilir: "Bundan sonra Fövqəladə Hallar Nazirliyi tikintiyə ciddi nəzarət edir. Ümumiyyətlə isə binalar 9 ballıq zəlzələyə hesablanaraq tikilir".

YENİ MÜSAVAT

Son səhifə

N 168 (6489) 3 avqust 2016



## Dərman içdi, “kişiyə” çevrildi

Daha gözəl bədən quruluşuna sahib olmaq üçün idmanla məşğul olan qadın... “kişiyə” çevrilib. Londonda yaşayan 28 yaşlı qadın əzələlərinin inkişaf etməsi üçün dərman qəbul etməyə başlayıb. Bir neçə ay sonra isə onun bədəni kişilərdən fərqlənməyib. Belə ki, əzələləri və xarici görünüşü kobudlaşıb. Sinəsi və qol əzələləri böyüyən qadının saçları da tökülüb. Üzündən və bədənindən tük çıxıb. O, dərmanı içməkdən vaz keçsə də əvvəlki vəziyyətinə qayıda bilməyib. Candice Armstrong adlı qadının həyatı sənədli filmə çevrilib və bir çox televiziya kanallarında yayımlanmağa başlayıb.



## Bu şalvarı geyinənlər sellülitdən qurtulur

Bədən temperaturunu normal saxlayaraq, qanın hərəkətini sürətləndirən şalvarlar qadınların ən yaxın dostu olacaq. Çünki braziliyalı modelyer Aleksandra Herçkoviç tərəfində hazırlanan şalvar qadınların bədənini sellülitdən xilas edir. Rio de Janerodakı moda həftəsində ictimaiyyətə tanıdılan cins şalvar sahibinin bədən temperaturunu normal saxladığı üçün orqanizmi bir çox problemlərdən uzaq tutacaq. Qəribə şalvar 5 illik araşdırmalardan sonra hazırlanıb. Şalvarın satışa çıxarıldıqdan sonra rekord sayda satılacağı gözlənilir.

# Pişiklər sahiblərini tanıyırlar

**Tokio Universitetinin professorlarının uzun müddət davam edən araşdırmaları nəticəsində məlum olub ki, pişiklər sahiblərinin səsini tanıyırlar, lakin onları eşitmək istəmirlər. Araşdırma zamanı əvvəlcə pişikləri tanımayan 3 nəfər onları adları ilə çağırıb. Pişiklər tanımadıqları səslərə heç bir reaksiya verməyiblər. Sonra isə sahibləri onlara səslənib. Pişiklər sahiblərinin səslərini eşitdikləri zaman başları, qulaqları, ayaqları, quyruqları və gözləri tərpənib.**



Maraqlıdır ki, pişiklər sahiblərinin səslərini tanısalar da, yerlərindən qalxmaq istəmədikləri zaman onları eşitməmiş kimi hərəkət edirlər. Mütəxəssislər itlərlə pişiklərin sahiblərinə qarşı fərqli münasibət bəslədiklərini deyirlər. Bunun səbəbi isə itlərin qədim zamanlardan bəri insanların dostu olması, pişiklərin isə yalnız siçan tutmaq məqsədi ilə saxlanılmasıdır.

# Birdən artıq dildə danışırsansa.... bu xəstəlik səndən qaçacaq

**Son aradırmalardan məlum olub ki, birdən artıq dildə danışmaq bir sıra beyin xəstəlikləri riskini azaldır.**

Hindistanda aparılan tədqiqatda 240-ı alzaymer xəstəsi olmaqla, 66 yaşlı 650 nəfər iştirak edib. İştirakçılardan 391 nəfəri 2 və ya daha artıq dildə danışan insanlar olub.

Alimlər müəyyən ediblər ki, bu insanlarda alzaymer xəstəliyi 1 dildə danışanlarla müqayisədə daha gec, 4.5 il sonra başlayır. Təhsil səviyyəsinin araşdırmaların nəticələrinə təsiri olmayıb.

Tədqiqatın həmmüəllifi Tomas Bakın dediyinə görə, müxtəlif dillərdə danışan insanların beyinləri sözlər və ifadələr arasında seçim etməyə məcbur olur. O, beynin konsentrasiyasının beyin xəstəliklərinə meyilliyi azaltdığını bildirir.

Alimlər müəyyən edib ki, 2-dən artıq dildə danışmağın müsbət nəticəsi olmayıb.

Araşdırmalar həm də hallusinasiya ilə müşayiət edilən Levi demensiya proqressiv beyin xəstəliyinin başlama prosesini gecikdirmədiyini göstərib.

Tomas Bakın dediyinə görə, dillərin hansı yaşda öyrənildiyi əhəmiyyət kəsb etmir. O bildirir ki, dil öyrənilməsinin yaşdan asılı olmayaraq faydası böyükdür. İkidilliliyin demensiyaları gecikdirməsi hətta savadsız insanlarda da müşahidə edilib.






## Kredit borcun artırsa, facebookdan qurtul

**Kolumbiya Biznes Məktəbi və Pitsburq Universitetinin ortaq araşdırmasına görə, sosial şəbəkədən istifadənin artımı istifadəçilərin bədən kütlə indeksini pozur və kredit kartı borclarını artırır. İstehlakçı davranışları üzrə mütəxəssisləşən “Consumer Research” jurnalının son buraxılışında yer alan araşdırmada göstərilib ki, facebookdakı yoldaşlarını tez-tez təqib edən istifadəçilərin ani olaraq özünə inamı artır. Bu artım istifadəçinin özünə nəzarətini azaldır və sosial şəbəkədə daha çox vaxt keçirdiyi üçün bədən kütlə indeksi və kredit kartı borcları artır.**

Bədən kütlə indeksinin pozulmasına səbəb isə sosial şəbəkəyə aludə olan şəxsin qidalanmasına lazımi qədər önəm verməməsidir. Amma sosial şəbəkədən asılılıq ciddi xəstəlik sayılır və insanı bu asılılıqdan qurtarmaq siqaret, narkotik kimi digər zərərli vərdişlərdən xilas etmək qədər çətindir.




**QOÇ** - Yalnız sağlıq durumunuza diqqət ayırmalısınız. Yaxşı bilirsiniz ki, hirsli başda ağıl olmur. İndiki həssas məqamda isə ağılsızlıq heç kimə xeyir gətirmir. Qidanıza da fikir verin.

**BUĞA** - Hansısa gərginliyi gözləməyə dəyməz. Ən azından bu gün ağıllı və təmkinli olmağınız bütün prosesləri xeyrinizə döndərəcək. Ən böyük uğurlarınız fəaliyyət zəminində mümkündür.

**ƏKİZLƏR** - Ümumi süstlüyünüzü nəzərə alıb qızğın fəaliyyətə ara verin. Bunun əvəzində ailə üzvlərinizlə, sizə yaxın olan insanlarla birgə olmaq, köhnə qayğılardan bir qədər uzaqlaşmaq məsləhətdir.

**XƏRÇƏNG** - Əgər hər hansı mübahisəyə yol verməsəniz, qərəzli çıxışlar etməsəniz, ulduzlar sizi sevindirəcək. Hətta şəxsi büdcənizdə müəyyən artımlar da mümkündür. Riskli dəvətlərdən yayının.

**ŞİR** - Hiss olunur ki, gərgin bir ərəfə yaşamaqdasınız və bu, daxili gərginliyinizi artırıb. Odur ki, gün ərzində daha çox istirahətə yer ayırın. Ulduzlar sizə maddi dəstək verəcək.

**QIZ** - Təcrübəniz olmayan, başınız çıxmayan məsələlərə münasibət bildirməyin. Bu, sizi gözdən sala bilər. Yaxşı olar ki, əsas diqqətinizi son vaxtlar güclənən ağrılarınıza yönəldəsiniz.

**TƏRƏZİ** - Ünsiyyətdə olduğunuz hər kəsi ciddi şəkildə dinləyin, onların problemlərinə laqeyd qalmayın. Elə davranın ki, sizə etibar edən şəxslərin gözündən düşməyəsiniz. Uzaq səfərləri təxirə salın.

**ƏQRƏB** - Maraqlı sövdələşmələrdə iştirakınız gözlənilir. Hətta ola bilər ki, bu amil növbəti bir neçə ayın uğurlarını da artırsın. Amma bütün işgüzar görüşləri günün ikinci yarısına salmalısınız.

**OXATAN** - Münasibətlər zəminində yaranmış gərginliyi aradan qaldırmaq istəyirsinizsə, bu sətirləri oxuduğunuz andan hərəkətə keçin. Sonra gecikə bilərsiniz. Sevgiyə xüsusi həssaslıq göstərin.

**OĞLAQ** - Maliyyə uğurlarını nəzərə almasaq, ixtiyarınızda olan bu təqvimdən o qədər də razı qalmayacaqsınız. Buna baxmayaraq, saat 14-17 arası yeni işlərin müzakirəsinə başlamaq olar.

**SUTÖKƏN** - İkitərəfli əməkdaşlıq zəminində uğurlarınız labüddür. Amma gərək daxili sabitliyinizi qoruyasınız ki, nəticə uğurlu olsun. Günün ikinci yarısında digər yeniliklər də olacaq.

**BALIQLAR** - Kənar məsləhətlərə ciddi şəkildə aludə olmayın. Amma bu, o demək deyil ki, kiminsə ədalətli qərarlarını tapdayasınız. Hər halda bu gün gələcək fəaliyyəti təyin etmək olar.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Qızıldan tualet kağızı hazırladılar



Avstraliyada fəaliyyət göstərən “Toilet Paper Man” şirkəti 22 əyarlı qızıldan tualet kağızı hazırlayıb. İnternetdə 1 milyon 376 min 900 dollara satılan tualet kağızını alan müştərilərə şirkət tərəfindən xüsusi şampan hədiyyə edilir. Şirkət rəhbərliyi tualet kağızı haqqında açıqlama verərkən bu sözləri deyib: “Dubaydakı xüsusi hotellərdə qızıldan unitazlar var. Biz də tualet kağızı hazırladıq. Ərəb şeyxlərinin bunu alacaqlarını düşünürəm. 3 qatlı rulonu 4 ilə hazırlamışıq”.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

Lisenziya N: B 114
SAYI: 4.750